Xalqın qəzeti!

# Xalq qəzeti

№ 113 (30229) 31 may 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik. Bir neçə gün bundan əvvəl Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq mənim bir neçə il bundan əvvəl dediyim "Qarabağ Azərbaycandır!" sözlərimin təkrarıdır.

# Azərbaycan–İsrail: dostluğun müttəfiqlik zirvəsi

## Rəsmi qarşılanma mərasimi



**Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun mayın 30-da rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İsrail Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu və birinci xanım Mixal Hersoqu qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi İsrail Prezidentinə raport verdi. Prezident İsxak Hersoq Azərbaycan əsgərlərini salamladı. Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər. İsrail Dövlətinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

*(ardı 2-ci səhifədə)*

# Ərdoğanın liderliyi Türkiyəni hərtərəfli inkişafa qovuşduracaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.**

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğanı prezident seçkilərində əldə etdiyi qələbə münasibətilə təbrik edib.

Prezident İlham Əliyev bu qələbəni Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimad kimi dəyərləndirərək, əmin olduğunu bildirib ki, Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə növbəti illərdə də Türkiyənin hərtərəfli inkişafı davam etdiriləcək.

Dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana Türkiyə xalqının firavanlığı və ölkənin tərəqqisi naminə fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

Türkiyə Prezidenti təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib, eyni zamanda, Müstəqillik Günü münasibətilə təbriklərini çatdırıb.

Azərbaycan Prezidenti təbrikə görə təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı ölkəmizə rəsmi səfərə dəvət edib.

Dəvət minnətdarlıqla qəbul edilib.

Dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə bir daha əminliklərini bildiriblər.

Telefon söhbəti zamanı əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edilib.

***Prezidentin Mətbuat Xidməti***

# Hörmət və etimadın səmimi ifadəsi

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

İsrail Dövləti və vətəndaşları adından Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sizin müdrik rəhbərliyinizlə müasir Azərbaycan güclü, firavan dövlətə çevrilib və bütün regionda uğurlu iqtisadi inkişafın nümunəsi, sabitliyin sütunu hesab olunur. Bu il biz ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümünü qeyd edirik.

İsrail ilə Azərbaycanın strateji müttəfiqliyi və tərəfdaşlığı illər ərzində daha da gücləmiş, ölkələrimiz və xalqlarımız arasında qarşılıqlı hörmət və etimada əsaslanmışdır.

Azərbaycan Respublikasının İsrail Dövlətində səfirlik açmaq barədə Sizin müdrik qərarınız məni sevindirmişdir. Səfirliyin açılması Sizin atanız, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin bütün dünyada qeyd olunduğu ilə təsadüf edib. Görkəmli dövlət xadimi Heydər Əliyev ölkələrimiz arasındakı dostluğun və strateji tərəfdaşlığın əsasını qoymuşdur.

Gözəl ölkəniz barədə, onun tarixi və mədəniyyəti, Nizami Gəncəvinin poeziyası, Azərbaycanın təbiəti və görməli yerləri, xalqınızın istiqanlılığı və qonaqpərvərliyi haqqında çox eşitmişəm. Buna görə də həyat yoldaşım Mixal və mən gözəl ölkənizə səfəri, Zati-alinizlə, həmçinin birinci xanım Mehriban Əliyeva ilə görüşümüzü səbirsizliklə gözləyirik.

Azərbaycanın bu mötəbər bayramı münasibətilə səmimi təbriklərimizi qəbul etməyinizi Sizdən bir daha xahiş edirəm. Cənab Prezident, bu fürsətdən istifadə edərək Sizə cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə rifah arzulayıram.

**Hörmətlə,**

***İsxak HERSOQ,***
***İsrail Dövlətinin Prezidenti***

# Böyük Qayıdışın Kəlbəcər və Laçın addımları

**Prezident İlham Əliyevin Vətən müharibəsindən ötən dövr ərzində işğaldan azad edilən rayonlara çoxsaylı səfərləri zamanı bir sıra strateji infrastruktur obyektləri işə salınıb, yenilərinin təməli qoyulub. Bununla da düşmənin darmadağın etdiyi, xarabalığa çevirdiyi şəhər və kəndlərimizə həyat yenidən qaytarılıb. Azadlığına qovuşan torpaqlarımızda aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinin sürəti getdikcə yüksəlib. Bununla da Qarabağ və Şərqi Zəngəzurun yenidənqurma, inkişaf, çiçəklənmə dövrü başlayıb. İllərdir düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu yurd yerlərimizə indi yeni nəfəs gəlib.**

*(ardı 15-ci səhifədə)*

# Prezidentin "Kitab bağlandı" mesajı və ya Ermənistan üçün ən son şans



**Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində yerli əhali ilə görüşündə Bakı ilə İrəvan arasındakı münasibətlərin hazırkı fazasını müəyyənləşdirəcək dolğun məzmunlu fikirlər səsləndirdi. Bu fikirlər həm bütövlükdə ölkəmizin ictimaiyyətini məlumatlandırmaq, həm də Ermənistana və onun havadarlarına ciddi xəbərdarlıq mahiyyəti daşıdı.**

Əslində, dövlətimizin başçısının söylədiklərinə növbəti xəbərdarlıq da demək mümkündür. Onu da nəzərə alaq ki, 44 günlük müharibədən sonrakı hər xəbərdarlıq bundan nəticə çıxarılmaması müqabilində gerçəkləşən proseslərlə yadda qalıb. Deməli, Azərbaycan Prezidentinin sözünün arxasında konkret iş dayanır. Yeri gəlmişkən, cənab İlham Əliyev özü də bu məqama toxundu: "Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər".

*(ardı 12-ci səhifədə)*

# İqtisadi artım qeyri-neft sektoru hesabına təmin olunur

**Hesablama Palatasının məlumatına görə, respublikamızda qeyri-neft sektorunda dinamik inkişaf bu sahə üzrə dövlət büdcəsinin gəlirlərinin artmasına şərait yaradıb.**

"Dünya iqtisadiyyatında da olduğu kimi, Azərbaycan iqtisadiyyatının təkanverici qüvvəsi daxili istehlak və investisiyalar olub. Dünya bazarında enerji daşıyıcılarının qiymətlərində artım ölkəmizin iqtisadiyyatının bütün makrobllokları ilə əlaqəli olub, dövlət büdcəsində xarici valyutada gəlirlərdə artım isə milli valyutada aktivlərə qənaətlə gətirib çıxarıb. Həmçinin ödəniş balansına əsasən, ötən il rezerv valyutada artım qeydə alınıb. 2022-ci ildə qlobal miqyasda inflyasiyanın sürətlənməsi Azərbaycana da toxunub. Ölkəmizə inflyasiya əsasən idxal olunub və son bir neçə il ərzindəki ən yüksək göstəriciyə çatıb", – Hesablama Palatasının məlumatında deyilir.

*(ardı 13-cü səhifədə)*

# Bir səhər ayılıb görəcəklər ki…



**Qarabağdakı daşnak-separatçı tör-töküntüsünün vəziyyəti gərginləşdirmə riski daşıyan bütün hərəkətlərinin qarşısının qətiyyətlə alınacağına, Bakı ilə düşmənçiliyi davam etdirənlərlə adekvat davranılacağına heç kəsdə şübhə yeri qala bilməz. Ali Baş Komandanımızın birmənalı son xəbərdarlığını anlamayanları gözləyən acınacaqlı aqibət artıq tam şəkildə məlumdur.**

*(ardı 11-ci səhifədə)*

# Oğru elə bağırdı ki...

Səhifə ⇨ 11



# Rəsmi qarşılanma mərasimi





**(əvvəli 1-ci səhifədə)**

Azərbaycan nümayəndə heyətinin üzvləri İsrail Prezidenti İsxak Hersoqa və xanımı Mixal Hersoqa, İsrail nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İsrail Prezidenti İsxak Hersoqun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

# Azərbaycan ilə İsrail arasında səhiyyə və tibb elmi sahələrində Əməkdaşlıq Planı imzalanıb



**Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı" imzalanıb.**

Sənədi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbel imzaladılar.

# Prezidentlərin təkbətək görüşü



**Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə təkbətək görüşü olub.**

Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, İsxak Hersoqun ölkəmizə səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan və İsrail prezidentlərinin geniş tərkibdə görüşü



**Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun geniş tərkibdə görüşü keçirilib.**

**Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Cənab Prezident, hörmətli nümayəndə heyətinin üzvləri, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə qəbul etmək imkanına malik olduğumuza görə çox şadıq. Əminəm ki, səfər ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verəcək. Elə indicə cənab Prezidentlə ikitərəfli gündəliyimiz və regional məsələlərlə bağlı çox yaxşı müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə, bu gün və sabah davam edəcək səfəriniz çərçivəsində təmaslarda geniş diapazonlu məsələlər müzakirə olunacaq. Biz səfərdən sonra müsbət dinamikanı görəcəyik. Çünki mən tamamilə əminəm, böyük potensial mövcuddur, baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük. Lakin hələ çoxlu işlər görülməlidir. Əlbəttə ki, biz Sizin Azərbaycana səfərinizi tarixi səfər hesab edirik. Dəvətimi qəbul etdiyiniz üçün təşəkkür edirəm. Ümid edirəm ki, ölkəmizdə yaxşı vaxt keçirəcəksiniz. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram.

***

**İsrail Prezidenti İsxak Hersoq çıxış edərək dedi:**

– Çox sağ olun, cənab Prezident. Burada olmaqdan şərəf və məmnunluq hissi duyuram. Biz buraya açıq ürəklə, millətlərimiz arasında böyük dostluqla gəlirik. Ən əsası odur ki, siz mərhum atanızı yetişdirən millətsiniz, sonra isə Siz onun yolunu davam etdirərək elə bir heyrətamiz ölkə yaratmısınız ki, bura bir çox məsələlərin mərkəzinə çevrilib.

İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir. İlk növbədə, hesab edirəm ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk. Buna görə çox sağ olun. Əlbəttə ki, cənab Prezident, mən qarşılıq göstərərək Sizi İsraildə qəbul etməyi səbirsizliklə gözləyirəm.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

# Azərbaycan və İsrail prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İsxak Hersoq mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli, cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Cənab Prezident, ölkəmizə xoş gəlmisiniz. Sizi Azərbaycanda qəbul etmək imkanına malik olduğuma görə çox şadam. Sizin səfəriniz ölkələrimiz arasında sıx tərəfdaşlıq əlaqələrini nümayiş etdirir. Əminəm ki, səfər bizim ikitərəfli əlaqələrimizi gücləndirəcək. Aramızda çox fəal siyasi dialoq var və biz cənab Prezidentlə telefonla əlaqə saxlayırıq. İndi isə, əlbəttə ki, rəsmi səfər zamanı bizim ikitərəfli gündəliyimizdə duran önəmli məsələləri müzakirə etmək üçün daha çox imkanımız var. Bu il İsraildə Azərbaycan səfirliyinin açılması, əlbəttə ki, əlaqələri daha yüksək səviyyəyə qaldıracaq və eyni zamanda, daha sıx qarşılıqlı əməkdaşlıq üçün geniş imkanlar yaradacaq.

Bəzi iqtisadi rəqəmlərə nəzər salarkən gördüm ki, ticarət dövriyyəmiz 1,7 milyard ABŞ dollarından çoxdur, bu da böyük məbləğdir. Lakin, hesab edirəm ki, növbəti illərdə biz ticarət dövriyyəsini şaxələndirməyə çalışmalıyıq və ümid edirəm ki, həyata keçiriləcəyini planlaşdırdığımız birgə layihələr nəticəsində bizim daha balanslaşdırılmış ticarət dövriyyəmiz olacaq və o, təkcə enerji amilindən asılı olmayacaq. Buna baxmayaraq, uzun illərdir ki, Azərbaycan İsrailə xam neftin etibarlı təchizatçısı olmaqda davam edir və bu da əslində enerji sahəsində sıx əməkdaşlığı nümayiş etdirir.

Bu gün müzakirələr zamanı biz, həmçinin enerji sahəsində əməkdaşlığın necə genişləndirilməsi məsələsini də müzakirə etdik. Çünki biz investisiya layihələri, interkonnektorların yaradılması və üçüncü ölkələrdə potensial əməkdaşlıq layihələri üçün böyük imkanlar görürük.

Biz, həmçinin irriqasiya və kənd təsərrüfatı sahəsində planlarımızı və artıq görülmüş işləri müzakirə etdik. İsrailin bu sahədə böyük nailiyyətlərindən bizim xəbərimiz var və biz kənd təsərrüfatında məhsuldarlığı artırmaq üçün bu müsbət təcrübədən istifadə etmək və ixrac bazarımızı şaxələndirmək istəyirik.

Nisbətən bu yaxınlarda əməkdaşlığa başladığımız sahələrdən biri kibertəhlükəsizlik sahəsidir. Bu sahədə fəal təmasların başlanılmasına çox şadıq. Bu gün artıq sirr deyil ki, kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin mühüm hissəsidir. Əlbəttə ki, bu sahədə İsrail şirkətlərinin böyük təcrübəsi bizim üçün faydalı olacaq. Həmçinin gənc nəslin təlimi və tədrisi də məqsədlərimizə nail olmaq və özümüzü təhlükədən qorumaq üçün mühüm amil olacaq.

Təhdidlərdən danışarkən, həmçinin müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı məmnuniyyətlə qeyd etmək istəyirəm. Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır.



Bu gün biz, həmçinin qarşılıqlı turist axını səviyyəsinin necə qaldırılmasını da müzakirə etdik. Həftədə yalnız dörd reys var və hesab edirəm ki, bu, yetərli deyil. Nümayəndə heyətlərinin üzvlərinə uçuşların sayının artırılması ilə bağlı göstərişlər verilmişdir və bunun təkcə mövsümi əsasda yox, - çünki adətən yay vaxtlarında daha çox uçuşlar olur, - daimi əsasda edilməsi tapşırılmışdır. Həmçinin İsraildə daha çox təqdimat imkanlarının araşdırılması da tapşırılmışdır ki, biz İsraildən daha çox turisti buraya dəvət edə bilək və əsrlər boyu Azərbaycanda yaşayan yəhudi icması haqqında daha çox məlumat verə bilək. Bu, bizim ölkənin böyük dəyəridir, yəhudi icmasının üzvləri - Azərbaycan vətəndaşları ölkəmizin müasir inkişafına çoxlu töhfə vermiş və töhfə verən insanlardır. Onlar bizim müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda bizimlə və bütün digər azlıqların nümayəndələri ilə çiyin-çiyinə vuruşublar. Bu gün bu, təkcə Azərbaycanın uğurlu inkişafı, mədəniyyətlərarası sülh və dostluq üçün yox, eyni zamanda, bizim ikitərəfli münasibətlərimiz üçün mühüm amildir. Bilirəm ki, İsraildə yaşayan azərbaycanlılar ölkələrimiz arasında körpülərin qurulmasında mühüm rol oynayırlar. Bizim dünya azərbaycanlılarının diaspor təşkilatları var, lakin yalnız bir ölkədə, İsraildə bu təşkilat əsasən yəhudi mənşəli insanlardan ibarətdir. Bu, aramızda heç bir fərqin, heç bir bölgünün olmadığını nümayiş etdirir. Bizim əsrlər boyu davam edən qarşılıqlı əlaqələr, dostluq və qarşılıqlı dəstək tariximiz var. Müstəqil ölkə olaraq Azərbaycanın, sadəcə, 31 yaşı var, lakin bizim qədim tariximiz var və Azərbaycandakı yəhudilər həmişə cəmiyyətimizin fəal və mötəbər hissəsi olmuşlar və bu gün də belə olmaqda davam edirlər. Beləliklə, bu, ölkələrimiz arasında, belə deyək, mədəni körpülərdir. Buna görə onların bizim ikitərəfli strateji əməkdaşlığımıza töhfəsi çox vacibdir.

Bizim gündəliyimiz həqiqətən də genişdir. Mətbuat konfransı üçün vaxtımız məhduddur, əks halda ikitərəfli əməkdaşlığımızın geniş gündəliyi haqqında saatlar ərzində danışardıq. Əlbəttə ki, nümayəndə heyətlərinin üzvləri bu gün və sabah daha sıx qarşılıqlı əlaqədə olacaqlar.

Yekunda mən bir daha cənab Prezidentə dəvətimi qəbul etdiyinə və Azərbaycanı rəsmi səfərlə ziyarət etdiyinə görə təşəkkürümü ifadə etmək istəyirəm. Ona və İsrail xalqına sülh, uğur və çiçəklənmə, Azərbaycanda yaxşı vaxt keçirməyi arzu etmək istəyirəm. Bir daha xoş gəlmisiniz, cənab Prezident.

***

Sonra İsrail Prezidenti bəyanatla çıxış etdi.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan və İsrail prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

## Prezident İsxak Hersoqun bəyanatı



– Təşəkkür edirəm, cənab Prezident!

Azərbaycana səfər etmək mənim üçün və millətim üçün həyata keçən arzudur. Bu səfər İsrail xalqı üçün və Azərbaycan xalqı ilə İsrail xalqı arasında birgə əlaqələr baxımından böyük əhəmiyyət kəsb edir.

Cənab Prezident, qonaqpərvərliyinizə, dəvətinizə görə təşəkkür edirəm. Mən bunun qarşılığında Sizi və birinci xanımı İsrailə dövlət səfərinə dəvət etmək istərdim. Bu, əsası mərhum məşhur atanız tərəfindən qoyulmuş və illər ərzində inkişaf etmiş heyrətamiz əlaqələrimizin ifadəsi olar. Prezident Əliyev, dövlətinizi qurub və Siz son bir neçə ildə onu genişləndirərək inkişaf etdirmisiniz.

Bizim əlaqələrimizin dərin kökləri var. Yəhudilərin bu ölkədəki irsinin kökləri, yeri gəlmişkən, özlüyündə nümunə olan nadir irsi və yəhudi icmalarının 120-130 il əvvəl meydana gəlməsi ilə Azərbaycanın dünyada yazdığı hekayəsinə öz böyük töhfəsini verib. Sülh, ümumi rifah, yaxşı işlərə dair birgə strateji baxışımızla birlikdə, yəhudilərlə müsəlmanlar arasında səmərəli, ədalətli, səmimi, dostcasına dialoq, bizim arzulaya və nümayiş etdirə biləcəyimiz bir baxışdır.

Sirr deyil ki, ölkəniz əhalisinin əksəriyyəti şiələr olan müsəlman ölkəsidir. Buna baxmayaraq, millətlərimiz arasındakı sevgi və bağlılıq dünyanı necə dəyişdirə biləcəyimizin və irəli gedə biləcəyimizin nümunəsidir. İndicə səhiyyə nazirlərimiz arasında şahidi olduğumuz mərasim, cənab Prezident, Sizin qeyd etdiyiniz kimi, əməkdaşlıq üçün nə qədər məsələ və sahənin olmasının daha bir nümunəsi və təcəssümüdür.

Bizim ortaq baxışımız var, mən Azərbaycanın dünyada və regionda böyük təsirə malik olduğunu görürəm. Siz mənə Azərbaycanın Avropanın enerji sektoruna, ümumilikdə regiona, Asiyaya, sözsüz ki, bizimlə əlaqəli Yaxın Şərqə təsiri barədə danışdınız. Biz İranın təhlükə və təhdid yaratdığı qlobal, regional təhlükəsizlik strukturuna nəzər saldıq, bu məsələni dərindən müzakirə etdik. Əlbəttə ki, biz elm, kənd təsərrüfatı və cənab Prezident, giriş nitqində qeyd etdiyiniz bir çox sahələrdə əməkdaşlığı inkişaf etdirmək imkanlarımızı səbirsizliklə gözləyirik.

Mən bu möhtəşəm an üçün Sizə səmimi-qəlbdən minnətdarlığımı bildirmək istəyirəm. Biz İsrailin müstəqilliyinin 75 illiyini, eyni zamanda, dövlətlərimiz arasında çox güclü əlaqələrimizin 30 illiyini qeyd edirik. Əminəm ki, mənim və nümayəndə heyətimin bu səfəri əlaqələrimizin daha da inkişafı baxımından bir mərhələ olacaq. Təşəkkür edirəm, bizim dediyimiz kimi, şalom, cənab Prezident.

# Azərbaycanın və İsrailin birinci xanımları Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olublar



**Mayın 30-da Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və İsrail Dövlətinin birinci xanımı Mixal Hersoq Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində olublar.**

Ziyarət zamanı kompleks və Qala kəndinin qədim tarixi barədə məlumat verilib.

Bildirilib ki, Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğunda abidələrin qorunması və qoruğun daha da zənginləşdirilməsi üçün 2008-ci ildə Heydər Əliyev Fondunun dəstəyi ilə burada açıq səma altında ilk Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksi yaradılıb. Muzey kompleksinin ərazisində ölkəmizə, xüsusilə də Qala kəndinə və Abşeron yarımadasına xas arxeoloji memarlıq abidələri toplanıb və bərpa olunub.

Muzey kompleksində qədim yaşayış məskənləri, kurqanlar, digər memarlıq abidələri ilkin görkəmində olduğu kimi nümayiş etdirilir. Dünyanın açıq səma altında yaradılmış nadir muzeylərindən olan Qala Arxeoloji-Etnoqrafik Muzey Kompleksində qədim evlər və məişətdə istifadə olunan əşyalar daha çox diqqət çəkir.

Qonağa Azərbaycanın ənənəvi sənət növləri olan dulusçuluq, dəmirçilik, xalçaçılıq və ipəkçilik barədə də məlumat verilib. Diqqətə çatdırılıb ki, keçmişdə Qala kəndində bir sıra sənət sahələri inkişaf edib. Bu ərazidə arxeoloji qazıntılar zamanı aşkar edilən saxsı məmulatlar da bədii cəhətdən çox maraqlıdır.

Kompleksdəki toy evi diqqəti xüsusilə cəlb edib. Xalça və döşəklərlə bəzədilmiş bu geniş otağın hər iki tərəfində qapının olması evin havasının təmizliyinə və sərinliyinə imkan yaradır.

Muzey kompleksindəki tacir evi haqqında məlumat verilərkən bildirilib ki, bu ev kəndin ilk ikimərtəbəli evlərindən biridir. Burada çörəkçilik adət-ənənəsi ilə də tanışlıq olub. Diqqətə çatdırılıb ki, Qala kəndinin sakinləri qədim zamanlardan heyvandarlıqla da məşğul olublar. Qala kəndində taxılçılığın çox geniş inkişaf etdiyi barədə məlu-



mat verilib, əl dəyirmanı vasitəsilə unun hazırlanması prosesi nümayiş olunub.

“Tullantıdan sənətə” muzeyi ilə tanışlıq zamanı məlumat verilib ki, bu mədəniyyət ocağı 2015-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə “Təmiz Şəhər” ASC tərəfindən yaradılıb. Burada nümayiş olunan əsərlər insanların lazımsız hesab etdikləri tullantılardan hazırlanıb. Muzeydə müxtəlif ölkələrdən Azərbaycana dəvət olunmuş sənətkarlar tərəfindən tullantılardan yaradılmış əsərlər sərgilənir.

Komplekslə tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva və İsrailin birinci xanımı Mixal Hersoq çay süfrəsi arxasında söhbət etdilər.

***AZƏRTAC***

# Ali qonağın şərəfinə



**Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və birinci xanım Mixal Hersoqun şərəfinə rəsmi lanç verilib.**

# İkitərəfli münasibətlər uğurla inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.**



Baronessa Emma Nikolson Bakı Enerji Həftəsi ilə bağlı Böyük Britaniyanın Baş naziri Rişi Sunakın məktubunu dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev məktuba görə minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi qeyd olundu, energetika, neft-qaz sektorunda əməkdaşlığa toxunuldu, uzun illər Azərbaycan ilə BP arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı, bu xüsusda Cənub Qaz Dəhlizinin icrasının önəmi qeyd edildi.

Görüşdə Baronessa Emma Nikolsonun Bakı Enerji Həftəsində iştirak edəcəyi məmnunluqla vurğulandı.

Söhbət zamanı ticarət, kiçik və orta biznes, sosial layihələrin həyata keçirilməsi, humanitar əlaqələr, qadın hüquqlarının qorunması sahəsində təcrübə mübadiləsi və digər məsələlər müzakirə olundu.

***AZƏRTAC***

# Azərbaycanı Qazaxıstanla çoxtərəfli əlaqələr birləşdirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Qazaxıstan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Alim Bayelin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında fəal əməkdaşlığın həyata keçirildiyini bildirdi, bu baxımdan özünün Qazaxıstana, Qazaxıstan Prezidentinin isə Azərbaycana səfərinin əlaqələrimizin genişlənməsi işinə təkan verdiyini vurğuladı.

Prezident İlham Əliyev xalqlarımız arasında dostluq və qardaşlıq əlaqələrinin böyük tarixə malik olduğunu qeyd etdi, hər zaman qarşılıqlı dəstəyin nümayiş etdirildiyini bildirdi. Bu gün bu amilin Xəzər dənizi hövzəsində və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün böyük önəm daşıdığını dedi.

Dövlətimizin başçısı hazırda Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsinin və daşımalarının həcminin artırılması istiqamətində fəal danışıqların getdiyini qeyd edərək, nəqliyyat-logistika sahəsinin iqtisadi əlaqələrimizin əsas istiqamətlərindən biri olduğunu dedi və həyata keçirilən birgə infrastruktur layihələrinin yükdaşımaların həcminin genişlənməsi üçün yaxşı imkan yaratdığını vurğuladı. Azərbaycan Prezidenti, eyni zamanda, gəmiqayırma müəssisələrinin imkanlarından da istifadə olunmasının önəmini qeyd etdi. Dövlətimizin başçısı bir müddət bundan əvvəldən başlayaraq Qazaxıstandan neftin Azərbaycan ərazisindən nəql olunmasının əhəmiyyətini vurğuladı və bunun energetika sahəsində əməkdaşlığı genişləndirmək işinə mühüm töhfə verdiyini dedi. Dövlətimizin başçısı səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda səfir təyin olunmasından şərəf hissi duyduğunu bildirən Alim Bayel ikitərəfli münasibətlərin bundan sonra da inkişaf etdirilməsində səylərini əsirgəməyəcəyini qeyd etdi.

Səfir ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı ehtiramını ifadə edərək, Müstəqilik Günü münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik etdi.

Alim Bayel əlaqələrimizin genişlənməsində iqtisadi-ticari sahədə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinin və ölkələrimiz, eyni zamanda, digər regionlar üçün böyük geoiqtisadi önəm daşıyan layihələrin həyata keçirilməsinin prioritet olduğunu bildirdi. Bu xüsusda Transxəzər beynəlxalq nəqliyyat dəhlizinin inkişaf etdirilməsini, Xəzər dənizinin dibi ilə fiberoptik rabitə xəttinin çəkilməsini, Qazaxıstan neftinin ixracının şaxələndirilməsini qeyd etdi.

Görüşdə Azərbaycanla Qazaxıstanın beynəlxalq təşkilatlarda, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində səmərəli əməkdaşlıq etdiyi vurğulandı.

***AZƏRTAC***

# İsrail Prezidenti Heydər Əliyevin məzarını ziyarət edib



**Azərbaycanda rəsmi səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 30-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.**

İsrail Prezidenti ulu öndərin məzarı önünə əklil qoydu.

Sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla anıldı, məzarı üzərinə tər güllər düzüldü.

# Şəhidlərin xatirəsinə ehtiram



**Mayın 30-da İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq Bakıda Şəhidlər xiyabanını ziyarət ediblər.**

Şəhidlər xiyabanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İsrail Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Müdafiə Nazirliyinin əlahiddə nümunəvi orkestrinin ifasında İsrailin və Azərbaycanın Dövlət himnləri səsləndirildi.

Sonda Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən İsrail Prezidentinə və xanımına Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verildi.

# Bakıda İsrailin Müstəqillik Günü münasibətilə rəsmi qəbul






**Mayın 30-da Bakıda Heydər Əliyev Mərkəzində İsrail Dövlətinin Müstəqillik Günü münasibətilə rəsmi qəbul təşkil olunub.**



Tədbirdə ölkəmizdə rəsmi səfərdə olan İsrail Prezidenti İsxak Hersoq, birinci xanım Mixal Hersoq, Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova, Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov, dövlət və hökumət nümayəndələri, din xadimləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun əməkdaşları və tanınmış ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirildi.

İsrailin Azərbaycandakı səfiri Corc Dik bildirdi ki, İsrail və Azərbaycan rəhbərlərinin səyləri nəticəsində ölkələrimiz arasında dostluq münasibətləri inkişaf edir, ikitərəfli strateji tərəfdaşlığımız daha da dərinləşir.

Sonra çıxış edən İsrail Prezidenti İsxak Hersoq qeyd etdi ki, bu il İsrail öz müstəqilliyinin 75-ci ildönümünü qeyd edir. Eyni zamanda, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümüdür. İki ölkənin müstəqillik günləri bir-birinə yaxın tarixlərdə qeyd olunur. Ölkələrimiz arasındakı sıx əlaqələr yalnız qarşılıqlı marağa deyil, hər şeydən əvvəl ortaq dəyərlərə əsaslanır.

İsrailin və Azərbaycanın davamlı tərəqqi və inkişaf yolu ilə irəlilədiyini vurğulayan Prezident İsxak Hersoq deyib ki, xalqlarımız arasındakı əlaqələrin qədim tarixi var. Yəhudilər üçün Azərbaycan təhlükəsiz məkandır, onlar burada inkişaf edib, öz mədəniyyətlərini qoruyub saxlayıblar. Yəhudilər yalnız öz icmaları çərçivəsində deyil, Azərbaycanın zəngin siyasi və mədəni mühitində də tərəqqi tapıblar. Bu, kiçik məsələ deyil. Dinlərarası əməkdaşlıq və xalqlararası tolerantlıq, qarşılıqlı hörmət hər iki ölkənin üstünlük verdiyi dəyərdir. Azərbaycanın Təl-Əvivdə səfirliyinin açılması əlaqələrimizin yeni müstəvidə inkişafına kömək edəcək.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Milli Məclisinin sədri Sahibə Qafarova İsrail Dövlətinin milli bayramı – Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin səmimi təbriklərini və xoş arzularını çatdırıb. Bildirib ki, İsrail Dövlətinin milli bayramının ulu öndərin adını daşıyan Mərkəzdə təntənəli şəkildə qeyd edilməsi olduqca əlamətdar bir haldır. Azərbaycan-İsrail əlaqələrinin təməli məhz ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onu uğurla davam etdirir. Müstəqilliyinin 75 ili ərzində böyük inkişaf yolu keçən İsrail Dövlətinin əldə etdiyi nailiyyətlər ölkəmizdə böyük rəğbətlə izlənilir. Bu, təsadüfi deyil. Çünki Azərbaycanla İsraili qarşılıqlı hörmət və etimada əsaslanan əsl dostluq münasibətləri birləşdirir.

Ötən il diplomatik münasibətlərimizin qurulmasının 30-cu ilinin tamam olduğunu xatırladan Sahibə Qafarova xalqlarımız arasındakı əlaqələrin daha dərin tarixi köklərə malik olduğunu diqqətə çatdırıb.

Sonra İsrail Prezidentinə Azərbaycan xalçası hədiyyə olundu.

Rəsmi hissədən sonra tədbir bədii hissə ilə davam etdi.

# İsrail Dövlətinin Prezidenti və xanımı Heydər Əliyev Mərkəzində







**Azərbaycan Respublikasında rəsmi səfərdə olan İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və xanımı Mixal Hersoq mayın 30-da Heydər Əliyev Mərkəzində olublar.**

Mərkəzin direktoru Anar Ələkbərov İsrail Dövlətinin Prezidenti İsxak Hersoqa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında məlumat verib.

Qeyd olunub ki, Mərkəzin fəaliyyəti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib. Mərkəzin həyata keçirdiyi layihələr, həmçinin Azərbaycan tarixinin, mədəniyyətinin və digər milli sərvətlərin beynəlxalq aləmdə təbliğinə xidmət edir.

İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Muzeydə 1969-cu ildən 2003-cü ilədək ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrlərdə xidməti istifadəsində olan avtomobillərlə tanış olub.

Mərkəzdə yaradılmış Heydər Əliyev Muzeyi İsrail Dövlətinin Prezidentində böyük maraq doğurub.

Daha sonra Prezident xatirə kitabına ürək sözlərini yazıb.

Qonaqlar "Azərbaycan inciləri" sərgisi ilə də tanış olub. Bildirilib ki, Azərbaycanın tarixini və mədəniyyətini əks etdirən bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı eksponatlar nümayiş etdirilir. Azərbaycan milli geyimlərinin, qədim sikkələrin nümayiş etdirildiyi sərgiyə gələnlər burada müxtəlif dillərdə müqəddəs kitabları da görə bilərlər.

"Mini Azərbaycan" sərgisi ilə tanışlıq zamanı isə diqqətə çatdırılıb ki, bu ekspozisiyada Bakıda və Azərbaycanın regionlarındakı tarixi memarlıq abidələri və bir sıra müasir binaların maketləri nümayiş etdirilir.

Sonra İsrail Dövlətinin Prezidenti və xanımı "Azərbaycan xalçası - ilmələrin rəqsi" adlı xalça kolleksiyası ilə tanış olublar. Ali qonağa "Azərbaycan xalçası – ilmələrin rəqsi" adlı kitabı hədiyyə edilib.

***AZƏRTAC***

# Heydər Əliyev Beynəlxalq Aeroportunda qarşılanma

**İsrail Dövlətinin Prezidenti İsxak Hersoq mayın 30-da Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İsrail Prezidenti İsxak Hersoqu və xanımı Mixal Hersoqu Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər qarşıladılar.

# Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr aparılıb

**Dünən Moskvada Azərbaycanla Rusiya arasında Xəzər dənizi məsələləri üzrə ikitərəfli məsləhətləşmələr keçirilib.**

Məsləhətləşmələrdə Azərbaycan tərəfini xarici işlər nazirinin müavini, Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov, Rusiya tərəfini isə MDB-nin iştirakçı dövlətləri olan həmsərhəd dövlətlərlə Rusiya Federasiyasının dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası üzrə Rusiya Prezidentinin xüsusi nümayəndəsi Mixail Petrakov təmsil edib.

Görüş zamanı, Xəzər dənizində beştərəfli əməkdaşlığa aid olan geniş spektrli məsələlər müzakirə olunub.

29 iyun 2022-ci il tarixində keçirilən Xəzəryanı dövlətlərin altıncı Zirvə Toplantısında qəbul olunmuş qərarların həyata keçirilməsinin vacibliyi qeyd olunub.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Laçında Müstəqillik Gününün Qayıdış təntənəsi

## Heydər Əliyev, Zəfər və 28 May küçələri yenidən qurulacaq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində Heydər Əliyev, Zəfər və 28 May küçələrinin kəsişməsində istiqamət bildirən lövhələrin açılışını edib.**



Prezidentin Laçın rayonunda xüsusi nümayəndəsi Məsim Məmmədov dövlətimizin başçısına küçələrdə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın şəhərində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adını daşıyan küçənin uzunluğu 6 min 967 metr, eni isə 10-12 metr təşkil edir. Vətən müharibəsində şanlı Qələbənin şərəfinə adlandırılan Zəfər küçəsinin uzunluğu 5 min 239, eni isə 12 metrdir. 28 May küçəsinin isə uzunluğu 1703, eni isə 10 metr nəzərdə tutulur.



Qeyd edildi ki, şəhərin memarlıq üslubuna uyğun qaydada yenidən qurulacaq bu küçələrdə ən müasir infrastruktur yaradılacaq.

Prezident İlham Əliyevə, həmçinin Laçın şəhərində görülən işlər və Heydər Əliyev küçəsinin yenidənqurma konsepti barədə məlumat verildi.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtükləri götürdü.

## Xosrov bəy Sultanov və Zəngəzur küçələri abadlaşdırılacaq

**Mayın 28-də Laçın şəhərində Xosrov bəy Sultanov və Zəngəzur küçələrinin kəsişməsində istiqamət bildirən lövhələrin açılışı olub.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısına küçələrdə görüləcək işlər barədə məlumat verildi.

Bildirildi ki, Xosrov bəy Sultanov küçəsinin uzunluğu 1329 metr, eni 12 metr olacaq.

Zəngəzur küçəsinin uzunluğu 2 min 142 metr, eni isə 10 metr təşkil edəcək.

Qeyd edildi ki, küçələrdə aparılacaq yenidənqurma işlərindən sonra burada zəruri infrastruktur yaradılacaq.

Dövlətimizin başçısı küçələrin adlarının yazıldığı lövhələrin üzərindən örtüyü götürdü.

Küçə ilə tanışlıqdan sonra Prezident İlham Əliyev Laçın şəhərində inşa olunan kotteclərə baxdı.

## Prezident Laçının 1 Dekabr küçəsində bərpa olunmuş evlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində “1 Dekabr” adı verilmiş küçədə lövhənin açılışını edib.**

Dövlətimizin başçısına küçədə görüləcək işlər və yaradılacaq şərait barədə məlumat verildi.

Bildirildi ki, 1 Dekabr küçəsi şəhərin diplomatik yolla işğaldan azad olunduğu tarixə əsasən belə adlandırılıb. Küçənin uzunluğu 1566 metr, eni isə 10 metr təşkil edir.

Prezident İlham Əliyev küçənin adının yazıldığı lövhənin üzərindən örtüyü götürdü.

Sonra dövlətimizin başçısı küçədə yerləşən və bərpa edilmiş yaşayış evində yaradılan şəraitlə tanış oldu.

## Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüşü



**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərin açarlarını onlara təqdim edib. Dövlətimizin başçısı görüşdə çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

– Bu gün Müstəqillik Günüdür. Əziz laçınlılar, ilk növbədə sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə təbrik edirəm. Bu gün ikiqat bayramdır. Çünki bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu münasibətlə həm sizi, həm də bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm.

Bu görüşü məhz 28 May tarixində təşkil etməyimizin böyük rəmzi mənası var. Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir.

Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də, çox insan yaşayacaqdır.

Bütövlükdə, 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binasıdır, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək.

Bununla paralel olaraq indi tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq, bütün digər lazımi şərait yaradılır. Dünən mənə göstərilən təqdimatda gördüm ki, onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır və gördüyünüz kimi, bu gün Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir.

Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda yaradılmaqda olan bütün şəhər və kəndlərimiz, təxminən, bax bu səviyyədədir. Dünən Kəlbəcər və Laçın rayonlarında yeni yaradılan və yaxın gələcəkdə istifadəyə veriləcək kəndlərin təməlqoyma mərasimlərində iştirak etmişəm. Yəni, azad edilmiş bütün ərazilərdə geniş quruculuq işləri aparılır. Yəni, bu, bir daha onu göstərir ki, biz - o torpaqların sahibləri gəlmişik qurmaq üçün, yaratmaq üçün. Mənfur düşmən 30 il bizim şəhər və kəndlərimizi dağıdıb, viran qoyub, özü də yaşamayıb, bizə də yaşamağa imkan verməyib. Biz isə cəmi iki il yarım ərzində artıq keçmiş köçkünlərin birinci qrupunu Ağalı kəndinə, Talış kəndinə yerləşdirmişik və üçüncü yaşayış yeri, hara ki, keçmiş köçkünlər qayıdır, Laçın şəhəri olub. Biz bu ilin sentyabr ayına qədər Zabux kəndini də tamamilə inşa edib zabuxluların sərəncamına verəcəyik. Bildiyiniz kimi, Zabux və Sus kəndləri də Laçın şəhəri ilə eyni gündə işğalçılardan azad edilmişdir və orada da fəal iş aparılır. Beləliklə, həm Laçın rayonunda, həm bütün başqa rayonlarda biz ildən-ilə daha da böyük işlər görməklə öz vətəndaşlarımızı normal şəraitlə təmin edəcəyik.

Laçın rayonunun işğal altına düşməsi hamımız üçün böyük faciə idi,- ilk növbədə, sizin üçün, çünki siz artıq doğma torpaqlarda yaşaya bilmirdiniz,- eyni zamanda, gənc, müstəqil Azərbaycan üçün. Çünki Laçının işğal altına düşməsi ilə Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında coğrafi əlaqə yaradılmışdır. Laçın rayonu 1992-ci ilin may ayında, Şuşadan 10 gün sonra işğal olunmuşdu. Bizim müstəqilliyimizin bərpasının heç bir yaşı tamam olmamışdı. Mənfur düşmən bizə qarşı artıq açıq təcavüzə keçmişdi. Əfsuslar olsun ki, nə ovaxtkı Azərbaycan rəhbərliyi, nə də rəhbərliyə can atan müxalifət qüvvələri öz məsuliyyətini dərk edə bilməmişlər, bir çox hallarda hər ikisi xəyanət törətmişdir. Laçının ermənilərə təhvil verilməsinin arxasında məkrli siyasi niyyətlər dayanmışdı. AXC-Müsavat cütlüyü hakimiyyətə can atırdı. Hakimiyyəti istənilən yollarla ələ keçirmək üçün ən çirkin əməllərə də əl atdı, Şuşanı, Laçını demək olar ki, düşmənə təhvil verdi. Görün, bu tarixlərin - yəni, Laçının azad olunmasının və bu gün bizim burada keçirdiyimiz görüşün tarixlərinin də rəmzi mənası var. May ayında Laçın işğal altına düşdü, may ayında laçınlılar Laçına qayıtdılar. Düzdür, 31 ildən sonra, amma biz qayıtmışıq.

1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşdü, artıq hakimiyyətə can atmış və hakimiyyəti zəbt etmiş o qüvvələrin xəyanəti nəticəsində. Aprel ayında biz Azərbaycan-Ermənistan sərhədinin Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsini quraraq öz ərazi bütövlüyümüzü tam bərpa etdik. Yəni, bu tarixlər arasında bağlılıq var. O vaxt Azərbaycan müstəqil ölkə kimi yaşasa da, ancaq müstəqil siyasət apara bilmirdi. Azərbaycan zəif idi, gücsüz idi, ölkədə gedən dağıdıcı proseslər yeni əldə edilmiş müstəqilliyi faktiki olaraq şübhə altına qoymuşdu. Ölkədə həm iqtisadi böhran, siyasi böhran, hərbi böhran hökm sürürdü, hakimiyyət uğrunda mübarizə, demək olar ki, savaş gedirdi, vətəndaş müharibəsi alovlanırdı. Bütün bu işlərin səbəbkarı o vaxt Xalq Cəbhəsi-Müsavat cütlüyünün mənfur fəaliyyəti idi.

Bu ay biz ulu öndər Heydər Əliyevin 100 illiyini qeyd etmişik və ilin sonuna qədər tədbirlər davam edəcək. Məhz onun Azərbaycan rəhbərliyinə gəlməsindən sonra Azərbaycan ayağa qalxa bildi, Azərbaycan inkişaf yoluna qədəm qoya bildi, vətəndaş müharibəsinə son qoyuldu. 1993-cü ilin oktyabr ayından – o, prezident vəzifəsinə seçiləndən sonra bu günə qədər Azərbaycan sabitlik məkanı kimi, dünyada nümunəvi ölkə kimi özünü təsdiqləyib. O vaxt isə vəziyyət tam fərqli idi. Laçın, Kəlbəcər və Şuşa işğal olunandan sonra təbii ki, erməni silahlı qüvvələri böyük strateji - hərbi üstünlük əldə etmişlər və digər torpaqlarımızı da işğal edə bilmişlər.

Siz yaxşı bilirsiniz, mən uzun illər ərzində çalışırdım ki, biz bu işğala danışıqlar yolu ilə son qoyaq. 20 ilə yaxın apardığım danışıqlar bunu bir daha göstərir. Ancaq siz də, bütün Azərbaycan xalqı da, bütün dünya ictimaiyyəti də yaxşı bilirdi və bilir ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə çıxmaq istəmirdi, işğal edilmiş torpaqlardan çıxmaq istəmirdi. Sadəcə olaraq, görüntü naminə, beynəlxalq vasitəçiləri aldatmaq üçün, beynəlxalq ictimaiyyəti çaşdırmaq üçün belə bir təklif irəli sürürdü ki, bəli, guya onlar beş rayonu qaytarmağa hazırdırlar, ancaq Laçın və Kəlbəcər onların əlində həmişəlik qalmalıdır. Biz isə heç vaxt bununla razılaşa bilməzdik. Mən hər zaman deyirdim ki, ərazi bütövlüyümüz tam bərpa edilməlidir. Bu gün müzəffər Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində biz buna nail olmuşuq. Biz düşməni döyüş meydanında məğlub etmişik. Danışıqlar yolu ilə olsaydı, daha yaxşı olardı, ancaq mən deyirdim ki, biz hər varianta hazır olmalıyıq və azadlıq gününü hər birimiz yaxınlaşdırmalıyıq və yaxınlaşdırdıq. Danışıqlar aparılan müddətdə iqtisadiyyatımızı gücləndirdik və bu gün heç kimdən asılı deyilik. Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz. Deyirəm, ən azı regional, amma, eyni zamanda, bu gün dünya miqyasında bir çox məsələlərdə Azərbaycanın mövqeyi önəmli mövqe kimi sayılır.

Güclü ordu qurmuşuq. Bu ordu düşməni 44 gün ərzində darmadağın edib, onları diz çökdürüb və torpaqlarımızdan qovub. Gözəl gənc nəsil yetişdirdik – vətənpərvər, tərbiyəli, milli ruhda tərbiyə almış gənc nəsil. Həmin bu gənclər bizim torpaqlarımızı azad ediblər. Laçını, Kəlbəcəri, o vaxt işğal altında olan digər torpaqları görməyən, bu bölgələrdən olan gənclər ölümə getməyə hazır idilər, ölümə də gedirdilər. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların qəhrəmanlığını heç vaxt unutmayacağıq. Onların qəhrəmanlığı, şücaəti sayəsində biz, bax, bu gün burada oturmuşuq və bu gün bu torpaqlarda həyat canlanır.

İkinci Qarabağ müharibəsi şanlı tariximizdir. İkinci Qarabağ müharibəsindən keçən dövr də gələcək üçün çox önəmli idi. Çünki müharibə başa çatanda, demək olar ki, bu məsələ ilə vaxtilə məşğul olmuş vasitəçilər heç özləri də bilmirdilər ki, bundan sonra onlar nə ilə məşğul olacaqlar. Ermənistan tamamilə aciz vəziyyətdə idi, o, acı məğlubiyyətin ağrılarını, yaralarını hələ də sağalda bilmir. Onlara böyük psixoloji zədə, travma vuruldu, bu, təbiidir. Ona görə Azərbaycan burada yenə də liderlik göstərdi. Yəni, bu gün bizim yaşadığımız reallıq məhz İkinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində əldə edilmiş nəticələr əsasında formalaşıb. Biz demişik ki, ATƏT-in Minsk qrupunun xidmətlərinə, - əslində, bu, ayı xidməti idi, - ehtiyac yoxdur. Biz dedik ki, Azərbaycanla Ermənistan arasında ərazi bütövlüyü prinsipi əsas tutularaq sülh müqaviləsi imzalanmalıdır. Biz lazımi addımlar ataraq bu gün Qarabağda Rusiya sülhməramlı missiyasının nəzarətində olan ərazilərdə istədiyimizə nail olmuşuq. Biz 23 aprel tarixində Azərbaycan-Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoyaraq məsələni birdəfəlik həll etdik, ərazi bütövlüyü məsələlərini birdəfəlik həll etdik. Onsuz da İkinci Qarabağ müharibəsi nəticəsində ərazi bütövlüyümüz bərpa edilmişdir. Ancaq sərhəd-buraxılış məntəqəsi son məntəqə idi ki, Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə və əks istiqamətə oradan nəzarətsiz hərəkət var idi. Hərəkət indi də var, amma tam nəzarət altındadır.

*(ardı 6-cı səhifədə)*

# Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüşü



(əvvəli 5-ci səhifədə)

Yəni, bütün bu reallıqları yaradan biz olmuşuq. Məhz bunun nəticəsində İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra həm Azərbaycan–Ermənistan sərhədində, həm Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərdə, həm sərhəd-buraxılış məntəqəsini qoymaqla biz yeni reallıq yaratdıq və Ermənistanı məcbur etdik ki, bizim dediyimizi onlar da təkrarlasın. Mən bunu İkinci Qarabağ müharibəsi başa çatandan sonra demişdim, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar deyəcəklər: Qarabağ Azərbaycandır! Onlar cəmi 3-4 il bundan əvvəl "Qarabağ Ermənistandır" deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq. Onlara da, onların havadarlarına da, onlara bu gün dəstək verənlərə də o vaxt deyirdim ki, biz heç vaxt barışmayacağıq. Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik. Bir neçə gün bundan əvvəl Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq mənim bir neçə il bundan əvvəl dediyim "Qarabağ Azərbaycandır!" sözlərimin təkrarıdır.

İndi isə artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Əminəm ki, yaxın gələcəkdə, – əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, – sülh müqaviləsi imzalana bilər. İmzalansa çox yaxşı, imzalanmasa da hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq.

Mən yaxşı xatırlayıram, yəqin ki, siz də xatırlayırsınız, 2011-ci il dekabrın 24-də ad günümdə mən laçınlılarla Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində görüşmüşdüm. Mən, adətən, öz ad günlərimi, o cümlədən yubiley sayılan ad günlərimi qeyd etmirəm, 60 yaşımı Cıdır düzündə qeyd etmişəm, 50 yaşımı isə Taxtakörpü qəsəbəsində laçınlılarla qeyd etmişəm. O vaxt Taxtakörpü qəsəbəsində laçınlılar üçün 550-dən çox evdən ibarət bir qəsəbə salınmışdı. O görüşdə demişdim ki, gün gələcək, biz sizin üçün Laçında daha gözəl evlər tikəcəyik və gün gəldi. O tarixdən cəmi 11 il keçib, biz sizinlə artıq Laçın şəhərində görüşürük və bundan böyük xoşbəxtlik ola bilməz. Əminəm ki, hamımız bu gün xoşbəxtlik içində yaşayırıq. Böyük nikbinliklə yaşayırıq. Qürur hissi ilə yaşayırıq. Çünki İkinci Qarabağ müharibəsi bizim əbədi qürur mənbəyimizdir. Bu Zəfər bizimlə əbədi olacaq və gənc nəsil, uşaqlar, bax, bu Zəfər qüruru ilə yaşayacaqlar.

İndi isə qurub-yaratmaq vaxtıdır. Bir daha demək istəyirəm ki, bugünkü Laçın şəhərinin siması, – halbuki qeyd edirəm, bu, sadəcə olaraq, birinci mərhələdir, – göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir. Bu, həmişə bizim torpaq olub. Sadəcə olaraq, mənfur düşmən öz xarici havadarları ilə birlikdə bizim zəifliyimizdən istifadə edib, hakimiyyətsizlikdən istifadə edib bu torpaqları zəbt etmişdi və burada əbədi yaşamaq istəyirdi.

Onu da bildirməliyəm ki, Laçın rayonunda, eyni zamanda, Kəlbəcər rayonunda ermənilər qanunsuz məskunlaşma aparırdılar. Bu, beynəlxalq konvensiyalarla hərbi cinayət sayılır. Ancaq onların hansı vəziyyətdə yaşamalarını mən buraya sentyabr ayında gələndə gördüm. Onların özləri üçün qurduqları şəraiti mən heç nə ilə müqayisə edə bilmirəm. Çünki insan o şəraitdə necə yaşayıb, onu, yəqin ki, ancaq özləri bilə bilər.

Biz Laçına qayıdandan dərhal sonra artıq quruculuq işlərinə start verdik. Mən sentyabr ayında gəldim, sentyabrın sonundan biz artıq işlərə başlamışıq.

Siz yaxşı bilirsiniz ki, İkinci Qarabağ müharibəsi başa çatanda Laçın, Kəlbəcər və Ağdam rayonunun böyük hissəsi hələ də işğal altında idi. Müharibə zamanı dəfələrlə deyirdim ki, Ermənistan rəhbərliyi mənə tarix verməlidir, bizim torpaqlarımızdan öz qoşunlarını nə vaxt çıxaracaq, ancaq o təqdirdə biz müharibəni dayandıra bilərik. Şuşa işğaldan azad olunandan, bir çox kəndlər azad olunandan sonra Ermənistan faktiki olaraq kapitulyasiya aktına imza atmışdır. Əldə edilmiş razılaşmaya görə, ermənilərin yaşadıqları Qarabağ bölgəsi ilə Ermənistan arasında bir yol bağlantısı olmalı idi və Rusiya sülhməramlı qüvvələri bu yola nəzarət etməli idilər. Beləliklə, Laçın şəhəri hələ də faktiki olaraq işğal altında idi və məhz noyabrın 10-na qədər gedən danışıqlar nəticəsində mən təkidlə nail oldum ki, yeni yol çəkiləcək və yeni yol çəkiləndən sonra Laçın şəhəri bizə qaytarılacaq. Yolun razılaşdırılması üçün üç il vaxt müəyyən edilmişdi, sadəcə olaraq, yolun marşrutunun razılaşdırılması üçün. Biz nəinki bunu razılaşdırdıq, eyni zamanda, ilyarım ərzində bu yolu inşa etdik və avqustun əvvəlində artıq Laçında yaşamış ermənilərə və Rusiya sülhməramlı qüvvələrinə bildiriş göndərdik ki, biz artıq gəlirik, xahiş edirik, buradan çıxın. Ondan sonra bizdən xahiş olundu ki, müəyyən vaxt verilsin, avqustun 25-nə qədər vaxt verilsin və ondan sonra onlar Laçını, Zabux və Sus kəndlərini boşaldacaqlar. Mən isə razılaşdım, çünki 20 gün o qədər də böyük fərq deyil. Beləliklə, avqustun 25-də sonuncu erməni işğalçı, yaxud ki, qanunsuz yaşayan Laçını tərk etdi və avqustun 26-da biz Laçına qayıtdıq.



Bax, bu, bir daha onu göstərir ki, hər bir qarış torpaq bizim üçün əziz və doğmadır. Hər şəhər, hər kənd bizimdir və torpaqdan pay ola bilməz. Danışıqlar zamanı müxtəlif mərhələlər olub, müxtəlif məqamlar olub. Təzyiqlər də olub, hədələr də olub və bəziləri bizi işğalla barışmaq üçün böyük səylər göstərirdilər. Ancaq bizim əyilməz mövqeyimiz, iradəmiz bütün bu səyləri alt-üst etmişdir. Mən deyirdim ki, heç bir güzəşt ola bilməz. "Beş rayon bizə qaytarılsın, iki rayon qalsın əbədi ermənilərin nəzarəti altında" - bu, mümkün deyil. Biz bir kəndi də güzəştə getmək fikrində deyildik və bu gün bunu sübut etdik.

Aprelin 23-də sərhəddə qoyulan sərhəd-buraxılış məntəqəsi bu gün Qarabağ bölgəsində yaşayan ermənilər üçün də bir dərs olmalıdır. Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq.

Birincisi, bu, qanunsuzdur. Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır.

İki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna mən şübhə etmirəm. Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya, orada "parlament" fəaliyyət göstərir, guya, orada prezident var, guya, nazir var, bunlar hamısı gülməlidir.

Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər. Onu da bildirməliyəm ki, son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm. Yəni, nəyə görə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır.

Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır. Birincisi, biz oraya heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər.

Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər.

Bir müddət bundan əvvəl bizim iki hərbçimiz yolu azaraq Ermənistan ərazisinə keçib və orada da işgəncələrə məruz qalıb. Bildirməliyəm ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla Azərbaycan nümayəndələri belə bir razılığa gəliblər, əgər kimsə yolu azsa, – çünki bu ehtimal çox böyükdür, xüsusilə qış aylarında, siz özünüz bilirsiniz ki, burada iqlim çox sərtdir, dağlardır, dərələrdir, yolu azmaq olar, – əgər belə bir hal baş verərsə, maksimum iki günə o adamlar qaytarılmalıdır. Biz buna əməl edirdik. Onları maksimum iki gün saxlayıb, sorğu-suala tutub qaytarırdıq, mülki vətəndaşları da, hərbçiləri də.

Görün, onlar nə etdilər?! Onlar, birincisi, yolu azmış hərbçilərimizi vəhşicəsinə döyüblər, qandallayıblar, ləyaqətini alçaldıblar, döyülmə anlarını videoya çəkiblər. Ondan sonra həbs ediblər və artıq məhkum ediblər. Bu, harada görünüb? Mayın 14-də Brüsseldə keçirilən üçtərəfli görüşdə mən bildirdim ki, bu, dözülməzdir. Əgər siz bu razılaşmanı pozursunuzsa, bunun acısını siz özünüz çəkəcəksiniz. Dərhal bizim hərbçilərimizi qaytarın. Amma bunun əvəzinə onlara iş verilib, 11 il müddətinə məhkum ediliblər. Nə məhkəmə olub, nə vəkil olub, nə hakim olub, nə də media nümayəndələri. Belə məhkəmə olar? Bu, qanunsuzluqdur. Ona görə bu gün də deyirəm, hələ ki, gec deyil. Hələ ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyi var, hələ ki, Ermənistan sərhədləri anlayışı müəyyən mənada qəbul edilir. Onlar bizim şərtlərimizi qəbul etməlidirlər.

Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim.

Ona görə delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Bu, bizim şərtlərimizdir. Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni, onu da unutmasınlar.

Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək.

Mən sizi həm qayıtmağınız, həm də bayram münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun.

*

Sonra dövlətimizin başçısı Laçın şəhərinə qayıdan sakinlərə evlərin açarlarını təqdim etdi.

Sakinlər dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

**Sakin Elbrus Sadıqov:** Cənab Prezident, xoş gördük. Mən çoxdan arzulayırdım ki, Sizi qucaqlayım öpüm. Şükür Allaha arzuma çatdım. Çox sevinirəm. Allah Sizin canınızı sağ eləsin. Sizinlə fəxr edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin İsaq Musayev:** Cənab Prezident, mən də Sizə həm "Çox sağ olun!" deyirəm, həm də Sizi təbrik edirəm. Sizə cansağlığı, hərbçilərimizə uzun ömür, sağlamlıq, şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Qazilərimizə, əlillərimizə tezliklə sağalmalarını arzu edirəm. Sağ olun ki, bu günü bizə nəsib etdiniz.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Elbrus Sadıqov:** Cənab Prezident, 31 illik işğaldan sonra Sizi cənnətə çevirdiyiniz Laçın şəhərində salamlayır və "Xoş gəldiniz!" deyirəm. Biz 31 il bu həsrətlə yaşamışıq. Şükürlər olsun Allaha, qayıtmışıq torpağımıza. Axşam mən gələndə qürur hissi duydum, Laçının belə gözəlləşməsi, tez bir zamanda quruculuq işləri, abadlıq işləri Sizin sayənizdə görülübdür və biz çox qürur hissi keçiririk. Siz bizim torpağımızı qaytarmısınız, Siz bizə həyat bəxş etmisiniz. Mən bir ağsaqqal kimi Laçın ağsaqqalları və bütün laçınlılar adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Cənab Prezident, 44 günlük müharibə vaxtı biz Sizin bütün çıxışlarınızı, məlumatlarınızı izləyirdik. Şəhidlər verdik. Allah onlara rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Amin.

**Elbrus Sadıqov:** Allah qazilərimizə cansağlığı versin, xoşbəxtlik versin. Qısa zamanda torpaqlarımızı azad etdiniz, 50 milyonluq Azərbaycan xalqının başını uca etdiniz. Allah Sizə yar olsun. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gün bizim üç gözəl bayramımız var – Müstəqillik Günümüz, bizim Laçına qayıdış günümüz və Türkiyədə prezident seçkiləri günü. Allaha dua edirik ki, bu gün bizim dostumuz, qardaşımız, arxamız, dayağımız olan hamımızın sevimlisini prezident görək. Allah ona da cansağlığı versin.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Elbrus Sadıqov:** Səbirsizliklə gözləyirik ki, bir yaxşı xəbər eşidək. İnşallah, eşidərik. Bir arzum da var idi. Şükür Allaha ki, onu da görmək nəsib oldu. Mən həmişə televiziyada Sizi izləyirdim. Müharibə başa çatanda Sizi televiziyadan öpdüm, minnətdarlığımı bildirdim. Allah Sizi başımızın üstündən əskik etməsin. Bu gün arzuma çatdım, mənim ən böyük arzum yerinə yetdi. Qayıtmışıq, həm sevinir, həm kədərlənirik. Əzizlərimizdən dünyadan köçənlər var, Sizin sayənizdə ruhları şad olacaq. Allah Sizi qorusun. Allah Sizi daim bizim Prezidentimiz eləsin. Arzu edirəm ki, siz 100 yaşınızı, bax, burada qeyd edəsiniz.

**Sakin Əjdər Əhmədov:** Cənab Prezident, Sizi doğma yurdumuzda, torpağımızda xoş gördük. Mən Sizi, Mehriban xanım Əliyevanı 28 May bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Çox təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, bizim yaşlı nəsil, şəxsən mənim atam, anam bu gün burada iştirak edə bilmir. Bu gün burada olduğuma görə həm sevincliyəm, həm də kədərliyəm. Onlar burada iştirak etməsələr belə, biz bir övlad kimi, Laçınımızdayıq və Sizə bildirmək istəyirəm ki, bu gündən etibarən biz doğma yurdumuzda yaşayacağıq, yaradacağıq. Laçınımızın gözəlləşməsi üçün əlimizdən gələni edəcəyik. Cənab Prezident, bu günü bizə yaşatdığınız üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin Qadir Vəliyev:** Hörmətli Prezident, cənab Ali Baş Komandan, Siz bizə 44 günlük müharibədə Zəfər yaşatdınız. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Sizin müdrik siyasətiniz nəticəsində biz laçınlıların 31 illik həsrətinə son qoyuldu. Sizi və ailə üzvlərinizi bu münasibətlə bütün laçınlılar adından təbrik edirəm. Sizə uzun ömür və cansağlığı arzulayıram.

**Prezident İlham Əliyev:** Sağ olun, bir daha bayramınız mübarək olsun.

Sonra xatirə şəkilləri çəkdirildi.

# Prezident İlham Əliyev Laçın şəhərinin Baş planına baxıb



**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Laçın şəhərinin Baş planı təqdim olunub.**

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev Prezident İlham Əliyevə Baş planda nəzərdə tutulan tədbirlər və plana əsasən görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu - İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb.

Şirkətin həmtəsisçisi və tərəfdaşı Dunya Kovari-Binggeli bildirdi ki, Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan canlı və cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublika əhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla çoxşaxəli inkişaf istiqamətlərinə malik olacaq. Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb.

Diqqətə çatdırıldı ki, Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, yaşıl enerji mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çevriləcək.

Qeyd olundu ki, Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır. Belə ki, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur.

Xatırladaq ki, ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

# Laçında ilk çoxmənzilli yaşayış məhəlləsi salınacaq





**Mayın 28-də Laçın şəhərində ilk çoxmənzilli yaşayış məhəlləsinin təməli qoyulub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısına yaşayış məhəlləsi barədə məlumat verildi.

Bildirildi ki, layihələndirilən yaşayış məhəlləsi Laçın şəhərinin cənub-qərb hissəsində 16,3 hektar ərazidə planlaşdırılıb. Ərazidə müasir tipli yaşayış binaları və şəhər sakinlərinə xidmət göstərəcək idman kompleksinin inşası nəzərdə tutulub. Təklif layihəsində binaların memarlıq kompozisiya həlli və yerləşməsi ərazinin relyefi, demoqrafik tələbləri, sosial, məişət və sanitar xüsusiyyətləri nəzərə alınaraq hazırlanıb.

Diqqətə çatdırıldı ki, yaşayış binaları üzrə ümumi sayı 462 olmaqla birotaqlı 45, ikiotaqlı 126, üçotaqlı 180 və dördotaqlı 108 mənzil nəzərdə tutulub. Məhəllədə 1630 nəfərin yaşaması planlaşdırılıb.

Məlumat verildi ki, ərazidəki idman sağlamlıq mərkəzində müxtəlif idman növləri üzrə və üzgüçülük hovuzu ilə birlikdə iaşə obyektləri, inzibati və digər köməkçi sahələr yaradılacaq.

Eyni zamanda, yaşayış məhəlləsində ticarət obyekti, açıq idman meydançası, uşaq əyləncə və istirahət sahələrinin yaradılması nəzərdə tutulur.

Dövlətimizin başçısı yaşayış məhəlləsinin təməlini qoydu.

*

Prezident İlham Əliyev, həmçinin son tamamlanma işləri aparılan idman kompleksi ilə tanış oldu.

Qeyd edək ki, ölkəmizin hər bir guşəsində yaradılan, ən müasir avadanlıqla təchiz edilən bu cür idman infrastrukturu gənclərin idmanın müxtəlif növlərinə marağını artırmaqla yanaşı, əhalinin sağlam həyat tərzi keçirməsinə də hərtərəfli töhfə verir.

# İşğal və Zəfər Muzeyi Kompleksi yaradılır




**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərində İşğal və Zəfər Muzeyi Kompleksinin təməlinin qoyulması mərasimində iştirak edib.**

Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerlə-yeksan edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır. Belə muzey komplekslərindən biri də Laçında yaradılır.

Mədəniyyət naziri Adil Kərimli dövlətimizin başçısına kompleksdə görüləcək işlər barədə məlumat verdi.

Bildirildi ki, Laçın rayonunda qurulacaq kompleks İşğal və Zəfər muzeylərindən, dağıntıların nümayiş etdiriləcəyi memorial parkdan ibarət olacaq. Kompleksin loqosu əsrarəngiz gözəlliyə və təbii zənginliklərə malik Laçın rayonu ərazisində geniş yayılmış ardıc ağaclarını simvolizə edir.

Ümumi sahəsi 3,5 hektar olacaq kompleks üçün seçilmiş ərazi yamacda yerləşir. Buradan Laçın şəhərinə, ətrafdakı dağlara gözəl mənzərə açılır. Kompleks əsas yol şəbəkəsinə və şəhərin mərkəzinə yaxın məsafədə yerləşir.

Muzeyin binası əzəmətli və estetik gözəlliyi ilə fərqlənən memarlıq quruluşuna malikdir. Belə ki, binanın təpənin yamacına doğru uzanması sabitlik və dayanıqlılığı ifadə edir. Rəmzi olaraq binanın quruluşu torpaqdan güc alaraq səmaya doğru yüksəlişi təcəssüm etdirir. Binanın qismən yerin alt hissəsinə keçən maili forması sayəsində muzeyin ümumi daxili sahəsi 2400 kvadratmetr təşkil edir.

Muzeyin interyeri hər tərəfdən rahat giriş imkanı yaratmaq və ətrafdakı parkla inteqrasiyanı təmin etmək üçün xüsusi formada dizayn olunub. Ərazinin relyefi ilə ahəng yaradan tikilinin dam hissəsində həm binanın daxilindən lift vasitəsilə, həm də Memorial Parkdan keçid imkanı olan iki panoramlı terras yerləşəcək.

Beş mərtəbədən ibarət olacaq muzeyin birinci mərtəbəsində bilet satış mərkəzinin yerləşdiyi geniş foyenin və inzibati otaqların yaradılması nəzərdə tutulur. İkinci mərtəbədə İşğal Muzeyi, üçüncü mərtəbədə kafe, dördüncü mərtəbədə isə Zəfər Muzeyi yaradılacaq. Sonuncu – beşinci mərtəbədə istirahət zalı və kitab mağazasından ibarət olan və yuxarı hissədən binaya girişi təmin edən foye yerləşəcək.

İşğal və Zəfər muzeylərinin yerləşdiyi mərtəbələrdə muzeylərin tematikasını əks etdirən bədii instalyasiyalar nümayiş olunacaq, zallarda isə müxtəlif məzmunlu sərgilər təşkil ediləcək.

Kompleksin ərazisində şəhərin dağıdılmış bir çox tarixi və mədəni abidələrinin qalıqlarının nümayiş etdiriləcəyi Memorial Park salınacaq. Memorial Parka daxil olan dağıntılar bədii instalyasiyalarla zənginləşdirilərək açıq səma altında muzeyə çevriləcək.

Dövlətimizin başçısı Laçın İşğal və Zəfər Muzeyi Kompleksinin təməlini qoydu.

Qeyd edək ki, muzey kompleksi Azərbaycan xalqının tarixi ədalətin və öz ərazi bütövlüyünün bərpası uğrunda göstərdiyi döyüş əzmini, misilsiz qəhrəmanlığını, o cümlədən 44 günlük Vətən müharibəsi zamanı qazandığı möhtəşəm Qələbəni indiki və gələcək nəsillərin yaddaşına həkk edərək əbədiləşdirən və Azərbaycanın haqq səsini dünyaya çatdıran təşviqat və informasiya mərkəzi olacaq.

# Quşlar meşəyə, balıqlar çaya buraxılıb

**Mayın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Laçın rayonunun ərazisində Şərqi Qafqaz turlarının və şahin quşlarının təbiətə, həmçinin işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində iştirak edib.**



Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Əvvəlcə Prezident İlham Əliyevin iştirakı ilə ölkə ərazisində reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində rayonun ərazisinə boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış Şərqi Qafqaz turları və şahin quşları təbiətə buraxıldı.

Məlumat verildi ki, Şərqi Qafqaz turları ölkəmizdə Böyük Qafqazın Cənub və Şərq yamaclarında daha geniş yayılıb. Əsasən dəniz səviyyəsindən 1000-3000 metr hündürlükdə yaşayan bu heyvanların sayı ölkəmizdə 7-8 min başdır. Şərqi Qafqaz turlarının fəallığı mövsümdən və yem bazasından asılı olaraq dəyişir. Vaxtilə bu heyvanlar Kiçik Qafqaz dağlarında yaşasalar da, sonradan həmin ərazidə nəsli tükənib.

Həmçinin qeyd olundu ki, adı "Qırmızı kitab"a düşən şahin quşları Qətərdən Azərbaycana gətirilib. Bundan əvvəl də 200-dək şahin quşu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Qətər Dövlətinin Proqramı çərçivəsində ölkəmizin bioloji müxtəlifliyinin inkişafına dəstək məqsədilə Xızı, Siyəzən və Şabran rayonları ərazisində vəhşi təbiətə buraxılıb.

Dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olundu.

Bildirildi ki, Laçın rayonu işğaldan azad olunduqdan sonra 2022-ci il sentyabrın 5-8-də rayon ərazisində monitorinq aparılıb. Monitorinq zamanı Laçın şəhəri ərazisində 10 müxtəlif yerdə ümumilikdə 13 hektar yaşıllıq sahəsinin, Laçın yolu adlandırılan ərazidə isə 448,8 hektar meşə sahəsinin yandırılması faktı müəyyən edilib. Yaşıllıq sahəsinin yandırılması nəticəsində müxtəlif növ 7135 ağacın, sıx örtülü meşə sahəsinin məhv edildiyi aşkarlanıb.

Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərdə su ekosisteminin bərpası istiqamətində 32 mindən artıq çəki, qızılbalıq və qızılxallı forelin Həkəri çayına buraxılması mərasimində də iştirak etdi.

Dövlətimizin başçısına nadir və həssas növlərin artırılması və populyasiyalarının bərpası istiqamətində otuz ildən sonra ilk dəfə Qarabağda və Şərqi Zəngəzurda fauna və flora növlərinin tədqiqi, ulu öndər Heydər Əliyevin 100 illiyinə həsr olunan "Qırmızı kitab"ın üçüncü nəşri ilə bağlı görülmüş işlər və perspektivlər barədə məlumat verildi.

Qeyd olundu ki, işğaldan azad edilmiş ərazilərdə ötən dövrdə fauna növlərindən 33 baş ceyran öz tarixi areallarına qaytarılıb. Otuz ilə yaxın işğal dövründə ekoloji tarazlığın pozulması, regiona xas növlərin yaşama yerlərinin fraqmentləşməsi kimi mənfi halların aradan qaldırılması üçün təbii bərpa prosesinə dəstək tədbirləri davam etdiriləcək.

Bildirildi ki, işğal dövründə tamamilə məhv edilmiş hidrometeoroloji müşahidə və ekoloji monitorinq şəbəkəsi yenidən qurularaq modernləşdirilib. Ərazidən axan əsas çaylar üzərində 11 avtomat hidroloji, Şuşa, Ağdam, Füzuli, Kəlbəcər və Zəngilan rayonlarında 5 avtomat meteoroloji, Zəngilan rayonundakı "Ağıllı kənd" ərazisində avtomat aqrometeoroloji, həmçinin transsərhəd ərazilərdə radiasiya fonunun nəzarətdə saxlanılması məqsədilə avtomat radioekoloji stansiyalar quraşdırılıb.



Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə formalaşan bərk məişət tullantılarının idarə olunması istiqamətində görülən işlər barədə də məlumat verildi. Bu ərazilərdə tullantıların müasir standartlara uyğun idarə olunması üçün xüsusi təyinatlı texnika və avadanlıqların alındığı və Regional Strategiyanın hazırlandığı diqqətə çatdırıldı.

*

Sonra Prezident İlham Əliyev istirahət üçün nəzərdə tutulan kottec tipli evlərin inşası ilə tanış oldu.

**AZƏRTAC**

# Bakıda taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi keçirilib

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimini izləyiblər





**Mayın 29-da Bakıda taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi olub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbiri izləyiblər.

Taekvondo üzrə dünya çempionatının açılışını izləmək üçün dövlətimizin başçısı və birinci xanım "Baku Crystal Hall"a gəldilər.

Əvvəlcə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çu ilə görüşdülər.

Çunqvon Çu birinci xanım Mehriban Əliyevaya 8-ci dan Fəxri Qara kəmər və sertifikatını təqdim etdi.

Dövlətimizin başçısı və birinci xanım Dünya Taekvondo Federasiyasının prezidenti ilə söhbət etdilər.

Sonra taekvondo üzrə 26-cı dünya çempionatının açılış mərasimi keçirildi.

Açılış mərasimində əvvəlcə iştirakçı komandaların paradı oldu.

Sonra Dünya Taekvondo Federasiyasının himninin sədaları altında qurumun bayrağı səhnəyə gətirildi.

Daha sonra Azərbaycan Respublikasının Dövlət Bayrağı səhnəyə gətirildi və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra hakimlər, idmançılar və məşqçilərin andiçmə mərasimi oldu. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və idmanda ədalət prinsipinə və ideallarına riayət edilməsinin ən yüksək prioritet olduğunu bir daha xatırladıb.

Mərasimdə çıxış edən Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çu Bakıda olmaqdan və dünya çempionatının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi. Pandemiyadan sonra taekvondo yarışlarının keçirilməsinin önəmini xüsusi vurğulayan Çunqvon Çu dedi: "Bakıya - taekvondonun evinə qayıtmaq çox xoşdur. Bakını taekvondonun evi adlandırmaq ona görədir ki, uzun illər ərzində Azərbaycanda müxtəlif taekvondo tədbirləri təşkil olunub. Azərbaycan, həmçinin parataekvondonun yarandığı ölkədir. Sonralar parataekvondo daha da populyarlaşaraq Paralimpiya Oyunlarının proqramına salınıb".

Azərbaycan Prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı nəticəsində taekvondonun ölkəmizdə geniş populyarlıq qazandığını vurğulayan Çunqvon Çu bildirdi ki, bu diqqət nəticəsində illər ərzində Azərbaycan taekvondoçuları müxtəlif yarışlarda medallar qazanıblar. Prezident İlham Əliyevin Dünya Taekvondosunun 6-cı dan Fəxri Qara kəmər və sertifikatı ilə təltif olunduğunu xatırladan Çunqvon Çu Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da 8-ci dan Fəxri Qara kəmər və sertifikatı ilə təltif edilməsindən məmnunluğunu ifadə etdi. O, Bakıda keçirilən 26-cı dünya çempionatının tarixdə uğurlu və mötəbər tədbir kimi qalacağına ümidvar olduğunu bildirdi.

Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax videomüraciətində 50 il əvvəl 17 üzv assosiasiya ilə fəaliyyətə başlayan Dünya Taekvondo Federasiyasının hazırda 213 üzvü əhatə edərək dünyanın ən böyük idman federasiyalarından birinə çevrildiyini dedi. Taekvondonun 2000-ci ildən Olimpiya idman növü olduğunu vurğulayan T.Bax qurumun ötən müddətdə Çunqvon Çunun rəhbərliyi ilə sürətli inkişaf yolu keçərək, həm taekvondonu, həm də idman dəyərlərini müvəffəqiyyətlə təbliğ etdiyini bildirdi. O, Taekvondo Humanitar Fondunun da dünyada qaçqınların idmana cəlb olunmasında mühüm rol oynadığını dedi, federasiyanın Beynəlxalq Olimpiya Komitəsi ilə birlikdə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsinə sanballı töhfələr verdiyini diqqətə çatdırdı.

Azərbaycan Taekvondo Federasiyasının prezidenti Kəmaləddin Heydərov çıxışında taekvondoçularımızın mötəbər beynəlxalq yarışlarda uğurlu çıxışları, iradə və əzmkarlıqları ilə zirvələri fəth etdiklərini vurğuladı. Qeyd etdi ki, məhz bunun nəticəsində taekvondo respublikamızda geniş populyarlıq qazanıb və gənclərimizdə idmanın bu növünə dərin maraq yaranıb.

K.Heydərov 100 illik yubileyinin geniş qeyd olunduğu ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə idmana daim yüksək diqqət və qayğı göstərdiyini xatırlatdı. Bildirdi ki, bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizdə 50-yə yaxın Olimpiya İdman Kompleksi inşa olunub. Hazırda Azərbaycan beynəlxalq idman aləmində nüfuzlu idman ölkəsi kimi tanınır. Azərbaycanda irimiqyaslı yarışların təşkilinin artıq ənənəyə çevrildiyini, ölkəmizin dünya, Avropa çempionatlarına, I Avropa və IV İslam Həmrəyliyi oyunlarına uğurla ev sahibliyi etdiyini vurğulayan federasiya prezidenti dünya çempionatının təşkilini və Dünya Taekvondosunun 50 illiyinin qeyd olunmasını Azərbaycana həvalə etdiyi üçün Dünya Taekvondo Federasiyasının rəhbərliyinə təşəkkürünü bildirdi. O, həm iştirakçı ölkələrin, həm də idmançıların sayına görə rekord göstəricinin qeydə alındığı bu çempionatın Bakıda keçirilməsinin taekvondonun Azərbaycanda təbliği işinə böyük təkan verəcəyini dedi.

Sonra Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov taekvondo üzrə 26-cı dünya çempionatını açıq elan etdi.

Açılış mərasimində ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, ümummilli liderin, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın ölkəmizdə idmanın inkişafına diqqət və qayğısını əks etdirən film nümayiş olundu.

Dünya çempionatının açılış mərasimi bədii hissə ilə davam etdi.











***

Qeyd edək ki, ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə və Dünya Taekvondo Federasiyasının 50 illiyinə təsadüf edən çempionat "Öz gücünü alovlandır" şüarı altında təşkil olunub. İyunun 4-dək "Baku Crystal Hall"da keçiriləcək 26-cı dünya çempionatında 145 ölkədən 949 taekvondoçu 16 çəki dərəcəsində mübarizəyə qoşulub. Dünya çempionu olacaq idmançı aktivinə 140 reytinq xalı əlavə edəcək.

Milli komandamız çempionata Səyyad Dadaşov (54 kq), Qaşim Maqomedov (58 kq), Xanoğlan Kərimov (63 kq), Cavad Ağayev (68 kq), Eltac Qafarov (74 kq), Ələsgər Əliyev (80 kq), Taleh Süleymanov (87 kq), Həmidrza Bədriəliabadi (+87 kq), Minayə Əkbərova (46 kq), Patimat Abakarova (49 kq), Səmərrux Osmanova (53 kq), Fatimə Məcidova (62 kq) və Fəridə Əzizova (67 kq) idmançılardan ibarət heyətlə qatılıb.

Çempionatda ümumilikdə 150-dən çox ölkədən 2000-ə yaxın qonaq iştirak edir. Bu münasibətlə çempionat çərçivəsində silsilə tədbirlər keçirilir.

Xatırladaq ki, Bakının yarışa ev sahibliyi etməsi barədə qərar ötən il qəbul olunub. Beynəlxalq Olimpiya Komitəsinin İsveçrənin Lozanna şəhərindəki inzibati binasında təşkil olunan və qurumun prezidenti Tomas Baxın qatıldığı yığıncaqda bu yarış üçün 3 ölkə namizədliyini irəli sürsə, Bolqarıstan son anda müraciətini geri götürüb. Nəticədə dünya çempionatını qəbul etməyə Azərbaycan və Çin iddia edib. Beynəlxalq qurum ölkəmizin bir sıra nüfuzlu yarışlara, taekvondo üzrə Avropa çempionatına, Qran-Pri, Olimpiadaya lisenziya xarakterli təsnifat turnirlərinə uğurla ev sahibliyi etməsini nəzərə alaraq, dünya çempionatının keçirilməsini də Azərbaycana həvalə edib. Beləliklə, taekvondo üzrə dünya çempionatı MDB məkanında Rusiyadan sonra Azərbaycanda təşkil olunur. Eyni zamanda, Azərbaycan Avropada Almaniya, Danimarka, İspaniya, Yunanıstan, Rusiya və Böyük Britaniyadan sonra dünya çempionatına ev sahibliyi edən yeddinci ölkədir.

# Azərbaycanda idmanın inkişafına yüksək dövlət qayğısı göstərilir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Dünya Taekvondo Federasiyasının prezidenti Çunqvon Çunu və Beynəlxalq Olimpiya Komitəsinin vitse-prezidenti Ser Mianq Nqni qəbul edib.**

Dövlətimizin başçısı Çunqvon Çu ilə görüşlərini məmnunluqla xatırlayaraq, Dünya Taekvondo Federasiyasının 50 illiyi münasibətilə təbriklərini çatdırdı.

Görüşdə taekvondo üzrə 26-cı dünya çempionatının Bakıda keçirilməsinin önəmi vurğulandı.

Çunqvon Çu bu tədbirin yüksək səviyyədə təşkil olunduğunu məmnunluqla bildirərək qeyd etdi ki, 144 ölkənin nümayəndəsinin iştirakı ilə keçirilən bu idman yarışı taekvondo tarixində ən böyük çempionatdır. Qonaq bu çempionatın ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinin qeyd olunduğu dövrə təsadüf etməsinin rəmzi məna daşıdığını vurğuladı.

Çunqvon Çu rəhbərlik etdiyi federasiyanın Azərbaycan Taekvondo Federasiyası ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyini dedi.

Söhbət zamanı Azərbaycanda idmanın inkişafına yüksək dövlət qayğısının göstərildiyi qeyd olundu, ölkəmizin dünyanın mötəbər idman yarışlarına uğurla ev sahibliyi etməsinin əhəmiyyəti bildirildi.

Dövlətimizin başçısı Bakı ilə yanaşı, rayonlarımızda da müasir idman komplekslərinin fəaliyyət göstərdiyini dedi, işğaldan azad edilmiş ərazilərimizdə də geniş idman infrastrukturunun yaradılacağını vurğuladı.

Görüşdə ölkəmizdə taekvondoya olan maraq qeyd edildi, 2016-cı ildə Rio-de-Janeyroda keçirilən Olimpiya Oyunlarında idmançımızın qızıl medal qazandığı xatırlandı.

***AZƏRTAC***



# Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

**Hörmətli cənab Prezident,**
**Əziz Qardaşım,**

Türkiyə Respublikasının Prezidenti vəzifəsinə keçirilən seçkilərdə yenidən qazandığınız qələbə münasibətilə Sizə öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram. Azərbaycan xalqı da bu seçkiləri böyük diqqət və həyəcanla izləyirdi.

Milli iradənin təntənəsi olan səsvermənin nəticələri ölkənizin hərtərəfli inkişafı yolunda qətiyyətlə həyata keçirdiyiniz genişmiqyaslı siyasətə və əvəzsiz xidmətlərinizə verilən ən ali qiymətdir. Çağdaş dövrümüzün səhifələrinə qızıl hərflərlə həkk olunmuş fəaliyyətiniz Vətənə, xalqa, Türk elinə hədsiz sevginin, bağlılığın və sədaqətin bariz ifadəsidir.

Son iyirmi il ərzində qardaş Türkiyə Respublikası Sizin liderliyiniz sayəsində böyük və şərəfli inkişaf yolu keçərək beynəlxalq aləmdə proseslərə həlledici təsir göstərən güc mərkəzinə çevrilmiş, söz sahibi olmuş, siyasi, iqtisadi, sənaye, hərbi, yeni texnologiyalar və digər sahələrdə mühüm nailiyyətlər əldə etmişdir. Sizin tarixi missiyanızın əsas qayəsini təşkil edən qüdrətli və nüfuzlu Türkiyə Respublikasının uğurları qardaş ölkə olaraq bizi də olduqca qürurlandırır.

Tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Sarsılmaz dostluq və qardaşlığımız, qarşılıqlı faydalı əməkdaşlığımız, birgə gerçəkləşdirdiyimiz irimiqyaslı layihələr strateji müttəfiqliyimizi səciyyələndirən mühüm amillər olmaqla yanaşı, eyni zamanda regional əməkdaşlığın, təhlükəsizliyin və sabitliyin önəmli dayaq sütununu təşkil edir.

Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən Sizin, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi xalqımız tərəfindən həmişə böyük minnətdarlıq hissi ilə xatırlanır.

Əziz Qardaşım, fürsətdən istifadə edərək, Sizi ilk səfərinizi Azərbaycana həyata keçirməyə dəvət edirəm.

Əminəm ki, xalqlarımızın zamanın sınaqlarından şərəflə çıxmış dostluğu və qardaşlığı, Azərbaycan-Türkiyə birliyi və müttəfiqliyi "Bir millət iki dövlət" və "Bir yumruq" fəlsəfələrinin ruhuna uyğun olaraq bundan sonra da birgə səylərimizlə yüksələn xətt üzrə davam edəcək və daha da möhkəmlənəcəkdir.

Bu zəfər sevincinizi Sizinlə bölüşərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyənin çiçəklənməsi, xalqınızın əmin-amanlığı və firavanlığı naminə ali dövlətçilik fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 may 2023-cü il**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Türkiyə Prezidentini və xanımını təbrik edib

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva instaqram hesabında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərində əldə etdiyi qələbə ilə bağlı paylaşım edib.**




***Paylaşımda deyilir: "Cənab Rəcəb Tayyib Ərdoğanı və əziz bacım Əminə xanımı qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm! Qoy xalqlarımızın qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!".***

# Birinci vitse-prezident Mehriban Əliyeva Müstəqillik Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 28 May – Müstəqillik Günü ilə bağlı paylaşım edib.**

***Paylaşımda deyilir: "Əziz həmvətənlər! Müstəqillik Günü münasibətilə sizi təbrik edir, hər birinizə cansağlığı və xoşbəxtlik, ölkəmizə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram! Qoy Azərbaycanın dövlət müstəqilliyi əbədi və sarsılmaz olsun! Uca Tanrı Vətənimizi qorusun!".***

# Əli Əsədov Türkiyənin vitse-prezidenti Fuat Oktaya təbrik məktubu ünvanlayıb

**Mayın 29-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçkilərində yenidən qələbə qazanması münasibətilə Türkiyənin vitse-prezidenti Fuat Oktaya təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, məktubda Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Respublikasının böyük inkişaf yolu keçdiyi və bunun təzahürü olaraq qardaş Türkiyə xalqının ölkənin hərtərəfli çiçəklənməsi yolunda öz liderinin genişmiqyaslı fəaliyyətini və xidmətlərini yüksək qiymətləndirdiyi, bu seçkilərdə də ona etimad göstərildiyi vurğulanıb.

Milli iradənin və demokratiyanın təntənəsi olan bu səsvermənin nəticələrinin Azərbaycanda da böyük sevinc və coşqu ilə qarşılandığı diqqətə çatdırılıb.

Möhkəm təməller üzərində qurulmuş, qarşılıqlı inama, etimada, dəstəyə əsaslanan və dövlətlərimizin başçılarının rəhbərliyi ilə bu gün müttəfiqliyin və strateji tərəfdaşlığın ən yüksək səviyyəsinə çatmış Azərbaycan-Türkiyə dövlətlərarası münasibətlərinin bundan sonra da yüksələn xətlə inkişaf edəcəyinə və hər iki ölkənin xalqlarının rifahına xidmət göstərəcəyinə əminlik ifadə olunub.

***"Xalq qəzeti"***

# Nazir qüsursuz xidmətlərinə görə Zemfira Meftahətdinovanı mükafatlandırıb

**Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov xidmətdə olmanın son yaş həddi ilə bağlı DİN-in İdman Cəmiyyətinin rəisi, polis polkovniki Zemfira Meftahətdinova ilə görüşüb.**



DİN-nin mətbuat xidmətindən qəzetimizə bildirilib ki, yolasalma mərasimində general-polkovnik Vilayət Eyvazov onun dövlətçiliyə, peşə borcuna sədaqətini, insani keyfiyyətlərini xüsusi vurğulayıb, İdman Cəmiyyətinin rəisi kimi qüsursuz fəaliyyətini yüksək qiymətləndirib.

Sonda nazir Vilayət Eyvazov uzun illər qüsursuz xidmətlərinə görə təltif olunduğu DİN-in "Fəxri fərman"ını Z.Meftahətdinovaya təqdim edib.

Bundan sonra Z.Meftahətdinova fəaliyyətini Azərbaycan Atıcılıq Federasiyasında davam etdirəcək.

***"Xalq qəzeti"***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi yetirir, rifah və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

***FİLİP,***
***Belçikalıların Kralı***

*

**Zati-aliləri cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Zati-alinizə və Azərbaycan xalqına səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram. Sizə Uca Allahdan möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına isə tərəqqi və rifah diləyirəm.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Azərbaycan Respublikası ilə sıx əlaqələrini yüksək qiymətləndirir və birgə İslam fəaliyyətinin təşviqi məqsədi daşıyan bu qurumun dəstəklənməsində ölkənizin rolunu təqdir edir. İƏT üzv ölkələrin ümumi dəyərlərinin təbliği və bu ölkələr arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi işində səylərini bundan sonra da davam etdirəcək.

Ümidvaram ki, Zati-aliniz üzv ölkələrin xalqları arasında həmrəyliyin möhkəmləndirilməsində və birgə İslam fəaliyyəti üçün yeni üfüqlərin açılmasında dəstəyini bundan sonra da əsirgəməyəcək.

Zati-aliləri cənab Prezident, xahiş edirəm, Sizə olan ən yüksək hörmət və ehtiramımı qəbul edin.

***Hissein Brahim TAHA,***
***İslam Əməkdaşlıq Təşkilatının Baş katibi***

*

**Möhtərəm Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizi və xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

İran İslam Respublikasının qonşuluq siyasətində Azərbaycan Respublikasının özünəməxsus yeri vardır. Ölkələrimizin müsəlman xalqlarının birgə tarixi və onların arasında mövcud olan qırılmaz dini və mədəni bağlar iki ölkənin münasibətlərinin inkişafı üçün çox dəyərli bir sərmayə hesab olunur. Bu çərçivədə İran İslam Respublikası hər zaman Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü tam şəkildə dəstəkləmişdir.

Ölkələrimizin çox geniş potensiallarının mövcud olduğunu nəzərə alaraq ümid edirəm ki, xalqlarımızın qarşılıqlı mənafeyinə uyğun şəkildə ikitərəfli əməkdaşlığımızın və münasibətlərimizin daha da genişlənməsinə şahid olacağıq.

Allah-taaladan Zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan xalqına isə başucalığı və xoş günlər arzulayıram.

**Hörmətlə,**

***Seyid İbrahim RƏİSİ,***
***İran İslam Respublikasının Prezidenti***

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının müstəqilliyinin 105-ci ildönümü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Ölkənizin və xalqınızın firavanlığı və rifahı ilə bağlı ən xoş arzularımı bildirirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Sauli NİİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

*

Zati-aliləri!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Maldiv hökuməti və xalqı adından, şəxsən öz adımdan Sizə, Azərbaycan hökumətinə və xalqına səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan çox məmnunam.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və rifah arzulayıram.

Hörmətlə,

***İbrahim Məhəmməd SOLİH,***
***Maldiv Respublikasının Prezidenti***

*

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizi, ölkənizin hökumətini və xalqını Koreya Xalq Demokratik Respublikasının hökuməti və xalqı adından təbrik edirəm.

Fürsətdən istifadə edərək, əminliyimi bildirirəm ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətləri bundan sonra da genişlənəcək və inkişaf edəcəkdir.

Sizə ölkənizin tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.

***Kim Çen IN,***
***Koreya Xalq Demokratik Respublikasının Dövlət Şurasının Sədri***

*

**Möhtərəm cənab Prezident!**

MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleya Şurasının Katibliyi adından Azərbaycan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə təbriklərimizi qəbul edin.

Azərbaycan suveren inkişaf illəri ərzində dövlətçiliyin möhkəmləndirilməsi işində, ictimai, siyasi və iqtisadi həyatının bütün sahələrində dərin islahatların həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib, həmçinin beynəlxalq arenada öz mövqelərini möhkəmləndirib.

Möhtərəm cənab Prezident, Sizə Azərbaycan Respublikasının tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

**Hörmətlə,**

***Dmitri KOBİTSKİ,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibi,***

***Aydın CƏFƏROV,***
***MDB Parlamentlərarası Assambleya Şurasının Baş katibinin müavini, Azərbaycan Respublikası Milli Məclisinin MDB Parlamentlərarası Assambleyasında səlahiyyətli nümayəndəsi***

*

**Zati-aliləri!**

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü kimi ölkəmizin vətəndaşları adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi və ölkənizin, eləcə də onun bütün vətəndaşlarının firavanlığı üçün ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq xarakteri daşıyan əməkdaşlıqdan məmnun olduğumu xüsusi vurğulayıram. Bosniya və Herseqovina ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətlərin qarşılıqlı maraq doğuran bütün sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliyimi bildirirəm.

Zati-aliləri, Sizə və Azərbaycan Respublikasının vətəndaşlarına ən xoş arzularımı və dərin ehtiramımı ifadə edirəm.

**Hörmətlə,**

***Denis BEÇİROVİÇ,***
***Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü***

*

**Hörmətli İlham Heydər oğlu!**

Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin rəhbərliyi adından və şəxsən öz adımdan Sizi milli bayram - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə təbrik edirəm.

Sizə Azərbaycan xalqının rifahı naminə ali dövlət vəzifənizdə uğurlar, cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayıram.

Fürsətdən istifadə edərək, əmin olduğumu bildirmək istəyirəm ki, Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidməti ilə Azərbaycan Respublikasının müvafiq qurumları arasında qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanan fəaliyyətə göstərdiyiniz diqqət və dəstək bundan sonra da dövlətlərimizin təhlükəsizliyi və sabit inkişafının təmin edilməsi ilə bağlı məsələlərin uğurlu həllinə öz töhfəsini verəcək.

**Hörmətlə,**

***Sergey NARIŞKİN,***
***Rusiya Federasiyasının Xarici Kəşfiyyat Xidmətinin direktoru***

*

**Hörmətli cənab Prezident!**

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un Baş Katibliyi, Türkdilli Ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurası adından və şəxsən öz adımdan Zati-alinizi və qardaş Azərbaycan xalqını 28 May – Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müstəqilliyinin 105-ci ildönümünü qeyd edən Azərbaycan Respublikası Zati-alinizin müdrik və uzaqgörən siyasəti nəticəsində siyasi, iqtisadi və mədəni sahələrdə böyük nailiyyətlər qazanaraq, regionda sülhün və əmin-amanlığın bərqərar olmasını təmin edib.

TÜRKSOY Zati-alinizin təşkilata dəstəyini, ümumtürk mədəniyyətinin təbliğindəki rolunu, eləcə də Azərbaycan Respublikası ilə əməkdaşlıq münasibətlərini yüksək qiymətləndirir.

Bu il 30 illik yubileyini qeyd edən TÜRKSOY ilə Azərbaycan Respublikası arasında yüksək səviyyəli mədəni əməkdaşlıq əlaqələrinin daha da inkişaf edəcəyinə və Azərbaycanın zəngin mədəni irsinin bundan sonra da təşkilatın beynəlxalq layihələrində layiqincə təbliğ olunacağına əmin ola bilərsiniz.

Bu xoş fürsətdən istifadə edərək, Sizə və ailənizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzu edirəm.

**Dərin hörmət və ehtiramla,**

***Sultan RAEV,***
***TÜRKSOY-un Baş katibi***

*

**Zati-aliləri!**

"Mir" Dövlətlərarası Teleradio Şirkətinin kollektivi adından və şəxsən öz adımdan milli bayramınız - Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Fürsətdən istifadə edərək, Azərbaycana sülh, firah, tərəqqi, yeni-yeni nailiyyətlər arzulayıram.

Sizi əmin edirik ki, "Mir" Dövlətlərarası Teleradio Şirkəti bundan sonra da respublikanın həyatını və ölkədə baş verən hadisələri maksimum dərəcədə obyektiv və geniş işıqlandıracaqdır.

**Hörmətlə,**

***Radik BATIRŞİN,***
***"Mir" Dövlətlərarası Teleradio Şirkətinin sədri***

# Azərbaycan Respublikası 1970-ci il Konvensiyasının Yardımçı Komitəsinə üzv seçilib

**Mayın 30-da UNESCO-nun mənzil-qərargahında "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Konvensiyasına tərəf ölkələrin 7-ci sessiyası öz işinə başlayıb.**

Xarici İşlər Nazirliyindən qəzetimizə bildirilib ki, sessiya zamanı, Konvensiyanın Yardımçı Komitəsinə İkinci Seçki Qrupundan (Şərqi Avropa və Mərkəzi Asiya) olduqca rəqabətli şəraitdə keçirilmiş seçkilər çərçivəsində Azərbaycan ən yüksək səs toplayaraq Konvensiyanın Yardımçı Komitəsinə üzv seçilib.

Seçkilərdə 1970-ci il Konvensiyasına tərəf 125 ölkə iştirak edib və onlardan 112 dövlət Azərbaycanın lehinə səs verib.

Xarici İşlər Nazirliyi Azərbaycanın namizədliyini dəstəkləyən bütün üzv dövlətlərə təşəkkür edir.

***"Xalq qəzeti"***

# Ermənistan rəhbərliyinin növbəti saxtakarlığı

**Azərbaycanın Xarici İşlər Nazirliyi Ermənistan rəhbərliyinin növbəti aqressiv ritorikası və saxtakarlığına dair faktları açıqlayıb.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə tvitərdəki hesabında yazıb.

Ayxan Hacızadə qeyd edib: "Ermənistan rəhbərliyinin növbəti aqressiv ritorikası və saxtakarlığı: İkinci Dünya müharibəsinə həsr olunmuş bütün barelyefləri silərək, Laçının işğalı ilə bağlı yazıları yapışdıraraq II Dünya müharibəsi abidəsini dağıdan və 1992-ci ilin mayında erməni terrorçularının siyahısını yandıran məhz Ermənistandır. Ermənistan parlamentinin spikeri və Baş nazirin yaxın adamı (Azərbaycanın suverenliyini və bütövlüyünü tanıyan Baş nazir) Azərbaycanın qədim şəhəri olan Laçını "Berdzor" adlandıraraq, Azərbaycanın suverenliyinə növbəti hücumu həyata keçirir. Ermənistan liderləri yalançı ritorikaya son qoymalı və Azərbaycanın suverenliyinə hörmət etməlidirlər".

***"Xalq qəzeti"***



# Hüquqi dövlətin əsaslarını yaradan lider

**Xalqların istiqlaliyyət və milli azadlıq tarixində xilaskar rolunu oynayan dahi insanlar əbədiyyət qazanırlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı müasir dünya tarixinə də parlaq və silinməz iz qoymuş belə böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.**

Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində ölkənin yükünü daşımışdır. Ulu öndərin 1969–1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında daim qalacaqdır. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı.

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Heydər Əliyevin SSRİ kimi nəhəng dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutması qürurverici hadisə oldu. Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycan üçün xüsusilə böyük önəm kəsb etdi.

1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü. Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Burada məşhur fransız mütəfəkkiri Volterin “dövlətin xilası üçün bir dahi insan kifayətdir” kəlamı yada düşür. Heydər Əliyev də Tanrının Azərbaycan xalqının taleyinə bəxş etdiyi bir qismət, zamanında millətinin xilaskarı olmaq üçün göndərilən bir dahi insan idi.

Məhz müstəqil Azərbaycanın azadlığının, dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü.

Ümummilli lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu. Ulu öndərin 1994-cü ildə imzaladığı cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Heydər Əliyevin müəllifi olduğu və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hüquqi dövlətin bütün prinsipləri – qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olundu, insan haqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edildi.

Ulu öndər prokurorluq orqanlarının rəhbər işçiləri ilə 2000-ci ilin aprelində keçirdiyi görüşdə hüquqi islahatlarla bağlı deyirdi: “Bu islahatları ona görə aparmırıq ki, kimsə bizə deyir, kimsə bunu bizdən tələb edir. Biz özümüz anlamalıyıq ki, “hüquqi, demokratik dövlət qururuq” elan edən prezident gərək onu təmin etsin. Bunu təmin etmək də qanunlarla ola bilər”.

Gərgin fəaliyyət nəticəsində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunlar, o cümlədən "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və digər qanunlar, əvvəlkilərdən prinsipcə köklü surətdə fərqlənən Mülki və Mülki-Prosessual, Cinayət və Cinayət-Prosessual, Cəzaların İcrası və s. məcəllələr qəbul edildi. Bu qanunvericilik aktları beynəlxalq səviyyəli mütəxəssislər tərəfindən ekspertizadan keçirilməklə yüksək dəyərləndirildi.

İnsan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı.

Ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, bu sahədə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirilməyə başlandı və İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı. Demokratik hüquqi dövlətin təməl daşlarından biri hesab olunan müasir müstəqil məhkəmə hakimiyyətinin bərqərar olması da məhz ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Belə məhkəmə hakimiyyətini yaratmaq üçün ölkədə köklü məhkəmə-hüquq islahatlarının aparılmasının zəruriliyini nəzərə alan ümummilli liderin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul olundu və məhkəmə islahatlarına dair proqram xarakterli fərman imzalandı. Dahi öndərin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başladı.

Müstəqilliyimizin on ili – 1993-2003-cü illər ərzində dahi Heydər Əliyev “siyasət mümkün olanı etmək deyil, mümkünsüzü bacarmaq sənətidir” məşhur kəlamında söylənildiyi kimi, düşünülmüş və uzaqgörən siyasəti sayəsində Azərbaycan üçün, xalqımız üçün mümkünsüz görünən hər şeyin öhdəsindən uğurla gəldi, ölkəmizin müstəqilliyini dönməz, əbədi və daimi etdi, Azərbaycan demokratik hüquqi dövlət quruculuğu yolu ilə əzmlə irəlilədi və gələcək inkişafın strateji hədəflərini müəyyən etdi. O inkişaf ki, sonrakı illərdə müstəqil Azərbaycanın daha da qüdrətlənməsi və tərəqqisi üçün möhkəm təməl və potensial rolunu oynadı.

Ümummilli lider həm də Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət – Heydər Əliyev dövlətçilik məktəbini yaratdı. Ulu öndərin 2003-cü ildə tarixi müraciətində xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərdi: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Zaman Heydər Əliyevin bu inamını təsdiq edir və ümummilli liderin layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev Azərbaycana bacarıqla rəhbərlik edir, öz praqmatik və müdrik siyasəti ilə ölkəmizi irəli aparır. Dövlətin sükanının etibarlı əllərdə olduğunu görən xalq öz Prezidentinə daim dəstək verir və onun arxasınca inamla gedir.

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilmiş, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunmuşdur. Bu gün hər bir azərbaycanlını qürurlandıran hadisə ümummilli lider Heydər Əliyevin torpaqlarımızın, həmçinin Azərbaycanın incisi olan Şuşanın işğaldan azad ediləcəyinə, ərazi bütövlüyümüzün bərpa ediləcəyinə dair əminlik və ideyalarının Prezidentimiz cənab İlham Əliyevin müdrik siyasəti və Ali Baş Komandanlığı və xalqımızın şanlı oğullarının şücaəti ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində reallaşmasıdır.

Ümummilli lider haqqında danışarkən onun ideyalarını yaşadan Heydər Əliyev Fondunun fəaliyyəti də xüsusilə qeyd edilməlidir. Heydər Əliyev Fondu xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyev ocağına olan sevgisini daha da gücləndirir.

Azərbaycan zəngin ölkədir, onun istedadlı insanları, tükənməz təbii sərvətləri var, lakin bizim ən böyük sərvətimiz Heydər Əliyev siyasi irsidir. Şübhəsiz ki, Heydər Əliyev dühasını, onun xalqımız qarşısında xidmətlərini dərindən öyrənmək üçün illər gərəkdir. Ulu öndərimizin böyüklüyü, onun xalqımızın rifahı naminə həyata keçirdiyi mühüm tədbirlərin mahiyyətini tam dərk etmək üçün böyük zaman tələb olunur. Zaman keçdikcə bu dahi insanın adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər mücəssəməsinə çevrilir.

Azərbaycan xalqı ulu öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

***Mürvət HƏSƏNOV,***
***Sumqayıt şəhər prokuroru,***
***baş ədliyyə müşaviri***

# Hərbi qulluqçuların idman yarışı



**Müdafiə Nazirliyinin, rayon icra hakimiyyətinin, Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə ulu öndərin 100 illik yubileyi münasibətilə hərbi qulluqçular arasında yunan-Roma, sərbəst güləş və cüdo üzrə birincilik keçirilib.**

İdman kompleksində keçirilən birincilikdə çıxış edənlər ulu öndər Heydər Əliyevin bədən tərbiyəsi və idmanın da inkişafına xüsusi diqqət yetirməsindən, bu sahələrin inkişaf perspektivləri ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirməsindən danışıblar.

Gərgin mübarizə şəraitində keçən birincilikdə hərbi qulluqçular idmanın yunan-Roma, sərbəst güləş və cüdo növləri üzrə güclərini sınayıblar.

Yekunda qaliblər diplom, kubok və medallarla mükafatlandırılıblar.

***“Xalq qəzeti”***

# Yubiley münasibətilə minifutbol turniri

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Azərbaycanın Yekaterinburqdakı Baş Konsulluğunun təşəbbüsü və təşkilatçılığı, “Azərbaycan-Ural” İctimai Milli-Mədəni Təşkilatının və Rusiya Azərbaycanlı Gənclər Birliyinin Sverdlovsk vilayətindəki nümayəndəliyinin dəstəyi ilə 2-ci minifutbol turniri keçirilib.**



Baş konsul vəzifəsini icra edən Şöhrət Mustafayev, Sverdlovsk vilayətinin bədən tərbiyəsi və idman nazirinin müavini Sergey Nabokix, RAGB-nin Sverdlovsk vilayəti üzrə nümayəndəliyinin rəhbəri Toğrul Həsənzadə ümummilli liderin keçdiyi ömür yolundan, idmana göstərdiyi diqqət və qayğısından danışıblar.

İlk 3 yeri tutmuş komandalara turnirin kuboku, medallar, diplomlar və Baş Konsulluq tərəfindən müxtəlif məbləğdə pul mükafatları təqdim olunub.

***“Xalq qəzeti”***

# “Heydər Əliyev İli” çərçivəsində elmi-praktik konfrans

**Azərbaycan-Fransız Universiteti Yeni Azərbaycan Partiyası və Türk Ağsaqqalları İctimai Birliyinin təşkilatçılığı ilə “Azərbaycan-Avropa İttifaqı arasında münasibətlərin qurulmasında ulu öndər Heydər Əliyevin rolu” mövzusunda elmi-praktik konfrans keçirilib.**

Universitetin icraçı direktoru Vazeh Əskərov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ulu öndər Heydər Əliyevin müstəsna tarixi xidmətlərindən danışıb. Türk Ağsaqqalları İctimai Birliyinin sədri Südeif İmamverdiyev ulu öndər Heydər Əliyevin böyük xilaskarlıq rolundan, zəngin dövlətçilik təcrübəsindən bəhs edib.

Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri Tofiq Cahangirov, Aşqarlar Kimyası İnstitutunun icraçı direktoru Əfsun Sucayev ulu öndərin gənclərə, onların təhsilinə göstərdiyi böyük diqqət və qayğıdan danışıblar.

***“Xalq qəzeti”***



(əvvəli 1-ci səhifədə)

# Bir səhər ayılıb görəcəklər ki...

## Qarabağdakı “Araik yığnağı”nın bayraq dedikləri əski parçasını öz əlləri ilə zibil yeşiyinə tullamasının vədəsi yetişdi



### Finalın sədası zibil yeşiyindən gələcək

Dövlətimizin başçısının dilə gətirdikləri sadəcə çağırış, yaxud son xəbərdarlıq deyil, geniş məzmunlu ultimatum idi. Söhbət cənab İlham Əliyevin mayın 28-də – Müstəqillik Günündə Laçın rayonuna səfəri zamanı doğma yurdlarına dönmüş sakinlərlə görüşündə Qarabağ iqtisadi rayonumuzda suyu bulandırmaqda davam edən separatçılara, qondarma rejimin “arayik şaykası”nın ünvanına səsləndirdiyi ultimatumdan gedir. Nəhayət, daşları toplamağın vaxtının çatdığını xatırladan həmin ismarıc təkcə Qarabağdakı və İrəvandakı daşnak-revanşist haylara deyil, eyni zamanda onların xaricdəki havadarlarına dərs olmalıdır. Nəyi, necə və nə zaman edəcəyini dəqiq bilən strateq-diplomatın, istedadlı sərkərdənin – Ali Baş Komandanın dilindən səslənən tezislərin hər biri beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycanın suveren dövlət statusuna tamamilə uyğundur. Ölkə başçısı Qarabağın erməni sakinləri üçün qalan yeganə yolu da açıqlayıb: “Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası, saxta dövlət atributlarını zibil yeşiyinə atmaq və “parlament”i buraxmaq!”.

Muxtariyyət xülyasından əl çəkmək istəməyənlərə Bakı özünün son və qəti sözünü dedi. Bundan sonra onlar üçün vaxt geriyə hesablanmağa başlayıb və sonun başlanğıcına start verilib.

### Bütün kitablarınızı bağlayın!

Uydurma şəxsiyyətlər və hadisələrlə, saxta qəhrəmanlıq salnamələri, yalan və şər-böhtanla dolu kitablarla beyinləri yuyulmuş hayların bəsirət gözlərini açmağın məqamı yetişib. Cənab Prezidentin bu həqiqəti dərk etməyənlərə ismaric-xatırlatması tam yerinə düşdü: “Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. “Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə”.

Son vaxtlar beynəlxalq təşkilatların faktiki olaraq Azərbaycanın haqlı mövqeyi ilə razılaşdığını bildirən dövlətimizin başçısı laçınlılarla görüşündə bu məsələyə də aydınlıq gətirdi: “Beynəlxalq təşkilatlar nəyə görə bizim mövqeyimizlə tamamilə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır”.

Azərbaycanın bu gün Qarabağda istənilən əməliyyatı keçirmək üçün hər bir imkana malik olduğunu bildirən ölkə başçısı bölgəni tərk etməyə tələsməyən daşnak-separatçıları, onlara kənardan züy tutanları aydın şəkildə başa saldı ki, qarşılarında bir çıxış yolu qalıb: “Parlament” buraxılmalı, özünü “prezident” adlandıran ünsür təslim olmalı, bütün “nazirlər”, “deputatlar” və digərləri öz “vəzifələrini” artıq kənara qoymalıdırlar”.

Yəni, müharibədə qalib gəlmiş Azərbaycanın Ali Baş Komandanı məğlub Hayastanın başbilənlərinin nəzərinə çatdırdı ki, kiməsə arxayın olub bizimlə yenidən savaş meydanına girmək xəyalına düşməsinlər. Bu o deməkdir ki, əgər haylar “dəmir yumruğ”un zərbini unudublarsa, bunu artıq baş nazirlərinin də etiraf etdiyi, Azərbaycanın suveren ərazisi Qarabağımızda lokal xüsusi əməliyyat keçirməklə bir daha yadlarına salmaq heç də çətin deyil.

### Amnistiya minnəti

Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçın rayonunda ilk sakinlərlə görüşündə toxunduğu növbəti məsələ, bununla bağlı beynəlxalq güclərə və təşkilatlara ünvanladığı mesaj böyük ictimai-siyasi marağa səbəb oldu. Söhbət Qarabağdakı separatçı rejimin “çinovniklərinin” təslimdən sonrakı aqibətlərindən gedir. Belə məlum olur ki, keçmiş uğursuz “vasitəçilər” rəsmi Bakıdan Qarabağın tezliklə qolları qandallanacaq “arayik şaykası”nın təhlükəsizliyinə təminat verilməsini xahiş ediblər. Bunlar həmin beynəlxalq vasitəçilərdir ki, cəmi beş il bundan əvvəl münaqişəni daha neçə onilliyə dondurmağa, Azərbaycan xalqını və iqtidarını Qarabağ uğrunda mübarizəsinin faydasızlığına və perspektivsizliyinə inandırmağa çalışırdılar. İndi isə dövlət başçımızdan separatçıları bağışlamasını xahiş edirlər. Taleyin ironiyasına diqqət edin ki, artıq çərxi-fələyin tərsinə dövran etmək qüdrətinə əmin olan beynəlxalq vasitəçilər, təşkilatlar dünənə kimi təəssüblərini çəkdikləri daşnaklara görə dövlət başçımıza minnətçi düşüblər. Elə bunun özünü Bakının növbəti diplomatik uğuru hesab eləmək olar.

### Strateji düşüncənin, hərbi fəhmin uğuru

Prezident İlham Əliyevin məhz Laçından separatçılara ünvanladığı ultimatuma, hadisələrə sayıq baxışın, mövcud situasiyanı strateji düşüncənin süzgəcindən keçirərək dəyərləndirmənin, fəaliyyətin dəqiq ardıcıllığını izləməyin nəticəsi kimi baxmaq lazımdır. Ultimatumun Azərbaycanın Ermənistanla şərti sərhəddə, Laçın yolunda Həkəri nəzarət-keçid məntəqisini qurduqdan sonra səsləndirilməsi özündə hərbi-siyasi manevr xarakteri daşıyır, – desək, yanılmarıq. Bu, eyni zamanda, yuxarıda qeyd etdiyimiz kimi, strateq-diplomatın, yüksək bacarığa və hərbi fəhmə malik sərkərdənin uğurudur.

Neçə onilliklər dözdük, daşnak hədyanlarını dinləməli olduq, çox sabahları dirigözlü açdıq, amma gec-tez hər şeyin halal mizan-tərəziyə qoyulacağına, haqq-ədalətin yerini alacağına ümidimizi itirmədik. 44 günün gətirdiyi Zəfər haqsızlığa son qoydu, başımızı dikəltdi, qürurumuzu bərpa elədi. İndi millətimiz gələn hər günə, açılan hər sabaha inamla, müjdə sorağı ilə baxır. Haqqımızdır!

Əslində, Qarabağ torpağında yaşamağa ixtiyarı çatmayanlara son sözünü deyən Prezident İlham Əliyev yenə humanistlik göstərməklə, bayrağımızı, vətəndaşlığımızı nişan verməklə həm də onlara türkün ermənidən fərqini anlatdı. Təki anlasınlar.

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

***Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır, onu unutmasınlar. O bayrağa onlar yaxınlaşa bilər? O insanabənzər məxluq və onun kimiləri o bayraqlara yaxınlaşa bilər? O bayrağa uzaqdan baxmağa da qorxarlar. Bayraq yandırmaqla onlar ancaq öz çirkin xislətlərini bütün dünyaya nümayiş etdiriblər. Bir daha demək istəyirəm, bunun arxasında dayanan Ermənistan dövlətidir, Ermənistan hökumətidir, Ermənistanda onilliklər ərzində aparılan anti-Azərbaycan, azərbaycanofobiya kampaniyasıdır. Onu da demək istəyirəm ki, əlbəttə, bu hadisə bizi sarsıda bilməz, bizim iradəmizə heç bir təsir edə bilməz. Ancaq onlar yaxşı fikirləşsinlər. Bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər.***

**Prezident İlham Əliyevin 2023-cü il aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsindən.**

*Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**politoloq**

– Tam əminəm ki, dövlət başçımızın Laçından səsləndirdiyi xəbərdarlıq Qarabağda yaşayan ermənilərə çatdı. İndi sadəcə olaraq bunu dərk etməli və nəticə çıxarmalıdırlar. Onların arasında sağlam düşüncəli sakinlər də var, amma görünür, separatçıların təzyiqlərindən çox narahatdırlar. Yəni, başa düşürlər ki, Bakının mövqeyinə loyal münasibət göstərsələr, taleləri acınacaqlı olacaq.

Qarabağdakı separatçı rejimə gəldikdə isə, Azərbaycan Prezidenti bununla bağlı hər şeyi aydın söylədi. “Miatsum” kitabı bağlandı, separatçıların bütün tələbləri zibil yeşiyinə tullandı. İndi oturub yaxşı-yaxşı fikriləşməlidirlər. Əgər Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıyırsa, onlar nəyə nail ola bilərlər? Təbii ki, hamısı həmin o qondarma postlarını tərk etməli, təslim olmalıdırlar. Beləliklə, əhali normal, dinc və təhlükəsizlik şəraitində Azərbaycanın tərkibində yaşamalıdır. Başqa çıxış yolları, sadəcə, yoxdur. Nə Ermənistan onlara hiss olunacaq dəstəyi verəcək, nə də beynəlxalq strukturlar. Hətta hərdən başlarını sığallayan Fransa da başa düşür ki, buradakı ermənilər gec-tez Azərbaycanla ortaq dil tapmalı və birgə yaşamalıdır. Həmin ermənilər isə bu reallığı nə qədər tez qəbul edib başa düşsələr, özləri üçün bir o qədər yaxşı olar.

# Oğru elə bağırdı ki...

## Hayastan rəhbərliyi yenə yalançı ritorikanı dövriyyəyə buraxıb

**Azərbaycan Prezidenti İlham Əliyev mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşüb, evlərinin açarlarını onlara təqdim edib. Dövlət başçısı görüşdə çıxış edib. Çıxış zamanı səsləndirilən fikirlər və edilən çağırışlar Ermənistanda və Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti zonasında yaşayan ermənilər arasında ciddi rezonans doğurub.**

Xatırladaq ki, Prezident İlham Əliyev Qarabağ ermənilərindən separatçılıqdan və düşmənçilikdən əl çəkməyi, silahlı qüvvələri tərksilah etməyi, özünü dövlət elan edən strukturları ləğv etməyi, Azərbaycan qanunvericiliyini tanımağı və bu ölkənin vətəndaşı kimi yaşamağı tələb edib. Əks halda onlara qarşı müvafiq tədbirlər görüləcək: “İki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna mən şübhə etmirəm. Buradan - uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. “Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, “parlament”i buraxmaq. Guya orada “parlament” fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar”.

Cənab İlham Əliyevin çıxışını öyrənmək və cavab hazırlamaq üçün Ermə-






nistan xarici işlər nazirliyinə bir sutkadan artıq vaxt lazım olub. Mayın 29-da axşam qurumun bəyanatı yayılıb. Bəyanatda bir gün sonra İrəvan Qarabağın “dövlət strukturları”nın ləğvi və Qarabağ ermənilərinin Azərbaycan vətəndaşlığını qəbul etməsi ilə bağlı tələbləri qəbuledilməz adlandırıb. Bəyanatda deyilir ki, Azərbaycan Qarabağı blokadaya alıb və Qarabağda ermənilərə qarşı “etnik təmizləmə” həyata keçirməklə hədələyir: “Azərbaycan Qarabağ əhalisini nəinki “soyqırımı” ilə hədələyir, həm də Ermənistanın müstəqilliyini və ərazi bütövlüyünü şübhə altına alır”.

Azərbaycan XİN-in cavabında qarşı tərəfin növbəti dəfə verdiyi qərəz dolu əsassız bəyanatı qətiyyətlə rədd edilib: “Ermənistan tərəfinin bu bəyanatı Azərbaycan ərazilərini 30 il işğal altında saxlayan, azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirən, şəhər və kəndlərimizi viran qoymuş Ermənistanın, bu yerləri işğaldan azad etdikdən sonra yenidənqurma işləri aparan, dədə-baba yurdlarından kütləvi şəkildə vəhşicəsinə qovulmuş vətəndaşlarımızın geri qayıtması üçün bütün şəraiti yaradan Azərbaycanın qısa müddətdə gördüyü işləri həzm edə bilməməsinin təzahürüdür.

Görünür ki, Ermənistan bununla eyni zamanda, işğalına 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın müddəalarına uyğun olaraq son qoyulduğu Laçından öz qüvvələrini çıxararkən bu ərazilərə dinc sakinlərin geri qayıtmasına maneçilik törətmək məqsədilə 2700-dən artıq mina yerləşdirməsi və evlərə mina tələlər qoyması kimi əməllərini də ört-basdır etmək və beynəlxalq ictimaiyyətin diqqətini yayındırmaq məqsədi daşıyır.

“Azərbaycan Prezidentinin ərazi bütövlüyü və suverenliyə hörmət edilməsinin zəruri olduğuna, Azərbaycanın daxili işlərinə qarışmağın qəbuledilməzliyinə və bölgədə separatçılığın təşviq edilməsinə xidmət edən addımların qarşısının qətiyyətlə alınmasına istiqamətlənən çağırışlarının Ermənistan xarici işlər nazirliyi tərəfindən qəsdən təhrif edilməsi onların tarixdən dərs çıxarmadığını nümayiş etdirir. BMT Nizamnaməsinə və beynəlxalq hüququn norma və prinsiplərinə zidd olaraq Azərbaycana qarşı təcavüz aktı törədən, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini heçə sayaraq işğala son qoymayan Ermənistanın Azərbaycanın güc tətbiq etməklə hədə törətdiyini iddia etməsi gülüncdür”, – nazirlikdən əlavə edilib.

Öz növbəsində, qondarma rejimin parlamenti də bəyanatla çıxış edərək, Bakını “etnik təmizləmə” hazırlamaqda ittiham edib. Qeyd olunub ki, bu, Qarabağ ermənilərinin Azərbaycanın tərkibində yaşaya bilməyəcəyini sübut edir. Separatçılar Rusiyanı və beynəlxalq ictimaiyyəti Qarabağa qarşı “hərbi təcavüzün” (?) qarşısını almağa çağırıblar.

***

Bu arada Hayastan parlamentinin spikeri Alen Simonyan dilə gəlib. O, “Tvitter” hesabında Azərbaycanı Laçın şəhərində Böyük Vətən müharibəsi qurbanlarının xatirəsinə ucaldılmış memorial kompleksi yer üzündən silməkdə (?) ittiham edib. Simonyan hay xislətinə uyğun olaraq Laçını “Berdzor” kimi təqdim edib: “Maraqlıdır, Böyük Vətən müharibəsində həlak olanlara həsr olunmuş abidənin dağıdılmasına reaksiyalar, reportajlar və ya patriotların böyük qələbəmizi ləkələməyə, kəsib atmağa çalışacaqları tok şoular olacaqmı? Yoxsa, tərəfləri təmkinli olmağa çağıran bəyanatlar eşidəcəyik, hə? İkili standartlar, axmaqlıq və tamahkarlıq, sonra isə təəccüblü üz ifadəsi... Nə və harada səhv oldu?”

XİN-in mətbuat katibi Ayxan Hacızadə A.Somonyanın paylaşımına elə “Tvitter”dən cavab verib. O, bunu Ermənistan rəhbərliyinin növbəti aqressiv ritorikası və saxtakarlığı adlandırıb: “Birincisi, İkinci Dünya müharibəsi abidəsini dağıdan, İkinci Dünya müharibəsinə həsr olunmuş bütün barelyefləri silən və onun yerində Laçının işğalı ilə bağlı yazılar yazan və 1992-ci ilin mayında şəhəri yandıran erməni terrorçularının siyahısını memorial kompleksə həkk edən Ermənistan olub.

İkincisi, Ermənistan parlamentinin spikeri və Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tanıyan baş nazirin ən yaxın adamı qədim şəhərimiz olan Laçını “Berdzor” adlandıraraq, ölkəmizin suverenliyinə növbəti dəfə zərbə vurur.

Üçüncüsü, Ermənistan liderləri yalançı ritorikadan əl çəkməli və Azərbaycanın suverenliyinə hörmət etməlidirlər!”.

A.Hacızadənin qeyd etdiklərinə yalnız onu əlavə etmək qalır ki, Nikol Paşinyanın sələfi Serj Sarkisyanın dövründə faşist əlaltısı və cəllad Qaregin Njdeyə İrəvanın mərkəzində abidə ucaldılmışdı. Onun demontaj olunması ilə bağlı edilən bütün çağırışlara baxmayaraq, abidə hazırda da İrəvanın mərkəzində qalmaqdadır. İndi belə bir varlığa heykəl ucaldan hayların parlamentinin spikeri özündə cürət tapırmış kimi bizi nədəsə ittiham etməyə cəhd göstərir. Uğursuz cəhddir!

*Səxavət HƏMİD,*
*“Xalq qəzeti”*

*Ekspert rəyi*

**Fərhad MƏMMƏDOV,**
**Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin rəhbəri, politoloq**



– Ermənistan-Azərbaycan münasibətlərində hələ də açıq qalan məsələlər var. Bunlar Qarabağda Ermənistan ordusunun qalıqlarının mövcud olması və Ermənistandan gələn resurs təminatıdır. Bura qaz, işıq, əsas maliyyə təminatı daxildir. Azərbaycan bu açıq məsələləri bağlamağa çalışır. Çünki Laçında sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılandan sonra sülh danışıqlarında dinamika yaranıb. İrəvan bu açıq məsələlərdən sui-istifadə etməklə, sülh prosesinə maneçilik törədir, yaxud gələcəkdə əlavə nəyəsə nail ola biləcəyi illüziyalarına qapılır. Azərbaycan Prezidentinin bəyanatlarından aydın olur ki, ölkəmiz açıq qalan məsələləri ya beynəlxalq vasitəçilik yolu ilə, ya da birtərəfli qaydaya məhdudlaşdırmaq və qapatmaq niyyətindədir.

Laçında qurulmuş sərhəd nəzarət-buraxılış məntəqəsi Laçın yolundan sui-istifadənin qarşısını aldı. Hazırda sülh sazişi ilə bağlı gedən danışıqlarda da Ermənistanın Qarabağ erməniləri amilindən sui-istifadə etməməsi üçün Azərbaycan Qarabağdakı silahlılarla bağlı açıq-aşkar mesajlar ötürür. Mesajlar həm Azərbaycan Prezidenti, həm də Müdafiə Nazirliyi səviyyəsində verilir. Bu o deməkdir ki, Azərbaycan Ermənistana açıq qalan məsələləri sülh yolu ilə bağlamağı təklif edir. Əks təqdirdə yenə birtərəfli qaydada addımlar atılacaq. Bu da öz növbəsində yenidən danışıqlar prosesinə təsir göstərəcək. Ermənistanın sui-istifadə üçün bəhanəsi qalmayacaq.

# Prezidentin “Kitab bağlandı” mesajı və ya Ermənistan üçün ən son şans

## Qarabağdakı separatizmin nəfəsi kəsilmək üzrədir



*(əvvəli 1-ci səhifədə)*

Bəli, Ermənistan rəhbərliyi indiyədək xəbərdarlıqlardan nəticə çıxarmayıb laqeyd yanaşma ortaya qoyduqca, sülh müqaviləsinin imzalanmasını ləngitdikcə, özü üçün problemlərin miqyasını da genişləndirib. Ölkənin başında dayananların dövlətimizin rəhbərinin “Qarabağ Azərbaycandır!” sözlərini təkrarlamaları zamanında baş vermədiyinə görə, Ermənistanda kollaps yaşanmaqdadır. Düzünə qalsa, indi İrəvanın siyasi dairələrindəki anarxik durum onsuz da gerçəkləşməsi labüd görünən proses idi. Sadəcə, baş nazir Nikol Paşinyan administrasiyası tipik erməni xəstəliyinin təzahürü kimi özünü göstərən vəziyyəti tez sıradan çıxarmalı olduğu halda, spekulyasiyalara baş vurdu. Vaxtı uzadaraq, birincisi, öz hakimiyyətini qorumağı, ona qarşı təzyiqlərdən və təhdidlərdən yaxa qurtarmağı, ikincisi və ən əsası isə, güclənərək regiondakı mövcud status-kvonu dəyişməyi düşündü.

Ancaq zaman göstərdi ki, Ermənistan hakimiyyətinin hesablamaları əbəsdir. Yeri gəlmişkən, cənab İlham Əliyev həmin “hesablamaların” mənasızlığının proqnozunu lap başlanğıcdan vermişdi. Laçın əhalisi ilə görüşündə də bunu bir daha vurğuladı. Azərbaycan Prezidenti fikirlərini aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcındakı sərhəddə ölkəmizin nəzarət-buraxılış məntəqəsinin qurulması kontekstində izah etdi və bildirdi ki, bu, Qarabağ bölgəsində yaşayan ermənilər üçün də dərs olmalıdır: “Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq”.

Baş nazir Nikol Paşinyanın “Qarabağ Azərbaycandır” açıqlaması Ermənistanın reallıqlarla barışması deməkdir. Yəni, ölkə rəhbərliyi düz yola gəlməyə meyllidir. Ancaq nəticəni məcburiyyət qarşısında, bütün digər təxribatçı manevrlər səmərə vermədikdən sonra çıxarır ki, bu isə ölkənin qarşısındakı şərtləri ağırlaşdırmaqdadır. Əslində, sülh müqaviləsinin imzalanmadığı hər gün Ermənistanın ziyanınadır. Bu, Paşinyanın daxili etirazlar fonunda öz hakimiyyətini itirmək qorxusundan da təhlükəli tendensiyadır. Deməli, mövcud durumda baş nazir və komandası özündə qətiyyət tapmalıdır. Tapırmı, bunu demək çox çətindir. Azərbaycan Prezidentinin də məsələyə şübhəli yanaşdığını hiss etdik.

Cənab İlham Əliyevin İrəvanın siyasi dairələrindəki anti-Paşinyan ovqatının baş naziri devirmək potensialını nəzərə almaq istəməməsi təbiidir. Nəhayət, hər kəs öz problemini özü aradan qaldırmalıdır. Belə demək mümkünsə, sülhsüzlük şəraiti isə Azərbaycanın Ermənistana münasibətdə hər zaman əli tətikdə olması deməkdir. Həm də ona görə ki, sülhün yaranmamasının təxribatlarla müşayiət olunduğunu, necə deyərlər, görürük, daha doğrusu, görə-görə gəlirik.

Çox uzağa getməyək, mayın 26-da Ermənistanın diversiya qrupu Azərbaycan ərazisi olan Zəngilanda peyda olub. Ordumuz əli tətikdədirsə, deməli, bu sayaq təxribatlara qarşı əks tədbirlər də adekvat olacaq. Bunu rəsmi İrəvanın və tərəfdarlarının adekvat sayıb-saymamasından asılı olmayaraq, Bakı özünün demarş xəttini yürüdəcəkdir. Ermənistan hakimiyyəti və ölkənin xəstə təfəkkürlü cəmiyyəti üçün başqa yollar keçərsizdir. Onlar yalnız güc dilindən anlayırlar. Ona görə dövlətimizin başçısının, bir növ subliminal mesajlar səsləndirməsi vacibdir: “Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni, onu da unutmasınlar”.

Azərbaycan Prezidentinin mesajı sülh gündəliyinin ölkəmizin şərtləri daxilində məqbulluğunun vurğulanmasıdır. Bu məntiqdə Bakının şərtləri ədalət indiqatorudur. Ədalətli yanaşma isə özündə sərhədlərin delimitasiyasından, Naxçıvana yolumuzun açılmasından tutmuş, Qarabağdakı qanunsuz erməni hərbi birləşmələrinin bölgədən çıxarılmasınadək bir sıra mühüm məqamları birləşdirməkdədir: “Bu, bizim şərtlərimizdir. Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq”.

Bəli, Azərbaycan Prezidentinin də bildirdiyi kimi, artıq Ermənistan bizim ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı ciddi maneə qalmayıb. Dövlətimizin başçısı bu müqavilənin yaxın gələcəkdə imzalanacağına əminliyini ifadə etsə də, bir qədər əvvəl də vurğuladığımız keçmişin təcrübəsini, habelə Ermənistanın sülhdən boyun qaçırması reallığını tam ciddiyyəti ilə nəzərə almalıyıq. Mövcud reallığa görədir ki, cənab İlham Əliyev hadisələrin axarına söykənərək, əminlik ifadə etməklə yanaşı, sülh müqaviləsinin imzalanmaması ilə bağlı durum barədə də söz açır. Prezidentin subliminal mesajı həm də bundan qaynaqlanmaqdadır və onun növbəti fikirləri həmin mesajı bir qədər də konkretləşdirmək baxımından əhəmiyyət daşımaqdadır: “İmzalansa çox yaxşı, imzalanmasa da hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq”.

Deməli, Ermənistan rahat yaşaya bilməyəcək. Nəinki Ermənistan, eyni zamanda, Qarabağdakı separatçı rejim üçün rahatlıq olmayacaq. Axı, ölkəmiz iki il yarım ərzində gözləməklə, eyni zamanda onların rahat yaşamaları üçün şans yaradıb. Şansı isə hər kəs özü düşünərək, hadisə və proseslərdən düzgün nəticə çıxararaq dəyərləndirməlidir. Ancaq görürük ki, ötən müddətdə Azərbaycanın şans məntiqi kimlərinsə Qarabağı özününküləşdirmək avantürası kimi anlaşılmaqdadır. Həmin kimsələr bölgədə aksiyalar keçirir, ölkəmizin yurisdiksiyası altında yaşamağın mümkünsüzlüyünü bəyan edir, Bakının dialoq təkliflərini, paytaxta danışıqlar üçün etdiyi dəvətləri geri çevirirlər. Hələ elə hesab edirlər ki, Azərbaycan özünün suveren ərazisindəki separatçı ünsürləri sıradan çıxarmaqda acizdir, beynəlxalq təpkilərdən çəkinir və sair ilaxır. Prezident İlham Əliyevin laçınlılarla görüşdə səsləndirdikləri fikirlər beləl追 üçün soyuq duş effekti yaratdı desək, mübaliğəyə yol vermiş olmarıq: “Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır”.

Bəli, Azərbaycan Prezidenti Ermənistanın siyasi dairələrinin, ermənipərəstlərin və separatçıların xülyalardan ayılmalı olduğunu bildirərkən, Qarabağ mövzusundakı bütün beynəlxalq və regional spekulyasiyalara meydan tanınmayacağını böyük əminliklə vurğulamaqdadır. Hesab edirik ki, dövlətimizin başçısının çıxışındakı ən vacib məqam da elə budur. Bu məqam, ümumən, dünya erməniliyinin Qarabağ avantürasının tarixin arxivinə gömüldüyünün anonsudur. Bu, elə bir məqamdır ki, ona nəzərən ən doğru seçilmiş ifadə məhz “kitabın bağlanması”dır: “Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. “Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə”.

Bu yerdə qeyd edək ki, 44 günlük müharibədən sonra Azərbaycan ictimaiyyətində Qarabağın taleyi ilə bağlı narahatlıq var idi. Mövcud vəziyyətdən istifadə edən ölkəmizin müxalif kəsimi bildirirdi ki, guya müharibədəki qələbə tam deyil. Yəni, Qarabağda özünü dövlət adlandıran separatçı ünsürlər varsa, üstəlik bəzi beynəlxalq dairələr, o cümlədən, Ermənistan hakimiyyəti həmin ünsürlərə fokuslanaraq, Bakı-Xankəndi dialoqu kimi mənasız ritorikaya baş vururlarsa, mövcud xüsusda separatçıları ayrıca tərəf kimi təqdimetmə meyilləri müşahidə olunursa, haqqında söz açdığımız narahatlığın körüklənməsi labüd idi. Elə isə, cənab İlham Əliyevin öz doğma yurdlarına qayıtmış laçınlılarla görüşdə səsləndirdikləri fikirlərdəki iki məqama nəzər salaq.

Birinci məqam Laçın və digər rayonlarımızın işğalını doğurmuş durumun təhlilidir. Dövlətimizin başçısı mövcud xüsusda kompromissizdir, hər şeyə öz adı ilə qiymət verir. Bu mənada onun AXC-Müsavat cütlüyünün xəyanətkar mahiyyətini qabartması tarixin acı yaşantılarını unutmamağımızın vacibliyinə dair güclü immunitetdir. Yəni, həmin qütbün Azərbaycan iqtidarını nədəsə günahlandırmağa, ən azı, mənəvi haqqı çatmır. Çünki bu iqtidar onların bir-biri ilə didişmələrinin qurbanı olmuş bütöv bir nəslin heysiyyatına dəymiş zədəni aradan qaldırıb.

İkincisi isə başlanılmış yolun davamlılığının alternativi ola bilməz. Habelə, Qarabağda özünü dövlət kimi qələmə verən rejimin də perspektivi məhvə məhkumdur. Deməli, Azərbaycan ictimaiyyəti tam rahat ola bilər. Ona görə ki, separatçıların başqa yolu yoxdur. Bunu dövlətimizin başçısı incəliklərinə qədər təsvir edir: “Ona görə, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, “parlament”i buraxmaq. Guya orada “parlament” fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar”.

Qeyd edək ki, baş nazir N.Paşinyan Qarabağın Azərbaycana məxsusluğunu bildirəndən sonra Ermənistandakı bəzi siyasi dairələr separatçı rejimdə təmsil olunanların aqibəti ilə bağlı diskussiyalara start verdilər. Onlara bəzi beynəlxalq çevrələr də qoşuldular. Əlbəttə, mövcud xüsusda təxribatçılıq meyilləri də nəzərə çarpdı. Bildirildi ki, Azərbaycan Qarabağ üzərində hüquqi hakimiyyətini bərpa etdikdən sonra həmin şəxslər həbs ounacaqlar. Belə yanaşmalar rejim daxilindəki müqaviməti gücləndirmək, reallıqlara qarşı çıxmaq məramına xidmət edirdi. Azərbaycan Prezidenti laçınlılarla görüşündə bu məqama da toxundu. Əslində dövlətimizin başçısının yuxarıda diqqətə çatdırdığımız iqtibasındakı fikirləri həm də onun güzəşt məntiqindən irəli gəlmiş tələblər idi. Yəni, əgər qondarma rejim özünü buraxdığını elan etsə, o zaman onun “məmurları” Azərbaycan dövlətinin humanist yanaşmasından faydalana bilərlər. Təbii ki, belə yanaşma onların heç də hamısına şamil edilməyəcək. Cənab İlham Əliyevin vurğuladığı kimi: “Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır”.

Dövlətimizin başçısının fikirlərindən gəlinən qənaət budur ki, Bakının dialoq təklifinin geri çevrilməsi, separatçılara humanist yanaşmanın tətbiqi baxımından əsas götürüləcək. Ancaq artıq vurğuladıq ki, sözügedən təkliflərə reaksiya heç də ürəkaçan olmayıb. Dövlətimizin iki dəvətinə həssas münasibət yoxdursa, üçüncü dəvət olmayacaq. Cənab İlham Əliyevin bildirdiyi kimi, ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, hadisələr başqa cür inkişaf edəcək. Hadisələrin başqa cür inkişaf trayektoriyasına gəldikdə, bildirməliyik ki, söhbət saxta rejim və onun hamiləri üçün qorxulu yuxudan gedir. Buna haqlı tərəfin haqsıza və haqsızlığını anlamayana dərsi də demək olar. Hər halda başlıca prinsip Xankəndidəki qondarma quruluşun tam sıradan çıxarılmasıdır ki, məsələdə Prezidentin göstərdiyi qətiyyət hər kəsə yaxşı məlumdur. Elə Ermənistan siyasilərinin özlərinə də.

Ümumən, Azərbaycan dövləti Ermənistanla münasibətlər müstəvisindəki bütün məsələlərə prinsipial yanaşır. Başqa cür mümkün deyil. Nəzərə alaq ki, mövcud istiqamətdə hər hansı yumşalma İrəvanın siyasi manipulyasiyaları üçün meydan tanımaqdır. Bu mənada yolu azaraq Ermənistan ərazisinə keçmiş Azərbaycan hərbçilərinin əsir götürülmələrinə, onların işgəncələrə məruz qalmalarına, qanunsuz şəkildə məhkum olunmalarına cavab da tam sərtliyi ilə veriləcəkdir. “Əgər siz bu razılaşmanı (təsadüfən Ermənistan tərəfinə keçmiş hərbçilərin iki gün müddətinə geri qaytarılmasına dair razılaşma – red.) pozursunuzsa, bunun acısını siz özünüz çəkəcəksiniz. Dərhal bizim hərbçilərimizi qaytarın” tələbini səsləndirmiş cənab İlham Əliyev hələ ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyinin mövcudluğu amilini qabardır və bildirir ki, hazırda Ermənistanın sərhədləri anlayışının qəbulu ölkəmizin sülh şərtlərinin qəbulundan asılıdır. Əks halda: “Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim”.

Bəli, Prezident İlham Əliyevin Laçın rayonunda yerli əhali ilə görüşdə səsləndirdiyi fikirlər Azərbaycanın öz haqq davasındakı qətiyyətin və iradənin növbəti dəfə vurğulanması baxımından son dərəcə vacibdir. Dövlətimizin başçısının üzərində ətraflı dayandığı məqamlar xalqımız üçün əminlikdir. Əslində, əks tərəf də əmin olmalıdır. Əmin olmalıdır ki, sülhə gəlməyəcəyi təqdirdə, onsuz da labüd görünən acınacaqlı aqibət qaçılmaza çevriləcəkdir.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***



# Azərbaycan Prezidentinin Ərdoğana qələbə təbrikinə sözardı

## Türkiyə liderinin yeni Prezident kimi ilk səfəri yenə Azərbaycana olacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin yeni dövlət başçısıdır. Azərbaycan Prezidenti İlham Əliyev bu münasibətlə daim dost və qardaş bildiyi Türkiyə liderinə təbrik ünvanlayıb.**

Azərbaycanın dövlət başçısının təbriki, əlbəttə, ilkdir. O anlamda ki, cənab İlham Əliyev Türkiyə rəhbərini təbrik edən birinci dövlət başçısıdır. Amma burada özünəməxsusluq var. Ölkəmizin Prezidenti təbrik mesajını seçkilərin rəsmi nəticələri elan olunmazdan əvvəl çatdırıb.

Əvvəla, bu, bir inamdır. Nəzərə alaq ki, dövlətimizin başçısı cənab Ərdoğana qardaş ölkədəki seçkilərin mayın 14-də keçirilmiş birinci turunun rəsmi nəticələri elan olunmazdan əvvəl də zəng etmiş və ona prosesdə qazandığı səsçoxluğu münasibətilə təbrikini çatdırmışdı. Hesab edirik ki, Prezident İlham Əliyev elə o zaman da Türkiyə xalqının iradəsinin hazırkı dövlət başçısının seçimi üzərində qurulduğunu gözəl bilirdi. Mayın 14-dən 28-dək olan müddətdə də bu inam dəyişə bilməzdi.

Yeri gəlmişkən, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva da özünün instaqram hesabında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın seçkilərdə əldə etdiyi qələbəyə həssas münasibətini göstərməsilə yadda qalıb: “Cənab Rəcəb Tayyib Ərdoğanı və əziz bacım Əminə xanımı qələbə münasibətilə səmimi qəlbdən təbrik edirəm! Qoy xalqlarımızın qardaşlığı əbədi və sarsılmaz olsun! Bütün Türkiyə xalqına möhkəm cansağlığı, xoşbəxtlik və sülh arzu edirəm. Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!”

Cənab İlham Əliyevin təbrik zənginə gəlincə, orada vurğulanıb ki, bu qələbə Türkiyə xalqının Rəcəb Tayyib Ərdoğanın həyata keçirdiyi siyasətə göstərdiyi etimaddır. Dövlətimizin başçısı əmin olduğunu bildirib ki, qardaş ölkə Ərdoğanın rəhbərliyi ilə növbəti illərdə də hərtərəfli inkişafını davam etdirəcək. Türkiyə liderinin fəaliyyəti xalqın firavanlığı və tərəqqisi naminədir və ona yeni-yeni uğurlar arzulanması Azərbaycanın duasıdır. Əslində, bu dua Mehriban xanım Əliyevanın paylaşımının “Uca Allah Azərbaycanı və Türkiyəni qorusun!” nidasında da son dərəcə incə həssaslıq zirvəsinə qovuşub.

Bəli, ölkəmizin rəhbərinin təbrik zəngində ifadə etdiyi arzu Azərbaycan xalqının Ərdoğana ilk xeyir-duasıdır. Çünki xalqımız Ərdoğanı 44 günlük müharibə zamanı əsl Azərbaycan sevdalısı kimi görmüş və ona rəğbəti və sevgisi artmışdı. Diqqət yetirək, Türkiyə Prezidenti təbrikə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirərkən, ona Azərbaycanın Müstəqillik Günü münasibətilə təbriklərini bir daha çatdırmağı unutmayıb. Görünür, bu da taleyin bir qismətidir ki, Ərdoğanın qələbəsi ölkəmiz üçün əlamətdar sayılacaq gündə baş tutur. Axı, Türkiyə liderinin qələbəsi həm də qardaş ölkənin müstəqil siyasi iradəsinin davam məntiqidir.

Zamanında dahi Mustafa Kamal Atatürk də Azərbaycana böyük dəyəri ilə Vətənimizin müstəqilliyinin proqnozunu vermişdi. Nəzərə alaq ki, Atatürkdən sonra ölkəmizə, onun haqq davasına nəinki həssas yanaşan, bu davanı öz davası sayan ikinci türk lideri məhz Ərdoğandır.

Bəli, müstəqil Azərbaycan Türkiyə dövlətçiliyi üçün son dərəcə vacibdir. O dövlətçilik üçün ki, bütövlükdə türk dünyasını birləşdirməyi hədəf seçib. Bu birləşdirmədə vacib halqanı təşkil edən də elə Azərbaycanın özüdür. Ölkəmizin haqq davasında – 44 günlük müharibədə qazandığı tarixi Zəfər bu mənada son dərəcə müstəsna əhəmiyyət daşımaqdadır.

Zəfərimiz Zəngəzur dəhlizini türk dünyasının bütövləşmə faktoru kimi önə çəkməkdədir. Bu, elə bir reallıqdır ki, qarşısında dayanmaq mümkünsüzdür. Həm də ona görə ki, Ərdoğanlı Türkiyənin, İlham Əliyevli Azərbaycanın müştərək iradəsi nəticəsində bir millətin iki dövləti qlobal dünyanın regional güc mərkəzi rolunu oynamaqdadır. Bu mərkəzin canbir qütblərinin bir-birinə dəyəri həm rəmzi, həm də böyük siyasi əhəmiyyət daşımaqdadır.

Azərbaycan Prezidentinə təbrikə görə təşəkkürünü bildirən R.Ərdoğanın Türkiyənin yeni dövlət başçısı kimi səfər edəcəyi ilk ölkə də respublikamız olacaq. Əslində, cənab İlham Əliyev aprelin 29-da İstanbulda keçirilmiş “TEKNOFEST” aerokosmik və texnologiya festivalında iştirak edərkən də hazırkı səfər məntiqinin anonsunu vermiş və Ərdoğanı qarşıdakı seçkilərdə qələbə qazanıb Prezident kimi ilk səfərini Azərbaycana gerçəkləşdirməyə ruhlandırmışdı. Bu isə o deməkdir ki, dövlətimizin lideri hələ o zaman da həmkarının qələbəsinə inanmış, ən əsası isə inamını dərin dostluq və qardaşlıq notları üzərindən ifadə etmişdi. Buna görə cənab İlham Əliyevin 28 may tarixli dəvəti minnətdarlıqla qəbul edilib.

Türkiyə liderinin ilk səfər edəcəyi ölkənin Azərbaycan olaraq rəsmiləşməsi, həmçinin, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlikdir ki, mövcud məqam telefon danışığı zamanı da vurğulanıb.

***Ə.RÜSTƏMOV, “Xalq qəzeti”***

# İqtisadi artım qeyri-neft sektoru hesabına təmin olunur

## ÜDM-də bu sahənin payı 52,2 faizə yüksəlib

(əvvəli 1-ci səhifədə)

Belə ki, ötən il Azərbaycan iqtisadiyyatında artım 4,6 faiz olub. 2022-ci ildə neft və qaz qiymətlərində 2021-ci illə müqayisədə mühüm artım ÜDM-də neft-qaz və qeyri-neft-qaz sektorlarının xüsusi çəkisinin dəyişməsinə gətirib çıxarıb. Beləliklə, ÜDM-də neft-qaz sektorunun payı 47,8 faizədək artıb, qeyri-neft-qaz sektorunun payı isə 52,2 faiz olub.

Həmçinin qeyd edilib ki, iqtisadi artıma tamamilə qeyri-neft-qaz sektorunun hesabına nail olunub.

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin ilk rübündə də ölkədə 30 milyard 310,6 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,4 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,9 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 4,9 faiz artıb.

ÜDM istehsalının 47,5 faizi sənayeyeni payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,5 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM isə 2991,2 manata bərabər olub.

Bu müsbət göstəricilərin əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Cari ilin ilk rübündə ÜDM istehsalının 50 faizə yaxın hissəsinin sənayenin payına düşməsi isə ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının mövcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Məhz bunun nəticəsidir ki, İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında rezidentlərinin sayı 35-ə çatdırılıb. Hacıqabul Sənaye Məhəlləsində isə ümumi investisiya həcmi 51 milyon manatdan artıq olan 13 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb və onlardan 8-i fəaliyyətə başlayıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da bərpa prosesi indiyədək sənayeləşmə siyasəti ilə paralel aparılıb. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə 18 sənaye müəssisəsi qeydiyyata alınıb. Düşməndən təmizlənən ərazilərdə kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatının yaradılması nəzərdə tutulub.



Azərbaycan iqtisadiyyatında artımın qeyri-neft sektoru hesabına təmin olunması xarici ticarət dövriyyəsinin artmasına da əsaslı təsir göstərir. İqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının yüksəldilməsi istiqamətində tədbirlər nəticəsində 2022-ci ildə qeyri-neft məhsullarının ixracının 12,3 faiz artaraq 3 milyard dollardan çox təşkil etməsi məhz bunun bariz ifadəsidir.

**_Vaqif BAYRAMOV,_**
**_"Xalq qəzeti"_**

### Ekspert rəyi



**Hüseynqulu QULİYEV,**
**iqtisadçı-ekspert**

Azərbaycan iqtisadiyyatının inkişaf dinamikasında müsbət meyillər getdikcə artır. Ötən il ümumi daxili məhsul (ÜDM) 4,6 faiz artaraq 133,8 milyard manat, qeyri-neft-qaz sektorunda isə 9,1 faiz artaraq 69,8 milyard manat təşkil edib. ÜDM-in tərkibində qeyri-neft-qaz sektoru üzrə bir sıra sahələrdə əhəmiyyətli artım qeydə alınıb. Hesabat dövründə dövlət büdcəsinə vergi daxilolmaları 82 faiz artıb və 15,5 milyard manat təşkil edib. Bu, müstəqilliyimiz dövründə olan mütləq rekord məbləğdir.

Hökumət tərəfindən müəyyənləşdirilən bir sıra fiskal imtiyazlar və güzəştlər fonunda belə nəticələrin əldə edilməsi müsbət bir haldır. Ən sevindirici hal isə ondan ibarətdir ki, ödənilən vergilərin, xüsusilə qeyri-neft sektorunda 80 faizdən çoxu özəl sektorun payına düşür.

Bu rəqəmlər iqtisadi sferada qazanılan uğurların miqyasını və əhatəsini əyani şəkildə göstərir. Lakin hazırda mürəkkəb və volatil mühitdə yaşayırıq. Buna baxmayaraq, ortamüddətli perspektivdə Azərbaycanda iqtisadi artımın 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası üzrə təmin edilməsini hədəfləyirik.

Davamlı artım drayverlərinin fəallaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi, işğaldan azad edilmiş ərazilərimizin ölkə iqtisadiyyatına sürətlə reinteqrasiyası rəqabətqabiliyyətli iqtisadi artımı şərtləndirəcək. Bu prosesdə rəqəmsal ekosistemin, sahibkarlıq mühitinin, insan kapitalının inkişafı kimi məsələlər də diqqət mərkəzində olmalıdır. O cümlədən dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi, yeni alətlərin tətbiqi sahibkarlığın inkişafına yeni töhfələr verəcək. Sənaye zonalarının rezidentlərinin sayının artması, biznesin güzəştli maliyyə resurslarına çıxışının genişləndirilməsi, yeni fiskal güzəştlər, ixrac və investisiyaların təşviqi üçün imtiyazlar və digər məsələlər bu baxımdan xüsusilə qeyd edilməlidir.

# İnterkonnektorun tikintisinə yekun ödəniş ayrılıb

**Yunanıstan–Bolqarıstan İnterkonnektorunun (IGB) operatoru olan ICGB İnnovasiya və Rəqabətlilik (OPIC) proqramı çərçivəsində infrastrukturun tikintisi üzrə yekun ödənişi alıb.**




OPIC çərçivəsində ayrılan ümumi qrantın həcmi 39 milyon avro təşkil edir. İşlərin keyfiyyətlə və uğurla başa çatdırılmasını təmin etmək üçün hər mərhələdə audit aparıldıqdan sonra vəsaitlər boru kəməri operatoruna transşlarla ödənilir.

Qeyd edək ki, Yunanıstan-Bolqarıstan interkonnektoru 1 oktyabr 2022-ci il tarixindən kommersiya tədarükünə başlayıb.

Hazırkı istilik mövsümünün əvvəlindən IGB Bolqarıstanda təbii qaz ehtiyacının təqribən üçdə birini təmin etməkdədir. Bolqarıstana təbii qaz nəqlinin diversifikasiyalaşdırılması üçün ilk marşrut olan IGB tədarükün daha yüksək təhlükəsizliyinə və mənbələrin müxtəlifliyinə zəmanət verməklə təbii qaz bazarında rəqabətə mühüm töhfə verir ki, bu da ölkədəki müəssisələr və daxili istehlakçılar üçün qiymətlərin optimallaşdırılmasında vacib şərtdir.

Azərbaycanla saziş üzrə layihənin əsasını 1 milyard kubmetr tədarük təşkil etdiyi halda, IGB digər yükgöndərənlər tərəfindən rezerv edilmiş uzunmüddətli imkanlara da malikdir. Bunların əksəriyyəti Bolqarıstan bazarı üçün tamamilə yenidir. Yunanıstan-Bolqarıstan interkonnektoru 2024-cü ildə bir neçə qaz mənbəyinə çıxış əldə edəcək.

# Ticarət əməliyyatları sürətlə rəqəmsallaşır

**Azərbaycanda ticarət əməliyyatlarının sürətlə rəqəmsallaşması özü ilə yeni tendensiyalar və imkanlar gətirir. Rəqəmsallaşmadan ən çox təsirlənən sektorlardan biri də elektron ticarət sahəsidir.**



İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) operatoru olduğu "Azexport.az" portalının rəhbəri Ayxan Qədəşovun sözlərinə görə, ötən il ölkədə elektron ticarət vasitəsilə aparılan əməliyyatların sayı 2021-ci il ilə müqayisədə 2,4 dəfə, həcmi isə 2,5 dəfə artıb: "Həmçinin 2022-ci ildə internet bankçılıq xidmətləri vasitəsilə həyata keçirilən əməliyyatların həcmi 2021-ci illə müqayisədə 50 faiz artıb. Vətəndaşların onlayn mağazalar və rəqəmsal ödəniş sistemlərinə olan marağı yeni biznes imkanlarının formalaşmasına da şərait yaradıb. Rəqəmsal platformaların yaranması xidmət sektorunda ciddi dəyişikliklərə yol açıb. Buna misal olaraq qida çatdırılması, onlayn taksi sifarişi və ya beynəlxalq poçt daşıma xidməti kimi yeni bizneslərin daha da artmasını vurğulaya bilərik".

O vurğulayıb ki, müasir texnologiyalar istehlakçılar üçün rahatlıq və əlçatanlıq, eləcə də sahibkarlar üçün yeni imkanlar təmin edir. Bunu statistik məlumatlar da təsdiqləyir. Belə ki, 2022-ci ildə ölkə daxilində ödəniş kartları ilə aparılan nağdsız ödənişlər 2021-ci illə müqayisədə 11,4 faiz artaraq 43,2 faizə bərabər olub. Rəqəmsallaşma marketinq sahəsinə də təsirsiz ötüşməyib. Şirkətlər məhsul və xidmətlərini tanıtmaq üçün onlayn reklam, sosial media kimi rəqəmsal marketinq strategiyalarını getdikcə daha çox istifadə edirlər. Bu, onlara daha geniş auditoriyaya çatmağa və marketinq strategiyasının effektivliyini artırmağa imkan verir.

Beləliklə, rəqəmsallaşma Azərbaycanın maliyyə sektoruna da yeni imkanlar gətirib. Belə ki, ödəniş sistemləri və ya investisiyaların yatırılması kimi rəqəmsal maliyyə xidmətləri təklif edən "fintech" startaplarının sayında da artım müşahidə olunur.

**_"Xalq qəzeti"_**

# Bu il də aqrar sahədən bol məhsul gözlənilir

## *Son 20 ildə kənd təsərrüfatı istehsalı 2 dəfə artıb*

**Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması, daxili bazarın mühüm növ kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, eləcə də ölkənin ixrac potensialının artırılması məqsədilə mühüm tədbirlər həyata keçirilir. Bu da öz növbəsində kənd təsərrüfatının ümumi məhsulunun artmasına səbəb olur. Təkcə onu qeyd etmək kifayətdir ki, son 20 ilə yaxın bir dövr ərzində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı iki dəfəyə yaxın artıb.**

Ölkədə məhsul bolluğuna nail olunması yazlıq bitkilərin aqrotexniki qaydada aparılmasından çox asılıdır. Bu məqsədlə ilin əvvəlindən başlayaraq ölkə üzrə dənli və dənli paxlalı bitkilərin, dən üçün günəbaxan, pambıq, şəkər çuğunduru, tütün, kartofun, eləcə də tərəvəz və bostan bitkilərinin əkin sahələri genişləndirilib. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2023-cü ilin yanvar-aprel aylarında ölkə üzrə cari ilin məhsulu üçün 266 min 789,3 hektar sahədə yazlıq səpin aparılıb.

Cari ilin yanvar-aprel aylarında ölkə üzrə 21 min 687, 2 hektar sahədə qarğıdalı əkilib ki, bu da əvvəlki ilin müvafiq dövrünə nisbətən 713,3 hektar çoxdur. İlin ötən 4 ayı ərzində dənli və dənli paxlalı bitkilərdən sayılan buğda və vələmirin əkinində nisbətən azalma baş versə də, çəltik əkinində əhəmiyyətli artım qeydə alınıb. Belə ki, hesabat dövründə çəltikçiliklə məşğul olan təsərrüfat sahibləri 311 hektarda sahədə əkin aparıblar ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 110 hektar və ya 54,7 faiz çoxdur. Bu isə son illər ölkədə qədim əkin növünə marağın getdikcə artması ilə izah olunmalıdır. Bundan əlavə, ilin ötən 4 ayında ölkə üzrə 4314,5 hektar şəkər çuğunduru, 72 min 181 hektar pambıq, 1242,6 hektar tütün, 45 min 907,7 hektar kartof, 42 min 943 hektar tərəvəz, 10 min 788,5 hektar bostan bitkiləri əkilib.

Yazlıq bitkilərin bölgələr üzrə əkininə gəldikdə isə, bu sahədə ən böyük artım Şəki-Zaqatala iqtisadi rayonunda qeydə alınıb. Belə ki, yanvar-aprel aylarında adıçəkilən iqtisadi rayon üzrə 27 min 504,3 hektar sahədə əkin aparılıb ki, bu da əvvəlki ilin ilk dörd ayı ilə müqayisədə 3434,2 hektar və ya 14,3 faiz artım deməkdir. Hesabat dövründə Quba-Xaçmaz və Lənkəran-Astara iqtisadi rayonlarında da yazlıq bitkilərin əkinində artım baş verib.

Yanvar-aprel aylarında dənli və dənli paxlalı bitkilərin əkini üzrə ən yüksək artım Qarabağ iqtisadi rayonunda qeydə alınıb. Belə ki, hesabat dövründə adıçəkilən iqtisadi rayon üzrə 1520 hektar ərazidə əkin aparılıb ki, bu da 2022-ci ilin eyni dövründəkindən 152 dəfə çoxdur. Bununla yanaşı, ilin 4 ayı ərzində Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında, habelə Naxçıvan Muxtar Respublikasında da dənli və dənli paxlalı bitkilərin əkinində artım müşahidə olunub. Eyni zamanda, hesabat dövründə Şəki-Zaqatala, Şərqi-Zəngəzur, Mil-Muğan, Gəncə-Daşkəsən və Lənkəran-Astara iqtisadi rayonları üzrə qarğıdalı əkinində əhəmiyyətli artım baş verib.

Dən üçün günəbaxan əkininə gəldikdə isə, ilin ötən dövründə ölkə üzrə bu sahədə müəyyən azalma müşahidə olunub. Bununla belə, Şərqi Zəngəzur, Mil-Muğan, Mərkəzi Aran və Qazax-Tovuz iqtisadi rayonlarında əkin sahələri əvvəlki ilin eyni dövrü ilə müqayisədə xeyli artırılıb.



2023-cü ilin yanvar-aprel aylarında ölkədə şəkər çuğundurunun əkinində 2,8 faiz artım baş verib. Göstərilən dövrdə bu sahədə ən yüksək artım Şəki-Zaqatala (2,6 dəfə) iqtisadi rayonunda qeydə alınıb. Bununla yanaşı, ilin ilk 4 ayında Dağlıq Şirvan, Gəncə-Daşkəsən və Qazax-Tovuz iqtisadi rayonlarında da şəkər çuğundurunun əkinində artım dinamikası yüksək olub.

Bu ilin ötən dövründə Azərbaycanda tütün əkinində də əhəmiyyətli artım qeydə alınıb. Tütün əkini sahəsində ən yüksək artım isə Şəki-Zaqatala iqtisadi rayonunda baş verib. Belə ki, hesabat dövründə adıçəkilən iqtisadi rayon üzrə 1193,6 hektar sahədə tütün əkilib ki, bu da əvvəlki ilin ilk 4 ayı ilə müqayisədə 446,2 hektar və ya 59,7 faiz çoxdur.

Cari ilin yanvar-aprel aylarında ölkə üzrə kartof, tərəvəz və bostan bitkilərinin əkinində azalma müşahidə olunsa da, Abşeron-Xızı, Qarabağ, Qazax-Tovuz, Lənkəran-Astara, Dağlıq Şirvan və Şirvan-Salyan iqtisadi rayonlarında əkin sahələri xeyli genişləndirilib.

Göründüyü kimi, ölkə əhalisinin yarısından çoxunun yaşadığı regionlarda sosial-iqtisadi inkişafa dair dövlət proqramları çərçivəsində həyata keçirilən tədbirlərin nəticəsi olaraq bölgələrdə aqrar sahə ilə məşğul olan fermerlərə hərtərəfli yardımlar edilir. Ötən 20 ilə yaxın müddətdə reallaşdırılan dövlət proqramları aqrar sektorda böyük canlanmaya səbəb olub. Bütövlükdə isə, son illər ölkə üzrə kənd təsərrüfatının inkişafına göstərilən dövlət qayğısının nəticəsi olaraq bölgələrdə aqrar sahə ilə məşğul olan fermerlərə hərtərəfli yardımlar edilir. Fermerlərin torpaq vergisi istisna olmaqla digər vergilərdən azad edilməsi, onlara subsidiyaların ayrılması, pambıqçılıq, tütünçülük, baramaçılıq kimi əmək tutumu və gəlir imkanları böyük olan sahələrin inkişafının təşviq edilməsi, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə texnika və gübrə satışı bu qəbildən olan tədbirlərdəndir. Mühüm növ kənd təsərrüfatı məhsullarının istehsalı üçün verilən subsidiyalar, bir sıra vergi güzəştləri, fermerlərin texnikaya, məşin və mexanizmlərə əlçatanlığının təmin edilməsi isə əkin sahələrinin genişləndirilməsi üçün yaxşı imkanlar yaradır.

Bütövlükdə isə, dövlətin aqrar sahəyə göstərdiyi diqqət və qayğı onu deməyə əsas verir ki, bu rəqəm ildən-ilə daha da yüksələcək. Yeri gəlmişkən, Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur.

...Bir qədər əvvəl ölkədə bəzi mövsümi kənd təsərrüfatı məhsullarının yığımına başlanılıb. Bunun nəticəsidir ki, hazırda dükan-bazarlarda kənd və tərəvəz məhsullarının bolluğu müşahidə olunur. Yaxın vaxtlarda digər kənd təsərrüfatı məhsullarının, o cümlədən dənli və dənli paxlaların da yığımına başlanılacaq. Mövsüm ərzində havaların nisbətən yağmurlu keçməsi sahələrdə bol məhsulun yetişməsinə səbəb olub. Bu isə həm fermerlər, həm də alıcılar üçün müsbət haldır.

**_Mirbağır YAQUBZADƏ,_**
**_"Xalq qəzeti"_**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 164** **Bakı şəhəri, 25 may 2023-cü il**

***İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi haqqında***

“Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2006-cı il 8 dekabr tarixli 194-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 dekabr tarixli 489 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

İş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2023-cü ilin 27 və 30 iyun iş günləri ilə müvafiq olaraq 24 və 25 iyun istirahət günlərinin yerləri dəyişdirilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 165** **Bakı şəhəri, 25 may 2023-cü il**

***“Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları”nın təsdiq edilməsi və “Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və onlara ixtisas dərəcəsinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 93 nömrəli Qərarının ləğv edilməsi barədə***

“Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və ixtisas dərəcəsinin verilməsi qaydaları” təsdiq edilsin (əlavə olunur).

2. “Məhkəmə ekspertlərinin attestasiyasının keçirilməsi və onlara ixtisas dərəcəsinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 2 may tarixli 93 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 467) ləğv edilsin.

**3.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 166** **Bakı şəhəri, 25 may 2023-cü il**

***“Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası”nın təsdiq edilməsi haqqında***

“Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 29 noyabr tarixli 1709-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 dekabr tarixli 883 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi qaydası” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 168** **Bakı şəhəri, 26 may 2023-cü il**

***“Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 may tarixli 220 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 1128, № 11, maddə 2446; 2020, № 9, maddə 1222; 2021, № 8, maddə 972; 2022, № 6, maddə 677) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin Nizamnaməsi”nin 5.3-cü bəndinin ikinci cümləsində “3 (üç)” sözləri “5 (beş)” sözləri ilə, “iki” sözü “dörd” sözü ilə əvəz edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Qida Təhlükəsizliyi İnstitutu publik hüquqi şəxsin strukturu”nun 1-ci hissəsində “və şöbələr” sözləri “, şöbələr və sektorlar” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 169** **Bakı şəhəri, 26 may 2023-cü il**

***“Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 186 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 16-cı hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin kollegiyasının tərkibi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 11 may tarixli 186 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 5, maddə 946; 2017, № 8, maddə 1607; 2018, № 11, maddə 2422) 1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin kollegiya üzvlərinin sayı 11 (on bir) nəfərdən ibarət müəyyənləşdirilsin və aşağıdakı tərkibdə təsdiq edilsin:

**Kollegiyanın sədri**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri

**Kollegiyanın üzvləri:**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi sədrinin müavinləri

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının rəhbəri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Milli hesablar və makroiqtisadi göstəricilər statistikası şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi Aparatının Sosial statistika şöbəsinin müdiri

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzinin direktoru.”.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 170** **Bakı şəhəri, 26 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli və “İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən Qeyri-Hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 29 dekabr tarixli 573 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respub-likasının 2022-ci il 2 dekabr tarixli 670-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155; 2019, № 3, maddələr 528, 534, 544, 563, 566, 568, № 4, maddə 753, № 5, maddələr 935, 945, 971, № 7, maddə 1325, № 8, maddə 1475, № 10, maddə 1677, № 11, maddə 1878, № 12, maddələr 2091, 2095; 2020, № 3, maddə 344, № 4, maddə 479, № 5, maddə 643, № 6, maddə 784, № 8, maddə 1134, № 9, maddə 1222, № 10, maddə 1273, № 11, maddələr 1403, 1408, № 12 (V kitab), maddələr 1589, 1597; 2021, № 2, maddə 203, № 3, maddələr 278, 288, 293, 300, 302, № 4, maddələr 395, 399, 404, 416, 417, 418, № 6 (IV kitab), maddə 695, № 7, maddələr 871, 874, № 8, maddələr 966, 973, № 9, maddə 1064, № 10, maddələr 1181, 1187, 1192, № 11, maddələr 1256, 1274, 1280, 1283; 2022, № 1, maddələr 53, 70, № 4, maddələr 377, 388, 398, 415, № 5, maddə 577, № 7, maddə 811, № 8, maddə 1026, № 9, maddələr 1085, 1101, № 10, maddə 1210, № 12, maddə 1552; 2023, № 2, maddə 320; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 15 aprel tarixli 117 nömrəli Qərarı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə”nin “242100. “Mərkəzi dövlət idarəetmə orqanları üzrə ödənişlər” paraqrafında “istiqraz vərəqələri” sözləri “istiqrazlar” sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 29 dekabr tarixli 573 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2763; 2021, № 3, maddə 278) ilə təsdiq edilmiş “İctimai Sektor üçün Mühasibat Uçotunun Beynəlxalq Standartlarının ümumi prinsiplərinə əsasən Qeyri-Hökumət təşkilatları tərəfindən mühasibat uçotunun aparılması Qaydaları”nın 20.6-cı bəndinin ikinci cümləsində “istiqraz vərəqələri” sözləri “istiqrazlar” sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 167** **Bakı şəhəri, 25 may 2023-cü il**

***“Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respub-likasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli Fərmanının 4.4-cü və “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlərin tənzimlənməsi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” 2009-cu il 24 iyun tarixli 116 nömrəli, “Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin fəaliyyətinin təmin edilməsi və “Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 28 dekabr tarixli 504 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2014-cü il 20 fevral tarixli 111 nömrəli, “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 116 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2015-ci il 4 may tarixli 516 nömrəli, “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri və “Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye Nazirliyi yanında Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 dekabr tarixli 203 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” 2016-cı il 28 aprel tarixli 888 nömrəli və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin funksiyalarının və strukturunun genişləndirilməsi haqqında” 2019-cu il 23 oktyabr tarixli 845 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə” 2021-ci il 26 iyun tarixli 1382 nömrəli Fərmanının 11.2-ci bəndlərinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 iyul tarixli 120 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 747; 2012, № 8, maddələr 827, 830; 2013, № 3, maddə 347, № 7, maddə 886, № 8, maddə 1017, № 10, maddə 1218; 2014, № 1, maddələr 51, 69, № 2, maddə 201, №4,maddə441,№5,maddələr572,594, № 6, maddə 747, № 8, maddə 1015, № 12, maddələr 1658, 1666; 2015, № 2, maddə 227, № 11, maddə 1417; 2016, № 3, maddə 609, № 4, maddə 831, № 5, maddə 955, № 7, maddə 1353, № 8, maddə 1437, № 9, maddələr 1585, 1589, № 12, maddə 2241; 2017, № 5, maddə 966, № 10, maddələr 1890, 1919, № 11, maddə 2168, № 12 (II kitab), maddələr 2476, 2487, 2507; 2018, № 3, maddələr 588, 632, № 6, maddə 1374, № 7 (II kitab), maddə 1668, № 8, maddə 1807, № 9, maddə 1906, № 10, maddələr 2142, 2172, № 11, maddə 2426; 2019, № 3, maddələr 529, 563; 2020, № 2, maddə 204, № 4, maddə 500, № 5, maddə 652, № 8, maddə 1123, № 9, maddə 1217, № 10, maddələr 1258, 1296, № 11, maddə 1405, № 12 (V kitab), maddə 1616; 2021, № 2, maddə 203, № 3, maddələr 265, 276, № 4, maddə 420, № 6 (IV kitab), maddə 682; 2022, № 1, maddə 59, № 3, maddə 277, № 4, maddələr 387, 411, № 5, maddə 544, № 6, maddə 683, № 7, maddə 811, № 9, maddələr 1083, 1109, № 11, maddə 1356, № 12, maddələr 1552, 1560) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - “Azərbaycan Respublikasının mərkəzi icra hakimiyyəti və məhkəmə orqanlarının aparatları (hərbi qurumlar, dövlət təhlükəsizliyi, xarici kəşfiyyat xidmətləri, hüquq mühafizə və prokurorluq orqanları, rayon (şəhər) məhkəmələri istisna olmaqla), mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, onların yanında, tabeliyində olan orqanlar, mərkəzi icra hakimiyyəti orqanlarının yanında yaradılan dövlət agentlikləri-nin, dövlət xidmətlərinin aparatları və onların yerli bölmələri üçün xidməti minik avtomobillərinin say həddi (limiti)”-nin cədvəlində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7-ci hissənin “cəmi” sütununda “22” rəqəmləri “27” rəqəmləri ilə, “aparat üzrə” sütununda “14” rəqəmləri “19” rəqəmləri ilə əvəz edilsin.

**2.** 22-ci hissənin “Orqanın adı” sütununda “Əmlak Məsələləri Dövlət Komitəsi” sözləri “İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti” sözləri ilə, “cəmi” sütununda “25” rəqəmləri “24” rəqəmləri ilə əvəz edilsin və “yanında olan orqanlar üzrə” sütunundan “1” rəqəmi çıxarılsın.

**3.** 31-ci, 31-1-ci və 31-2-ci hissələr ləğv edilsin.

4. 35-ci hissənin “Orqanın adı” sütununda “Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti” sözləri “Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti” sözləri ilə, “cəmi” sütununda “15” rəqəmləri “21” rəqəmləri ilə, “ərazi və yerli bölmələr üzrə” sütununda “8” rəqəmi “14” rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# 2023-cü ildə büdcənin gəlirləri 43 milyard manata yaxın olacaq

## Bu, ötən ildəkindən 30 faiz çoxdur

**Yenidən baxılmış 2023-cü il icmal büdcənin gəlirləri 42 milyard 949,1 milyon manat proqnozlaşdırılıb. Bu da təsdiq olunmuş göstəriciyə nisbətən 9 milyard 923,4 milyon manat və ya 30 faiz çoxdur.**



Bu, Maliyyə Nazirliyinin 2023-cü ilin dövlət və icmal büdcələrinə dəyişikliklərin edilməsi ilə bağlı məlumatında yer alıb. Məlumata əsasən, icmal büdcənin xərcləri isə 41 milyard 213,9 milyon manat proqnozlaşdırılıb ki, bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 244,5 milyon manat və ya 8,5 faiz, 2022-ci ilin icra göstəricisinə nisbətən isə 6 milyard 140,3 milyon manat və ya 17,5 faiz çoxdur.

Qeyd edilib ki, icmal büdcə 4 milyard 943,6 milyon manat kəsirlə proqnozlaşdırılsa da, 6 milyard 678,9 milyon manat əlavə gəlirləri hesabına 1 milyard 735,3 milyon manat profisit yaranacaq.

***“Xalq qəzeti”***

# Qarabağ və Şərqi Zəngəzurun bərpasına əlavə vəsait ayrılır

**Ölkəmizin maliyyə gücünün artması işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri üçün daha çox vəsait ayırmağa imkan yaradır. Qarabağ və Şərqi Zəngəzurda həyatın əvvəlki məcrasına qaytarılması üçün dövlət büdcəsindən əlavə vəsaitin ayrılması da bunu sübut edir.**

Maliyyə Nazirliyinin məlumatına görə, Azərbaycan Respublikasının işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazilərində həyata keçirilən tikinti, bərpa və yenidənqurma işlərinin sürətləndirilməsi ilə bağlı xərclərin artırılması məqsədilə daha 2 milyard 260 milyon manat əlavə vəsait ayrılıb. Bununla da, 2023-cü il üçün işğaldan azad olunmuş ərazilərin bərpası üçün ayrılmış vəsaitin həcmi 5 milyard 260 milyon manata çatdırılıb.

***“Xalq qəzeti”***

# Böyük Qayıdışın Kəlbəcər və Laçın addımları

*(əvvəli 1-ci səhifədə)*

Bu, Prezident İlham Əliyevin mayın 27-də Kəlbəcər rayonuna səfəri zamanı da müşahidə olunub. Belə ki, Yanşaq və Zallar kəndlərinin, Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin və məktəb binasının təməlinin qoyulması, "Qamışlı" və "Meydan" kiçik su elektrik stansiyalarının, hərbi hospitalın istifadəyə verilməsi, Toğanalı-Kəlbəcər-İstisu və Kəl-



bəcər-Laçın avtomobil yolunda görülən işlərin nəzərdən keçirilməsi, işğaldan azad edilən digər yaşayış sahələri kimi, bu rayonun da bərpasının diqqət mərkəzində saxlanılmasının təsdiqinə çevrilib.

Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşü zamanı bu məsələ – Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı geniş bəhs edib. Dövlətimizin başçısı nitqində adıçəkilən şəhərin simasının dəyişməsinin iqtisadiyyatımızın dinamik inkişafından xəbər verdiyini, müstəqilliyimizin nə qədər güclü olmasının bir daha göstərdiyini vurğulayıb. Ölkə rəhbəri deyib: "Cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sakinlərin sərəncamına verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşib və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaq".

Bütün bunlar Laçın şəhərinin Baş planında da öz ifadəsini tapıb. Prezident İlham Əliyevə təqdim olunan həmin Baş planda nəzərdə tutulan tədbirlər və plana əsasən görülən işlər barədə məlumat verilib. Bildirilib ki, Baş plan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Bakı Dövlət Layihə İnstitutu tərəfindən beynəlxalq məsləhətçi şəhərsalma qrupu–İsveçrənin "SA Partners" şirkətinin iştirakı ilə hazırlanıb.

Şirkətin həmtəsisçisi və tərəfdaşı Dunya Kovari-Binggeli bildirib ki, Laçının özünəməxsus füsunkar təbiəti və rəngarəng landşaftı şəhərin turizm məkanı kimi inkişaf etdirilməsinə, fəal rekreasiya, idman, açıq hava istifadəsi və sağlam həyat imkanları olan cəlbedici regional mərkəzə çevrilməsinə şərait yaradacaq. Beynəlxalq hava limanının yaxınlığında, beynəlxalq və respublika əhəmiyyətli bir sıra avtomobil yollarının kəsişməsində yerləşdiyi üçün şəhər regiona giriş qapısı funksiyasını daşımaqla çoxşaxəli inkişaf istiqamətlərinə malik olacaq. Laçın şəhərinin mövcud planlaşdırma strukturunun saxlanılması və bərpası, o cümlədən yeni yaşayış ərazilərinin inkişaf etdirilməsi əsas hədəf götürülməklə zonalaşdırılıb. Növbəti 20 il ərzində şəhər ərazisinin genişlənərək 713 hektara, əhali sayının isə 18 min nəfərə çatacağı proqnozlaşdırılıb.

Baş planın konseptual əsasını "Təbiətlə vəhdətdə olan şəhər" yanaşması təşkil edir. Buraya urbanizasiya mərkəzinin xüsusiyyətlərinin formalaşdırılması, iqtisadi şaxələndirmənin təmin edilməsi, ekoloji həssas ərazilərin mühafizəsi, yaşıl enerji mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə, həmçinin şəhər xidmətlərinə piyada əlçatanlığının artırılması daxildir. Plana əsasən, Laçın şəhəri "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən davamlı və innovativ mərkəzə çeviriləcək.

Baş plan layihəsində təbii yaşıllıqlarla əhatələnmiş şəhərin tarixən mövcud olmuş təxminən 258 hektar məskunlaşma ərazisində həyətyanı sahəsi olan fərdi evlərə üstünlük verilib. Bununla yanaşı, çoxfunksiyalı zonalarda və digər yaşayış ərazilərində çoxmənzilli binaların tikilməsi təklif edilir. Şəhərdə xəstəxana, İşğal və Zəfər muzeylərinin yerləşəcəyi Memorial Park, məktəbəqədər və tam orta təhsil müəssisələri, peşə məktəbi, həmçinin mədəniyyət və turizm obyektləri də yaradılacaq. Planlaşdırmada tətbiq edilmiş "15 dəqiqəlik şəhər" prinsipi isə yaşayış məhəllələrinin, gündəlik tələbat obyektlərinin yaxın məsafədə olmasını və aşağı sürətli yol infrastrukturunun təşkilini nəzərdə tutaraq sakinlərin və qonaqların şəhər daxilində rahat hərəkətini təmin edəcək.

Əhalinin məşğulluğunun təşkili rayonun tarixi ənənələrinə əsaslanır. Belə ki, yaxın gələcəkdə burada ekoloji və səmərəli kənd təsərrüfatı, tikinti, yüngül və qida sənayesi, balıqçılıq, tingçilik və digər sosial xidmət sahələrinin inkişafı nəzərdə tutulur.

Xatırladaq ki, ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq yerli ənənələrə, müasir yanaşmalara əsaslanan və Laçın şəhərinin özünəməxsus simasının formalaşdırılmasında istifadə ediləcək memarlıq layihələri həyata keçiriləcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Laçın rayonuna səfəri zamanı bir sıra obyektlərin açılışında və təməlqoyma mərasimində iştirak edib. Dövlətimizin başçısına "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətinin "Laçın" şəhər və "Qorçu" yarımstansiyalarının açılışı zamanı bu stansiyalarda görülən işlər barədə məlumat verilib. Laçın rayonunun Azərbaycanın ümumi enerji sisteminə qoşulması, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi üçün rayonun Qorçu kəndində 2021-ci ildə istismara verilən "Kəlbəcər" yarımstansiyasından 42 kilometr məsafədə ikidövrəli olmaqla 110 kilovoltluq yüksəkgərginlikli ötürmə xətti çəkildiyi bildirilib. Bəzi yerlərdə 2200 metr yüksəklikdən, dağlıq, sıldırım qayalıq, çaylaq, sıx meşəlik və ən əsası yolsuzluq şəraitində çəkilən ötürmə xətti boyunca hər birinin çəkisi orta hesabla 10 ton, hündürlüyü 40 metr olan 250-yə qədər anker və aralıq dayaq basdırılıb. 110 kilovoltluq xəttin üzərindəki ildırımötürücü funksiyalı fiberoptik kabellə internet xətti çəkilib. Bu da enerjisistemin idarə olunmasında siqnalların etibarlı şəkildə ötürülməsini şərtləndirib.

Səfər çərçivəsində, eyni zamanda, Qorçu qəsəbəsinin təməlqoyma mərasimi keçirilib. Burada ölkə rəhbərinə görüləcək işlər barədə məlumat verilərək Laçın rayonunun şimal-qərbində dağlıq ərazidə, Şəlvə çayının sol qolu olan Qorçu çayının sahilində yerləşən eyniadlı qəsəbə rayon mərkəzindən 64 kilometr, Bakı şəhərindən isə 475 kilometr məsafədə olduğu bildirilib.

Prezident İlham Əliyev Laçına səfəri çərçivəsində Şəlvə kəndinin təməlqoyma mərasimində də iştirak edib. Burada dövlətimizin başçısına Şəlvə kəndi barədə də məlumat verilərək bildirilib ki, rayonun şimalında, Şəlvə çayının sahilində, dəniz səviyyəsindən 1540 metr yüksəklikdə yerləşən Şəlvə kəndindən Laçın şəhərinə qədər məsafə 55 kilometrdir. Yenidən qurulacaq yaşayış məntəqəsinin tərkibinə yaxınlıqda yerləşən İmanlar kəndi də daxil ediləcək.

Yeri gəlmişkən, Prezident İlham Əliyev Laçın şəhərində Aqro və Sənaye Parkında görülən işlərlə də tanış olub. Burada istehsalat, xidmət və tədris müəssisələrinin yaradılması, məşğulluğun artırılması istiqamətində işlər davam etdirilir. Burada əhalinin məşğulluğunun təmin edilməsi üçün yaradılacaq müəssisələrdə 1169 nəfər işlə təmin olunacaq. Müəssisələr qida, sənaye, yaradıcılıq, tekstil, tədris, turizm və xidmət sahələrində fəaliyyət göstərəcək. Hazırda fəaliyyət göstərən 7 müəssisədə 226 Laçın sakini işlə təmin edilib.

Bu gün Laçın Azərbaycan dövlətinin və xalqının quruculuq əzminin daha bir nümunəsinə çevrilir. Mübaliğəsiz demək olar ki, şəhər əsl tikinti meydançasını xatırladır. İşğaldan azad olunduqdan dərhal sonra Prezident İlham Əliyevin göstərişi ilə bütün Qarabağ və Şərqi Zəngəzur kimi, Laçında da nəhəng bərpa və yenidənqurma işlərinə başlanılıb. Baş plana əsasən, şəhərdə ümumilikdə 700 bina bərpa edilir. Onlardan 620-si fərdi ev, 9-u çoxmənzilli yaşayış binasıdır. Eyni zamanda, 71 inzibati bina yenidən qurulur.

**V. BİNYATOĞLU, "Xalq qəzeti"**

# Milli Məclisin plenar iclasında

## *28 qanun layihəsi müzakirə edildi*

**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasında növbəti plenar iclas keçirildi. Parlamentin rəhbəri çıxışına mayın 28 -də qardaş Türkiyədə keçirilmiş prezident seçkilərinin II turunun yekunları barədə məlumatla başlayaraq, dedi ki, Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda türk dünyasının böyük siyasi və dövlət xadimi Rəcəb Tayyib Ərdoğan inamlı qələbə qazanmışdır. Əsl demokratiya şəraitində əldə edilmiş bu qələbə Azərbaycan xalqını qəlbən sevindirmişdir. O, əminliklə bildirdi ki, hörmətli Prezident Ərdoğanın rəhbərliyi ilə qardaş Türkiyənin dinamik inkişafı qarşıdakı dövrdə yeni vüsət alacaq, Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının yeni uğurlu nəticələrinə şahidlik edəcəyik.**



S.Qafarova Milli Məclis Sədrinin rəhbərliyi ilə parlament nümayəndə heyətinin mayın 24-dən 26-dək Serbiya Respublikasına ilk rəsmi səfəri barədə də məlumat verdi. O qeyd etdi ki, səfər zamanı Serbiya Respublikasının Prezidenti Aleksandr Vuçiç, Baş nazir Ana Brnabiç, Milli Assambleyanın Sədri Vladimir Orliç ilə görüşlər keçirilmişdir. Serbiya Milli Assambleyasının Sədri ilə görüşdə Azərbaycan və Serbiya parlamentləri arasında əməkdaşlıq haqqında anlaşma memorandumu imzalanmışdır.

Sonra cari məsələlərin müzakirəsi başlandı. Deputatlar qardaş ölkədə keçirilən prezident seçkilərinin ikinci turunda Rəcəb Tayyib Ərdoğanın qələbəsini Türk dünyasının uğuru kimi dəyərləndirdilər.

Deputatlar Prezident İlham Əliyevin Laçına səfərindən və dövlət başçımızın buradan çox ciddi mesajlar verməsindən də söhbət açdılar. Qeyd olundu ki, Azərbaycanın suverenliyi toxunulmazdır.

Xeyli fasilədən sonra plenar iclasda iştirak edən Fazil Mustafa ona qarşı törədilən sui-qəsddən danışdı. Qeyd etdi ki, sui-qəsdi həyata keçirənlərin qısa zamanda hüquq-mühafizə orqanları tərəfindən saxlanması bir daha göstərdi ki, Azərbaycan dövləti ilə bu dillə danışmaq heç kimə müəssər olmayacaq: "Mənə qarşı törədilmiş terror aktına dərhal həssaslıqla yanaşan ölkə Prezidentinə, Birinci vitse-prezidentə və Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürümü çatdırmaq istəyirəm".

Milli Məclisin Sədri cari məsələlərin müzakirəsindən sonra iclasa 28 qanun layihəsinin çıxarıldığını bildirdi. Gündəliyin birinci məsələsini – "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Azərbaycan Respublikası Milli Məclisinin Qərarında dəyişikliklər edilməsi barədə qərar layihəsini komitə sədri Səməd Seyidov təqdim etdi. Qeyd etdi ki, parlamentin beynəlxalq əlaqələri getdikcə genişlənir və dostluq qruplarının sayı artır. Lüksemburq, Tailand və Ukrayna ilə dostluq qruplarına yeni rəhbərlər təyin edildi.

"Türk İnvestisiya Fondunun yaradılması haqqında" Sazişin təsdiq edilməsi barədə qanunun layihəsinin qəbulundan sonra parlamentin rəhbəri bildirdi ki, gündəlikdəki digər 20 qanun layihəsi 3-cü oxunuşda təqdim olunub. Əvvəlki müzakirələrdən sonra əlavə təklif və rəy daxil olmadığından qanun layihələri səsə qoyularaq qəbul edildi.

Sahibə Qafarova gündəlikdəki digər qanun layihələri barədə məlumat verərək dedi ki, həmin sənədlər ölkə Prezidentinin bir məktubu ilə daxil olub, məzmun və mahiyyətcə oxşardır. Təklif olundu ki, qanun layihələri səsə qoyulsun.

Qanun layihələri təsdiq edildikdən sonra Milli Məclisin plenar iclası başa çatdı.

**Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"**

# Naxçıvanda "I Beynəlxalq İpək yolu" konfransı

**Naxçıvan Dövlət Universiteti, Türkiyənin Qars Qafqaz Universiteti və İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun (İKSAD) birgə keçirdiyi "I Beynəlxalq İpək Yolu" konfransında 15 ölkədən 300-dən çox məruzəçi iştirak edib.**



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev konfransı açıq elan edərək qeyd edib ki, Avropa ilə Asiyanı birləşdirən, keçdiyi ərazilərdə yaşayan xalqların həyatında mühüm rol oynayan



Böyük İpək yolu ölkəmizin iqtisadi və mədəni inkişafına da öz müsbət təsirini göstərib. Elbrus İsayev vurğulayıb ki, beynəlxalq konfransın İpək yolun üstündə strateji mövqedə yerləşən Naxçıvanda keçirilməsi bu bölgənin beynəlxalq nəqliyyat dəhlizi kimi önəmini, eləcə də regionda və ətraf ölkələrdə iqtisadi-mədəni əlaqələrin inkişafının aktuallığını ön plana çıxarır.

Bildirilib ki, İpək yolunun bərpası ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin bu tarixi yolun bərpası üzrə beynəlxalq konfransın keçirilməsi haqqında 1998-ci il 7 iyun tarixli sərəncamı Azərbaycanın dünya birliyi ölkələri ilə inteqrasiyasının gücləndirilməsində müstəsna rol oynayıb. Zəngəzur dəhlizinin fəaliyyətə başlamasında isə "Türk qapısı" adlandırılan Naxçıvan mühüm rol oynayacaq.

Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu çıxışında belə konfransların keçirilməsinin türkdilli xalqların bir-birinə daha da yaxınlaşması, eləcə də ümumtürk mədəni irsinin təbliğ edilməsi baxımından əhəmiyyətinə toxunub. Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova əməkdaşlıq çərçivəsində türk dünyası ilə bağlı tədbirlərin, eyni zamanda tarixi İpək yolunun canlandırılmasına dair müxtəlif layihələrin həyata keçirilməsinin vacibliyini qeyd edib.

Konfransda AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin, İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun prezidenti Mustafa Latif Emekin, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzovun, Atatürk Universitetinin professoru Hüseyn Yurtdaşın, AMEA Naxçıvan Bölməsinin akademiki Hacıfəxrəddin Səfərlinin, Özbəkistanın İpək Yolu Araşdırma Akademiyasının sədri Azamat Akbarovun, onlayn formatda konfransa qoşulan Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayevin, ABŞ-nin Purdue Universitetinin professoru Jamaluddin Husainin, Adana Çuxurova Universitetinin professoru Hakkı Çiftçinin mövzu ətrafında çıxışları dinlənilib.

İqtisadi İnkişaf və Sosial Tədqiqatlar İnstitutunun prezidenti Mustafa Latif Emek konfransın təşkilatçılarına plaket təqdim edib.

Konfrans ənənəvi və onlayn formatda olmaqla 23 bölmədə davam edib.

**Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"**

# Bakıda II Xəzər Su İnnovasiya Forumu keçirilir



**Bakıda "Aqualink" şirkətinin təşkilatçılığı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təşkilati dəstəyi, dünyanın aparıcı su mütəxəssislərinin və ekoloqlarının iştirakı ilə II Xəzər Su İnnovasiya Forumu keçirilir.**

Tədbiri giriş sözü ilə açan ekologiya və təbii sərvətlər nazirinin müavini Vüqar Kərimov son illər Azərbaycanda su problemlərinin həlli sahəsində məqsədyönlü tədbirlərin görüldüyünü bildirib. Qeyd olunub ki, ölkəmizdə su problemlərinin həlli prioritet məsələ kimi müəyyən edilib. Hazırda bu sahədə ciddi səylər göstərilərək strateji proqram uğurla icra olunmaqdadır.

V.Kərimov deyib ki, Azərbaycan məhdud su ehtiyatlarına malik ölkələrdəndir. Digər tərəfdən, əhalinin sayının artması, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin genişləndirilməsi, iqlim dəyişmələri səbəbindən çayların suyunun azalması nəticəsində respublikanın su təhlükəsizliyinin təmin edilməsi istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Məhz bu baxımdan, ölkəmizdə su sahəsində fəaliyyət göstərən qurumların fəaliyyətinin əlaqələndirilməsi, su ehtiyatlarının səmərəli idarə edilməsi və ölkənin su təhlükəsizliyinin təmin edilməsi məqsədilə 2020-ci ildə Dövlət Su Komissiyası yaradılıb və su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə aid tədbirlər planı təsdiq edilib.

Forumda çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov sudan istifadənin səmərəliliyindən söz açaraq suyun insanlara bəxş edilən böyük bir nemət olduğunu deyib. Sudan düzgün istifadə ilə bağlı dövlətimiz tərəfindən maarifləndirici tədbirlər həyata keçirilməklə yanaşı, bu sahəyə böyük vəsaitlər ayrılır.

O.Məmmədov bildirib ki, Kiçik və Orta Biznes Agentliyinin əsas vəzifəsi respublikada kiçik və orta biznes subyektlərinin inkişafının dəstəklənməsi, ilk növbədə isə onların iqtisadiyyatda rolunun artırılmasıdır. KOBİA-nın İdarə Heyətinin sədri nəzərə çatdırıb ki, ölkədə su təminatının yaxşılaşdırılması istiqamətində müvafiq qurumların səyləri məqsədyönlü və effektiv olmalıdır. Su resurslarından səmərəli istifadə sahəsində sahibkarların məlumatlandırılması onların bilik və bacarıqlarının inkişafı, müasir dövrün tələblərinə əsasən su resurslarından qənaətcil fəaliyyətin təşkili, damcı suvarma sisteminin tətbiqi, tullantı sularının təkrar istifadəsi, o cümlədən sudan emal və tikinti sahəsində qənaətlə istifadə günümüzün tələbidir.

"Azərsu" ASC sədrinin müavini Seymur Seyidov diqqətə çatdırıb ki, son dövrlər şirin suya olan tələbatın artması fonunda qlobal miqyasda su çatışmazlığı ilə bağlı yaranan təhdidlər bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsini zəruri edib. Onun sözlərinə görə, istehlakçıların fasiləsiz və keyfiyyətli, eləcə də ekoloji standartlara cavab verən su ilə təmin olunması həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının böyük tərkib hissəsidir.

Qeyd olunub ki, ötən müddət ərzində Bakı şəhərində, həmçinin regionlarda içməli su və tullantı su sistemlərinin yenidən qurulması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilib. Nəticə etibarı ilə 44 yeni su mənbəyi yaradılıb ki, bunlar da insanların dayanıqlı və keyfiyyətli suya əlçatanlığının təmin olunmasına mühüm töhfə verib.

Forum panel iclasları ilə davam edib.

**M.YAQUBZADƏ, "Xalq qəzeti"**

**Qocalar evindən reportaj**

**Ümumi kədər və böyük ürək ağrısı ilə soyuqluğu uzaqdan diqqət çəkən binaya doğru addımlayıram. Onlar niyə burada yaşayırlar? Ömürlərinin son çağlarında niyə sərbəstlikləri əllərindən alınıb, uşaq kimi qəbul olunmuş qaydalara uyğun rejimə tabe olublar? Bu ahılların övladları varmı? Varsa valideyni niyə "qocalar evi"nə atılıb? Bəli, məhz atılıb. Doqquz ay bətnində, sonra qucağında gəzdirdiyi balası niyə anaya dönük çıxıb? "Niyə"lərin sayı uzandıqca uzanır...**



# Qaytar ana borcunu...

Görəsən, necə və neçə ildir onların "damlanmış" həyatının yaşı? Heç doğma ocaqları yadlarına düşürmü? Beynimdə qəzetimizin baş redaktorunun sözləri təkrar-təkrar səslənir: "Anasını sevən qızları sevirəm". Görəsən, onların qız övladları olmayıbmı? Məkana çatıb soruşacam... Hələ çox suallarım var, görəsən, səmimi cavab alacağammı? Bu gözlənilməz gəlişin geri dönüşü necə olacaq? Sinəmdən sallanan yükün çəkisi artacaqmı? Yoxsa yüngülləşəcəyəm?

Ömrünü övladlarının böyüyüb təhsil alması, hətta ev-eşik sahibi olmasına xərcləyən qocalar... Sizin valideynlik borcunuzu yox, barı övladlıq borcunu yerinə yetirə bilməyənlərə nankordan başqa ad vermək olmur. Əli Kərimin "Qaytar ana borcunu" şeirini astadan deyə-deyə irəliləyirəm. "Qocalar evi"nə lap yaxınlaşmışam, ürəyimdə artan sıxıntı ilə. Görəsən, söhbətimin nə qədər ağır olacağını dərk etdiyim, duyduğum qədər yazımda verə biləcəyəmmi?

Qeyd edək ki, müəssisə 1964-cü ildən fəaliyyət göstərir. Öncə Qocalar və Əlillər evi, 1989-cu ildən Müharibə və Əmək Əlilləri üçün Pansionat, sonra Pensiya yaşına çatmış şəxslər üçün Sosial Xidmət Müəssisəsi, 2020-ci ildən isə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Sosial Xidmətlər Agentliyinin (SXA) Ahıl şəxslər üçün Sosial Xidmət Müəssisəsi adı ilə fəaliyyətini davam etdirir. Artıq bura yalnız 70 yaşından yuxarı şəxslər – ahıllar (kimsəsizlər) qəbul olunur.

Müəssisəni direktor Samirə Mehdiyeva ilə gəzirəm. Geniş ərazidə, müxtəlif gül-çiçək kollarının, ağacların əhatələdiyi müəssisədə müasir tələblərə uyğun şərait yaradılıb. Burada beşmərtəbəli əlavə korpus istifadəyə verilib. Hər otaq lazımi məişət avadanlıqları ilə təchiz olunub. Sakinlərin normal yaşayışı, keyfiyyətli sosial xidmətlərlə təminatı, asudə vaxtlarını mənalı keçirmələri üçün lazımi şərait yaradılıb.

Burada illərdir ömür sürənlər var. 30 ildən yuxarı qaçqınlıq dövründə Füzulidən gələn Səbinə xanım, Sumqayıt hadisələrində evsiz qalan rus qadın Abqoliya Dobrınina kimi. Həyatlarına davam edən 110 kişi və 100 qadın bir ailədə birləşib. Ən yaşlı sakin 97 yaşlı Ənvər Əfəndiyevdir. Ən kiçik isə 65 yaşında Sara Əliyevadır. O, əlil olaraq bura qəbul edilənlərdəndir. Görəsən, ahıllar gənclik illərinin, doğmalarının həsrətini, xiffətini çəkirlərmi? Sualımı Samirə Mehdiyeva belə cavablandırır:

– Əlbəttə, amma çalışırıq ki, övladlarla, qohumlarla əlaqə yaradaq, ünsiyyətlərini təşkil edək. Bəziləri ilə sosial iş aparıb onların doğmalarına ehtiyacları olduğunu başa salmağa çalışırıq. İşlədiyim 3 il müddətində bu cür təbliğatla bir neçə nəfəri ailəsinə qaytarmışıq. Övladı, qardaşı qızı, qardaşı oğlu, digər doğmaları onları aparıblar.

Söhbət əsnasında ahılların bu məkana gəlmə səbəbi– yaşayış yerinin olmaması "bəhanəsi" məni daha çox təsirləndirdi. Onlar övladlarının rahat yaşaması üçün dövlətə sığınanlardır. Düşünürəm: Görəsən, nə zamana qədər övlad qayğısı çəkəcəklər? Dediklərinə görə, çoxu bir otaqda yaşamağa "imkan olmadığından" bu məkana üz tutub. Ahılların pensiyası ilə maraqlanıram. Eşitdiklərimdən bir faktı dəqiqləşdirmək üçün soruşuram ki, o puldan dövlətin hesabına keçirirlərmi?

– Əsla. Pensiyalarını özləri alırlar. Otaqlarına baxın. Heç bir ölkədə belə şərait yoxdur. Rusiyada Novosibirskdə qocalar evi var. Mən əlaqə saxlayıram. Statusumda tədbirlərimizi görəndə yazırlar ki, "Sizdə şərait necə gözəldir!" Orada qalanlar pensiyasının 75 faizini dövlətə keçirirlər. Siz onu eşitmisiniz. Dövlət onları həmin 75 faizin hesabına saxlayır. 25 faiz isə özlərinə qalır. Amma bizim dövlətimiz hər şeyi özü edir. Gör nə qədər təmin olunublar ki, təqaüdlərindən nəvələrinə vəsait ayırır, övladlarına göndərirlər. Deyirlər, neyləyim, övladdır, işləmir, köməyə ehtiyacı var. Mən onlara irad tutanda, deyirlər ki, qoy övladım yaxşı dolansın, mənə pul lazım deyil.

Həyat bu!!! Düşünürəm ki, "bir ana doqquz övlad böyüdür. Amma doqquz övlad bir anaya sahib çıxmır"– bu, həqiqət imiş. Direktoru dinləyirəm:

– Əvvəllər mənə də pis təsir edirdi. Sonra alışdım və çalışıram başa düşəm. Valideyn hər zaman özündən öncə övladını düşünür. İnanın, kimsə bir salfet də olsa hədiyyə gətirəndə, onu da çalışırlar ki, evə göndərsinlər. Başa salırıq ki, özün istifadə et. Amma ata-ana ürəyidir, övladını düşünür. Fikirlər müxtəlifdir.

**– Bunu dövlətin diqqət və qayğısından sui-istifadə adlandırmaq olarmı?**

– ...

Bu susqunluqdan sonra ürəyimdə fikrimə haqq qazandırıram və ƏƏSMN-nin "kimsəsizlərə" göstərdiyi qayğının hansı formada olduğunu soruşuram.

– Nazirlik müəssisəni lazım olan hər şeylə təmin edir. Agentlik tərəfindən adambaşına səhər yeməyindən tutmuş şam yeməyinədək gündə 3 dəfə isti qida göndərilir. Meyvəsi, şirəsi, mineral suyu, şirniyyatı... Corabdan paltoya qədər verir. İnsana həyatda yaşamaq üçün lazım olan hər şeylə dövlət təmin edir. Bu cür gözəl şərait yaradıb. Görürsünüz, hər otaqda tək qalırlar: soyuducu, televizor, paltar dolabı, stol, stul,.. hamam-tualet. Hər sakin elə bil, birotaqlı evdə tək yaşayır. Belə şəraitdən sonra artıq o kövrək hisslər bir qədər unudulur.

Yox, unudulmur, ürəkdə yumaq kimi düyünlənib qalır. Hiss edirəm ki, ahıllar burada həyatın ləzzətindən istifadə etməyə çalışırlar. AFFA-nın məşqçisi həftədə iki dəfə gəlir və məşq edirlər. Federasiya futbolçu sakinləri yay geyimi ilə də, qış forması ilə də təmin edib. "Neftçi"nin veteranları ilə görüş təşkil edilib. Həftədə bir dəfə Gimnastika Federasiyasından gimnast gəlir, sakinlər gimnastika ilə məşğul olurlar. Gənclər və İdman Nazirliyi tennis stolu bağışlayıb. Ahıllar tennis oynayır, velosiped sürürlər. Həyətdə gəzəndə velosipedlə qarşımıza çıxan Vyaçeslav Şuyenkov yadıma düşür. Onların idman vaxtları səhər yeməyindən sonra olur. Qadınlı-kişili futbol oynayırlar.

Evlərində kim idi onlara idman forması alıb futbol oynamağa göndərən? Onlara diqqət yetirən olsaydı, bura düşməzdilər ki... Burada təcrübə keçənlərlə tamaşalar hazırlanır. Bayramlardan başqa, hər həftə tədbir keçirirlər. Vəkillər Kollegiyasının, Apellyasiya Məhkəməsinin əməkdaşları burada olublar. Bugünlərdə YAP Nizami rayon təşkilatının nümayəndələri, məktəb direktorları, rayon fəalları gəlibmiş. Amerika səfirliyi, Qərb Universiteti, Modern Məktəb, Biznes Universiteti, sirk ustaları... gözəllik salonunun işçiləri öz təşəbbüsləri ilə onların görüşünə gəliblər. Saçlarını qaydaya salıb, rəngləyiblər. Əksəriyyətində bəzənməyə həvəs var.

Heydər Əliyev Fondunun əməkdaşları müntəzəm olaraq uşaq evləri və internat məktəbləri ilə yanaşı, burada yaşayan ahıllarla da görüşür, onların qayğıları ilə maraqlanırlar. Leyla Əliyeva iki ildir yeni ildə ahılların sevincinə sevinc qatır, bayramı onlarla keçirir. Məşğuliyyət çoxdur. Həyətdə ağac əkirlər. Gəzməyə gedirlər. Hərbi Qənimətlər parkında olublar. Dənizə – SİBRİZ-ə keçən yay gediblər və bu mövsümü həsrətlə gözləyirlər.

Bura baş çəkənlərin və gəlmək istəyənlərin sayı hədsiz çoxdur. Tələbələrin gəlişi valideynlərinə münasibəti dəyişir. Bir nəfər zəng edibmiş ki, ailəmlə, uşaqlarla gəlmək istəyirəm. Həyatın bu biri üzünü görsünlər deyə... İnsana məhəbbət, valideynə münasibət artsın deyə... Zəng edib gəlmək, qocalara qulluq etmək istəyənlər də olub. Amma müəssisədəki kiçik tibb işçiləri bu işlərin öhdəsindən yetərincə gəlirlər. Ən böyüyü 97 yaşındadır – Ənvər Əfəndiyev. Tatyana təzəlikcə rəhmətə gedib, onun 98 yaşı varmış.









Ani olaraq fikrimdən keçir ki, bəs ömrünün son çağlarında burada yaşayan binəvaların dünyadan köçəndən sonrakı "taleyi" necə olur? Soruşuram ki, vəfat edənlərin dəfni necə təşkil edilir? Ölüsünə sahib çıxmayan olurmu?

– Bəzisini qohumu aparır... Aparılmayanı müəssisə üçün ayrılmış məzarlıqda dəfn edirik. Qəbirüstü sinə daşı, baş daşı qoyulur, adı, soyadı yazılır. Köhnə qəbiristanlıq vardı. Abadlaşdırdıq, hasarını qaldırdıq. Ölülərimizi şəriətə uyğun, molla ilə dəfn edirik. Bayramlarda gül aparır, ölənləri ziyarət edirik. Buranı ailə kimi bilir və bütün adətlərə əməl edirik. Ailədə dünyasını dəyişənə hansı münasibət varsa, burada da mərhumlara eyni sayğı ilə yanaşırıq.




Bu cavabdan sonra bilmirəm nə soruşum. "Dirisi sənə "mane olur", ölüsünə niyə yiyə çıxmırsan, ay namərd övlad?"– deməkdən özümü zorla saxlayıram. Görəsən, övladları olanlardan bura gəlib baş çəkən olurmu? Utana-utana gəlirlər, yoxsa, heç nə olmamış kimi?

– Nə deyim, vallah... – Bu cavab hər şeyi anladır və beynimə çəkic kimi dəyir... Eşidəcəyim cavabın xofundan çəkinə-çəkinə soruşuram:

**– Övladı olanlardan burada dəfn edilən varmı?**

– Var. – Samirə xanım o kəlməni pıçıltı ilə, boğuq səslə deyir... Mən də özümdə deyiləm...

**– Nəyi bəhanə edib valideyninin ölüsünə sahib çıxmırlar?**

– Bəzən səbəbsizdir. Burada Həbib dayı var. Deyir: 5 uşağımı evdə qoyub çıxmışam, heç vaxt maraqlanmamışam. İndi nə üzlə onlardan qayğı gözləyim?

Buradakıların hamısı elə deyil ki... Maraqlanıram ki, adi vətəndaşlardan evinə aparmaq istəyən olubmu ki, Allaha xatir onlara qulluq etsinlər. Direktor bildirir ki, təşəbbüs olsa da verməmişik. Pandemiya dövründə nazirliyin qərarı ilə işçilər də burada qalırdı. Bir nəfərimiz də koronavirusa yoluxmadı. Qayğı böyükdür.

Bəs görəsən, özləri bir-biri ilə necə dolanırlar, heç sözləri çəp gəlirmi? Samirə xanım deyir ki, əlbəttə. Yaşlı adamlardır. Birinin sözü o birinin boğazından keçmədiyi vaxtlar olur. Mehribanlıq yaratmağa çalışırıq. Düşünürəm ki, görəsən, heç küsüb getmək istəyən olubmu? Elə o andaca fikrimə gəlir ki, hara gedəcəklər? Yerləri olsa, bura gəlməzdilər ki... Onlara buradakı xidməti kim göstərəcək? İşçilər o qədər əziyyət çəkirlər. Evdə bir yaşlı insana baxmaq nə qədər çətindir? O da olsun, yataq xəstəsi, Alzheymer xəstəsi... Onlar nə etdiyini bilmirlər ki... Hər gün onların arxasınca gəzmək, təmizləmək... Elə gün olur, qızlar onları 5 dəfə yuyundururlar.

Söhbət əsnasında onların müəssisəyə giriş-çıxışlarının sərbəst olub-olmaması ilə maraqlanıram.

– Bəli, sərbəstdir. Amma deyib gedirlər. Bəzən qohum-əqrəbası onları 1 aylıq, 10 günlük ev məzuniyyətinə aparır. Hər bir ahılla işləmək çox çətindir, amma şərəflidir. O insanların ağrılı həyatına sevinc qatmaq və verilən etimadı doğrultmaq, evində görmədiyi xoş münasibəti burada göstərmək amalımızdır. Biz əlimizdən gələni edirik. Dövlətimizin qayğı və diqqətindən başqa, burada onlara xoş münasibət bəslənir. Üzlərini qırxırlar, geyindirirlər. Çətin xarakterdə olan insanların yanında olmaqdan usanmırıq. Bilirik ki, onların bizə ehtiyacı var. Yaş, xarakter özünü göstərir. Ən böyük problemimiz odur ki, onlar bir-birini qısqanırlar, küsürlər. Kollektiv oyunları ona görə çox təşkil edirik ki, onlar bu yolla mehribanlaşsınlar, bir-birini görəndə sevinsinlər. Bir söz tapşıranda uşaq kimi dinləyirlər. Bir-birinin otağına gedir, söhbətləşir, çay içirlər.

**– Bəs xəstələnəndə?**

– Həkimlərimiz, tibb bacılarımız var. Nə lazımsa yardım edilir. Gömrük Xəstəxanası, Bona dea, Göz Xəstəlikləri İnstitutu, Dünyagöz Xəstəxanasından mütəmadi həkimlər gəlir, tibbi aksiyalar keçirirlər. Müayinələr edir, ehtiyac olanda, aparıb əməliyyat edirlər.

**– Bura sırf kimsəsizlər gəlirsə, övladı olanları necə qəbul edirlər?**

– Övladdan, yaxud, valideyndən imtina ilə. Övlad deyir ki, baxmıram valideynimə. Valideyn də imtina edir, istəmir övladını, ya xaricdə yaşayır.

...Xanlar Cəmiyevlə söhbət edirəm. Ayın 20-də 76 yaşını keçiriblər. Əslən İsmayıllıdandır. Deyir ki, kənd tez-tez yadıma düşür. Gedib ziyarət edirəm. Üç oğlum, bir qızım var. Yoldaşım rəhmətə gedəndən sonra gəlmişəm. Bura gəlməsəydim, çoxdan ölmüşdüm. Qoy uşaqlar da dolansın. Pensiyamdan kiçik oğluma hər ay yardım edirəm. "Sənə otağın bir küncündə bir çarpayılıq yeri qıymayan övladına niyə kömək edirsən?" – deyirəm. Övladdır, neyləyim – cavabını eşidirəm.

1938-ci il təvəllüdlü Tamara Zeynalovanın otağına giririk. Samirə xanım ondan qara ciyərilə bağlı USM-dən keçib-keçmədiyini soruşur. "Keçdim, soyuq olubmuş", – deyir. Hər gün özü də idman edir, bədənini möhkəmlədir. "Biz burada kurortdayıq, – deyir. – Geyim də verirlər, yemək də. Gəzməyə də aparırlar. Hər şeyimiz var – isti su, soyuducu, televizor. Hər yer tər-təmiz..."

Digər otağın sakini, 70 yaşlı Elmira Məhərrəmova deyir: "Biz firavan yaşayırıq. Kim gəlirsə heyrət edir. Ayrıca otağımız, şəraitimiz, qulluq edən..." Xanımın eyvanda sıraladığı dibçək gülləri məni valeh edir. Qış ehtiyatı görüb. Xiyar duza qoyub, yarpaq tədarük edib, çiyələk mürəbbəsi də bişirib. Hüseyn Ələkbərovun otağı da təmiz və səliqəlidir. 76 yaşı var. "İrəvandanam", – deyir. "Heç evimdə belə qulluq, şəraitim olmayıb." Samirə xanım vurğulayır ki, oktyabrın əvvəlində 30 nəfərlə Şuşaya səfərimiz oldu. Bir gecə də qalıb gəldik. Ahıllarımızın sevinci yerəgöyə sığmırdı.

Bu qənaətə gəlirəm ki, xalq arasında daha çox "Bilgəh qocalar evi" kimi tanınan bu müəssisənin sakinlərinə kimsəsiz sözünü heç cür yaraşdırmaq olmaz. Çünki bu məkan ömrünün ahıl vaxtında, doğmalarından və ailə üzvlərindən qayğıya, qulluğa ehtiyacları olan bir vaxtda, müxtəlif səbəblərdən bütün bunlardan məhrum olmuş insanlar üçün, sözün əsl mənasında, doğma evə çevrilib. Onların arxası da dövlətdir, övladı da. Ahılların fikrincə, bundan sonra bir neçə il belə yaşasalar, bu, artıq onlar üçün bütöv bir ömürə dəyər. Çünki insanlar öz istədikləri kimi yaşamaq imkanı əldə ediblər. Buranın sakinləri artıq tərk edilmək, atılmaq qorxusunu unudaraq, özlərini qayğı əhatəsində, daimi olaraq gözəl yaşayış şəraiti, keyfiyyətli qidası, geyimi və tibbi xidmətləri olan doğma bir evdə hiss edirlər. Ürəklərindən nə keçir?... – Allahla özləri bilər... Mən isə yazımı belə tamamlayıram:

***Deyirəm ki, o boyu, buxunu qaytar geri!***
***Deyirəm ki, varını, yoxunu qaytar geri!***
***Qaytar onun borcunu,***
***Gülüşünü, adını, sözünü qaytar geri!***
***Qaytar ana borcunu,***
***O borc sənin özünsən, özünü qaytar geri!***

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

# Qalib Türkiyə demokratiyasıdır!



**Mayın 28-də Türkiyədə keçirilən prezident seçkilərinin ikinci turunda demokratiya növbəti dəfə sınaqdan "əla" qiymət alıb. Belə ki, bütün dünya bu siyasi kampaniyanı böyük diqqətlə izləyib və dostlar da, rəqiblər də "afərin!" deməli olub. Bu, 85 milyonluq türk xalqının böyük qələbəsidir.**

Seçkilərin ilk gündən favoriti, "Cümhur İttifaqı"nın lideri Rəcəb Tayyib Ərdoğan səslərin sayılması başa çatandan və qalibin adı müəyyən olunandan sonra Ankaradakı prezident iqamətgahının qarşısında toplaşan üç yüz mindən çox insanın toplaşdığı izdiham qarşısında parlaq nitq söyləyib.

Dövlət başçısı xalqı yüksək ideallar naminə bundan sonra da birlik və həmrəylik nümayiş etdirməyə çağırıb: "Qalib təkcə biz deyilik. Türkiyə qalibdir, bizim demokratiya qalibdir! İndi ələ-ələ verərək milli hədəflərimizə doğru irəliləməliyik!"

Səsvermənin nəticələrinə görə, hazırkı dövlət başçısı ümumi səslərin 52,18 faizini, onun ana müxalifətdən olan rəqibi K.Kılıçdaroğlu isə 47,82 faizini toplayıb. Beləliklə, Türkiyə xalqı daha beş il ölkəni idarə etmək səlahiyyətini zamanəmizin ən xarizmatik siyasətçilərindən sayılan, görkəmli dövlət xadimi R.T.Ərdoğana həvalə edib.

R.T.Ərdoğan nitqində son seçkilərin ölkənin ictimai-siyasi həyatında böyük önəm daşıdığını qeyd edərək bunu "Türkiyə demokratiyasının zəfəri" adlandırıb. Prezident bildirib ki, qarşıda ölkəni daha böyük vəzifələr və çağırışlar gözləyir: "Biz gecə-gündüz çalışaraq fevralın 6-da baş verən dəhşətli zəlzələ zamanı dağıdılan şəhər və kəndlərimizi yenidən qurmalıyıq. Bu, hazırda hökumətin prioritetidir".

Dövlət başçısı sonra vurğulayıb ki, türk xalqı ruhən güclü, yenilməz xalqdır və bütün çətinliklərin öhdəsindən gəlməyə qadirdir. O, zərrə qədər şübhə etmir ki, Türkiyə qlobal dünya düzənində mütləq öz layiqli yerini tutacaq. Belə ki, bu gün həqiqətən dünya çalxalanır, böyük oyunçular yeni qaydalar müəyyən etməyə cəhd edir.

Türkiyə bu siyasət burulğanında nəinki batmamalı, əksinə, yeni hədəflər üçün səfərbər olmalıdır. Bu gün Türkiyə dövlətinin və xalqının R.T.Ərdoğan kimi güclü lideri var. Çoxları bu dahi siyasətçini haqlı olaraq qlobal siyasət fenomeni hesab edirlər. Onun qurucusu və rəhbəri olduğu Ədalət və İnkişaf Partiyası (AKP) iqtidarda olduğu 21 il ərzində istisnasız olaraq 16 dəfə keçirilən seçkiləri qələbə ilə başa vurub!

Bəli, bu gün dünyada baş verən gərgin qlobal proseslər rəsmi Ankaranı fəal daxili və xarici siyasət yürütməyə sövq edir. Heç kəs şübhə etmir ki, Türkiyə qarşıdakı illər ərzində də öz milli maraqları çərçivəsində prinsipial və ədalətli mövqe sərgiləməkdə davam edəcək. Türkiyə günbəgün güclənir və daha qüdrətli olmaq əzmindədir!

Xatırladaq ki, səsvermədən bir gün sonra, mayın 29-u İstanbulun 1453-cü ildə Sultan Fateh Mehmet tərəfindən fəth edildiyi gün idi. 570 il əvvəl baş verən bu möhtəşəm hadisə orta əsrlər tarixinə köhnə eranın sonu, yeni eranın başlanğıcı kimi düşüb. Türkiyə bu gün də yeni mədəniyyət, sivilizasiya daşıyıcısı rolunda çıxış edir. Yenidən R.T.Ərdoğanın nitqinə qayıtsaq deyə bilərik ki, türk demokratiyasının son seçkilərdə qələbəsi artıq "Türkiyə əsri"nin başladığına dəlalət edir.

Dövlət başçısı nitqində Türkiyədəki seçkiləri işıqlandırarkən açıq-aşkar qərəzli mövqe nümayiş etdirən Qərb mətbuatını da kəskin tənqid edib. Onlar R.T.Ərdoğanı "qara piara çevirmişdilər. Qəzet və jurnalların manşetlərində Türkiyə liderini "yıxmaq" üçün min bir hədyan yazan Qərb mətbuatı 28 mayda bir daha uduzub.

R.T.Ərdoğan suriyalı qaçqınlar məsələsinə də toxunub. Bildirib ki, Türkiyə dövləti bu vaxta qədər təxminən 600 min qaçqının təhlükəsiz ərazilərə köçürülməsini təmin edib. Yaxın beş ildə isə bir milyondan çox qaçqının yerləşdirilməsi üçün Qətər dövlətinin fəal iştirakı ilə böyük bir layihə icra olunacaq.

Xatırladaq ki, 2011-ci ildə "Ərəb baharı" kampaniyası çərçivəsində Bəşər Əsəd rejimi əleyhinə başlanan kütləvi etiraz aksiyaları Suriyada ağır vətəndaş müharibəsinə çevrilib və dörd milyona yaxın insan canını xilas etmək üçün Türkiyə ərazisinə qaçıb. Hazırda onların 3,7 milyon nəfər olduğu bildirilir.

28 maydan sonra Türkiyə uzaq məsafəyə təkanla qaçışda uğurlu start götürən idmançıya bənzəyir. Uğurlar sənə, əziz Türkiyə!

***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***

*Ekspert rəyi*



**Rüfət RÜSTƏMOV, BDU-nun türk filologiyası kafedrasının müdiri, professor**

Çağdaş dünyanın ən xarizmatik siyasətçilərindən olan Rəcəb Tayyib Ərdoğanın 28 mayda qazandığı tarixi qələbə bütün dünya türklərini sevindirdi. Bu, təkcə Türkiyənin deyil, Böyük Turanın böyük qələbəsidir!

R.T.Ərdoğan kimi böyük siyasətçi elə-belə, asan yolla yetişmir. Onu şanlı tarixə və zəngin mədəniyyətə sahib olan böyük türk xalqı, yenilməz türk ruhu yetişdirib. Türklər mərd, iradəli, azadlıqsevər olduqları qədər də humanist və ədalətlidirlər. Onlar tarixdə heç bir xalqın adət-ənənələrinə, mədəniyyətinə kəm baxmayıblar. Türklər dağıdıcı deyil, qurucu millətdir.

Azərbaycan–Türkiyə dövlətlərinin və xalqlarının qardaşlığı tarixin ən ağır, çətin sınaqlarından üzüağ çıxıb. 2020-ci ilin payızında xalqımızın erməni işğalçılarına qarşı 44 günlük şanlı savaşa başladığı ilk gündən qardaş Türkiyə xalqı və onun lideri Rəcəb Tayyib Ərdoğan yanımızda olub. Qədirbilən Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq.

Dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə bu qədər yaxın olan iki dövlət və millət tapmaq qeyri-mümkündür. Bu dövlətlərin liderləri bir-birlərinə dərin hörmət əlaməti olaraq "əziz qardaşım!" deyərək müraciət edirlər. Bu zaman bütün türk elləri sevinir, düşmənlərin isə bağrı yarılır.

Mən otuz-qırx il bundan əvvəl Türkiyədə işləmişəm. Yadımdadır, hətta ölkənin paytaxtı daş kömürlə qızdırılırdı. Paytaxtda tüstüdən bəzən göz-gözü görmürdü. Sayın R.T.Ərdoğanın iyirmi illik parlaq liderliyi ilə Türkiyə heyrətamiz dərəcədə dəyişib, müasirləşib, gözəlləşib.

R.T.Ərdoğan o liderlərdəndir ki, onlar qarşıya böyük hədəflər qoyur və onların uğurla icra olunmasına nail olurlar. Hesab edirəm ki, R.T.Ərdoğanın rəhbərliyi ilə Türkiyə yaxın gələcəkdə daha möhtəşəm uğurlar əldə edəcək!



# Türkiyəmiz Ərdoğana əmanət!..

**Ulu öndər Heydər Əliyev Azərbaycan–Türkiyə qardaşlığını indi dillərdə əzbər olan bir aforizmə sığışdırdı: "Bir millət, iki dövlət!" Bu formula Prezident İlham Əliyev bir millət və iki dövlətin düşmənin unutmayacağı bir ifadə əlavə etdi: "Bir millət, iki dövlət və bir yumruq!" Bu sözlər tarixən sevinci–kədəri bir olan Azərbaycan və Türkiyənin qardaş dövlətlər olduğunu dünyaya bir daha bəyan etdi.**

Canımız – Türkiyəmiz! Böyük Atatürkün sözüdür: "Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır".

Yeni Türkiyənin yaradıcısı Atatürk və yeni Azərbaycanın memarı Heydər Əliyev öz dövlətçilik quruculuğu ilə bütöv bir məktəb qoyublar. Bu böyük məktəbi Azərbaycanda İlham Əliyev, Türkiyədə Rəcəb Tayyip Ərdoğan zirvələrə qaldırdılar. Tale bu iki dövləti qardaşlıq missiyası ilə dünyada görünməmiş gücə çevirdi. Tanrının millətə bir missiya (məhz missiya) kimi göndərdiyi İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan bu müqəddəs vəzifəni tarixin indiyədək görmədiyi bir güc möcüzəsi ilə yerinə yetirdi: İlham Əliyev 44 günlük Vətən müharibəsində "dəmir yumruğu" ilə düşmənin başını əzdi. R.T.Ərdoğan Türkiyədə rəhbər vəzifələrdə olduğu 21 ildə bu ölkəni dünyaya nümunə kimi yenidən yaratdı. Bir millətin, iki dövlətin başçıları ən ağır günlərdə də, ən qürurlu anlarda da bir-birinin yanında oldular.

Türkiyədə prezident seçkiləri başa çatıb. Azərbaycan xalqı Ərdoğanı yenidən Cümhurbaşkanı görməkdən çox məmnundur. Burada R.T.Ərdoğan barədə qəlbimdən dilimə axan bəzi munis fikirlərimi yazmışam:

– Ərdoğan Türkiyə dövlətinin siyasi, ictimai, iqtisadi, mənəvi, real inadəsidir;

– Ərdoğan Türkiyədə son on ildə həyata keçirilən onlarca, yüzlərcə layihənin ideya və icra müəllifidir;

– Ərdoğan yeni dünya düzənində Türkiyənin yerini güc dövlətlərinə göstərən milli qəhrəmandır;

– Ərdoğan Türkiyə milli sənayesi ilə ən yeni və ən güclü silahlar yaradan bir ordu başçısıdır.

– Ərdoğan dünyanın ən uca hava limanının, Türkiyənin uzaq bölgələrini bir-birinə yaxınlaşdıran kəsə yolların, ən uzun tunellərin, ən yeni metro tikintisinin baş memarı və mühəndisidir;

– Ərdoğan özünün sülhsevər missiyası ilə dünyanın bir çox media mənsublarının Nobel sülh mükafatına layiq hesab etdikləri bir liderdir;

– Ərdoğan Türkiyəni terrorla hədələyən PKK-çıların dərsini verən mükəmməl bir hərbiçidir.

– Ərdoğan son illərdə təkcə İstanbulda 37 universitet yaradan, tələbələrə mümkün olan hər cür dövlət qayğısını təmin edən rəhbərdir.

Ərdoğanın İstanbul seçiciləri ilə görüşünün unudulmaz bir loqosu vardı: "Türkiyə sana emanet!" Bu loqo Ərdoğana ümumxalq sevgisinin cəmi üç sözdə ifadəsidir.

Biz də bu loqoya əlavələr edirik:

– Canımız – Türkiyəmiz! Sən dünya liderləri içərisində ulduz kimi parlayan Ərdoğana əmanət!

– Canımız – Türkiyəmiz! Sən dünyanı savaşdan barışa çağıran Ərdoğana əmanət!

– Canımız – Türkiyəmiz! Sən dünyanın ən dəhşətli zəlzələsinin ağrılarını millətə sevgi qayğıları ilə aradan qaldırmaqda olan Ərdoğana əmanət!

– Canımız – Türkiyəmiz! Sən Atatürk dövlətinin yüz ilini bütün istiqamətlərdə qələbə ilə qarşılamağa çağıran Ərdoğana əmanət!

– Canımız – Türkiyəmiz! Sən doğma qardaşın – Azərbaycanın Prezidenti İlham Əliyevin dayağı olan Ərdoğana əmanət!

28 may günümüz mübarək! Necə də möhtəşəm səslənir: Ərdoğan yenidən qardaş Türkiyənin Prezidentidir!

***Cahangir MƏMMƏDLİ, filologiya elmləri doktoru, professor***

# Kosovoda etnik zəmində gərginlik yaşanır



**Son günlər Serbiya ilə Kosovo arasında münasibətlərdə gərginlik yaşanır. NATO-nun sülhməramlı qüvvələri Kosovo və Metohiyada gərginliyi azaltmaq üçün Kosovonun şimalındakı dörd bələdiyyədə mövcudluğunu gücləndirib. Bu barədə missiyanın "Twitter" səhifəsində deyilir.**

Sülhməramlı qüvvələr (KFOR) həmçinin bildirib ki, Kosovoda təhlükəsizliyin və hərəkət azadlığının təmin edilməsi üçün bütün lazımi tədbirləri görəcəklər.

Vəziyyətin gərginləşməsi isə Serbiyada narahatlıq yaradıb. Bu ölkənin Prezidenti Aleksandr Vuçiç beş Qərb ölkəsi - Almaniya, İtaliya, Fransa, Böyük Britaniya və ABŞ-dan ibarət şura çağırıb. Serbiya liderinin sözlərinə görə, bu ölkələr Priştinaya görə məsuliyyət daşıyırlar və orada sakitlik yaratmağa borcludur.

"Biz xəbərdarlıq etdik... Mən onlardan sonsuz dərəcədə xahiş edirəm ki, münaqişəni dinc yolla həll etsinlər, çünki serblər sülh istəyirlər və başqa heç nə istəmirlər", - Serbiya prezidenti bildirib.

Vuçiçin fikrincə, münaqişənin mərkəzində özünü Kosovonun baş naziri adlandıran Albino Kurti dayanır. O, həqiqətən Serbiyanın Şimali Atlantika alyansı ilə münasibətlərini pozmağa çalışır. "Biz öz adamlarımızın öldürülməsinə icazə verməyəcəyik, münaqişənin sülh yolu ilə nizamlanması üçün mümkün olan hər şeyi etməyə çalışacağıq", – Serbiya lideri bildirib.

Bu arada Serbiya ordusu döyüş hazırlığı vəziyyətinə gətirilib və sərhəd boyu yerləşdirilib. Onlar sərhədi keçməyə cəsarət etməyəcəklər. Əvvəla, ona görə ki, o biri tərəfdə gücləndirilmiş NATO bölmələri yerləşib.Və Serbiya bu gün NATO ilə döyüşmək gücündə deyil. Vuçiç qarşıdurmaya getməyəcək. Onun üçün yalnız bir yol qalıb: Avropa liderləri, Təhlükəsizlik Şurasının üzvü olan ölkələrin nümayəndələri ilə danışıqlar aparmaq və Kosovodakı serbləri qorumağa çalışmaq.

Xatırladaq ki, 2023-cü il mayın 29-da serblər Zveçan bələdiyyəsinin küçələrinə çıxaraq Kosovo polisinin, NATO kontingentinin ərazidən çıxarılmasını tələb ediblər. Onların digər tələbi isə təyin olunan alban merlərinin geri çağırılmasıdır. Aksiyanı dağıtmaq üçün NATO hərbçiləri cəlb olunub. Onlara Kosovo polisi də dəstək verib.

Qarşıdurma nəticəsində 25-ə yaxın əsgər xəsarət alıb. İtaliyanın xarici işlər naziri Antonio Tajani missiyada vəzifəsini yerinə yetirən 11 italyan əsgərinin yaralandığını açıqlayıb və onlardan 3-nün vəziyyətinin ağır olduğunu, lakin həyatları üçün ciddi təhlükənin olmadığını bildirib. Bütövlükdə isə qarşıdurmada hər iki tərəfdən 94 nəfər müxtəlif dərəcədə xəsarət alıb.

***Pünhan ƏFƏNDİYEV, "Xalq qəzeti"***

# "İnanırdım ki, bu dəfə də xalqın iradəsi qalib gələcək"

**"Türkiyədə mayın 28-də keçirilən prezident seçkilərinin ikinci turunda AKP lideri Rəcəb Tayyib Ərdoğan parlaq qələbə qazandı. Bu, son dərəcə böyük əhəmiyyəti olan tarixi uğurdur!"**



Bu fikirləri "Xalq qəzeti"nə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) İstanbuldan olan millət vəkili Şamil Ayrım bildirib. Son prezident və parlament seçkilərini dəyərləndirən millət vəkili deyib ki, seçki sakit, qalmaqalsız başa çatdı: "Biz Avropaya və bütün dünyaya demokratik seçki necə keçirilir, bunu nümayiş etdirdik".

**Millət vəkilinin sözlərinə görə, Türkiyə Cümhuriyyəti tarixində ilk dəfə bu qədər böyük tərkibli ittifaqlar seçki kampaniyası aparıb:**

"Nəticələrdən də görünən odur ki, "Cümhur İttifaqı" çox məhsuldar fəaliyyət göstərib. Prezident Rəcəb Tayyib Ərdoğan seçki kampaniyası zamanı Türkiyəni qarış-qarış gəzdi. Millət vəkilliyinə namizədlər də yerlərdə aktiv bir seçki kampaniyası nümayiş etdirdi. Nəticədə xalqımızın milli iradəsi qalib gəldi. Türkiyə Böyük Millət Məclisində (TBMM) yenə də böyük üstünlüyü AK Partiyadan olan millət vəkilləri qazandı. Bu, çox önəmli bir məsələdir".

**Şamil Ayrım, yeni dönəmdə TBMM-də həyata keçirilməsi nəzərdə tutulan layihələrə də toxundu:**

"Bu layihələr arasında Azərbaycanla bağlı məsələlərə böyük əhəmiyyət verilir. Türkiyənin həll olunması lazım olan bəzi problemləri var ki, bu "Cümhur İttifaqı" vasitəsilə həll ediləcək. Zəngəzur dəhlizinin açılması məsələsi gündəmimizdə ən vacib məsələlərdən biri olacaq. Ermənistanın yanlış davranışına qarşı ciddi mübarizə aparacağıq".

Millət vəkili seçki kampaniyası müddətində başda Prezident İlham Əliyev olmaqla Azərbaycan xalqına göstərdiyi həmrəylik, diqqət və qayğıkeşliyə görə minnətdarlığını bildirdi.

Qeyd edək ki, Şamil Ayrım Türkiyə Parlamentində təmsil olunan Azərbaycan əsilli millət vəkilidir. İkinci azərbaycanəsilli millət vəkili isə AKP-nin Iğdırdan yeni seçilən namizədi Cantürk Alagözdür.

***M.SULTANOVA,***

**Ankara**

# Taekvondoçularımız qələbəyə kökləniblər

**Dünya idman ictimaiyyətinin diqqəti yenidən sağlam rəqabətin, idmanda ədalət prinsiplərinin və ideallarının prioritet olduğu Azərbaycana yönəlib. Daha bir böyük etimad, yüksək inam! Paytaxt Bakı ilin ən nüfuzlu yarışlarından biri olan taekvondo üzrə dünya çempionatına evsahibliyi edir. Məhz Bakı tatamisində dünyanın 145 ölkəsinin güclü taekvondoçuları arasında ən potensiallıları müəyyənləşəcək. Ümummilli lider Heydər Əliyevin 100 və Dünya Taekvondo Federasiyasının 50 illiyinə təsadüf edən yarış "Öz gücünü alovlandır" şüarı altında keçirilir. Bu mötəbər yarış, həm də taekvondo üzrə Paris Yay Olimpiya Oyunlarına ən yüksək reytinq xalı verməsi baxımından önəmlidir.**



Artıq mübarizənin ilk günündən yüksək təşkilatçılıq sayəsində bütün komandalar üçün yaradılan şərait, idmançıların öz potensiallarını üzə çıxarmaları üçün mövcud imkanlar öz sözünü deyir. Yarış iştirakçıları hər bir şəraiti olan əzəmətli "Baku Crystal Hall"da yüksək mübarizə ruhuna kökləniblər. Şübhəsiz, onların arasında ən güclülərdən hesab olunan Azərbaycan komandasına da böyük ümidlər bəslənilir.

Azərbaycanın kişilərdən ibarət yığma komandasının böyük məşqçisi **Elnur Amanov** bu ilin əvvəlindən komandamızın bir neçə beynəlxalq turnirdə iştirak etdiklərini bildirdi. Qeyd etdi ki, dünya çempionatında ən güclü taekvondoçularımız iştirak edirlər. Məşqçi çempionatın birinci günündə gücünü sınayan Cavad Ağayevin çıxışına da münasibət bildirdi: "C.Ağayev döyüşün başa çatmasına beş saniyə qalmış qalibiyyəti əldən verdi. İstər kişi, istərsə qadın idmançılarımızdan yaxşı nəticələr gözləyirik. Ümid edirik ki, komandamızın üzvləri güclərindən maksimum istifadə edəcəklər".

Qadınlardan ibarət millimizin baş məşqçisi **Sona Pak** da idmançılarımıza böyük ümidlər bəsləyir: "Uzun zamandır ki, dünya çempionatına hazırlaşırıq. Çempionatda 5 qadın idmançımız ölkəmizi təmsil edir. Qızlarımıza çox inanıram. Ümid edirəm ki, qələbə ilə ölkəmizi və bütün teakvondosevərləri sevindirəcəyik".



Kişi taekvondoçulardan, yığmamızın üzvü **Taleh Süleymanov** (87 kq) dünya çempionatı ilə bağlı təlim-məşq toplanışlarında iştirak edərək hazırlıqlarını artırmaq üçün böyük səy göstərdiklərini qeyd etdi: "Komandamız yaxşı formadadır. Özümüzə inanırıq. Əlimizdən gələni edəcəyik ki, qələbə qazanaq, Azərbaycanın Dövlət Himnini səsləndirək, bayrağımızı yüksəklərə qaldıraq. Mən mayın 31-də döyüşə çıxacağam. Çox böyük motivasiya ilə qələbə qazanmağı gözləyirəm. Doğma divarlar arasında mübarizə aparmağımız gücümüzü daha da artırır".

Qadınlardan ibarət yığmamın üzvü **Minayə Əkbərova** (46 kq) da qələbəyə köklənib. Bizimlə söhbətində qeyd etdi ki, iyunun 2-də tatamiyə çıxacaq. Dünya çempionatına hazırlıqla bağlı beş aydır məşq etdiklərini deyən idmançı medal qazanmaq üçün bütün gücünü sərf edəcəyini bildirdi.

Kişilərdən ibarət yığmamızın daha bir üzvü – **Xanoğlan Kərimovla** (63 kq) həmsöhbət olduq. Gənclər arasında dünya, eyni zamanda klublararası Avropa çempionatlarının gümüş mükafatçısı ilk dəfə böyüklər arasında dünya çempionatında iştirak edir. Gənclər arasında mötəbər yarışlarda qazandığı gümüş medalları, bu yarışda "qızıl"a çevirməyi qarşıya məqsəd qoyduğunu deyir.

Dünya çempionatında qardaş Türkiyənin komandası da medallar uğrunda mübarizə aparır. Türkiyə milli komandasının baş məşqçisi **Ali Şahin** "Xalq qəzeti"nə açıqlamasında yığmanın çox ciddi rejimdə hazırlıq prosesi keçdiyini vurğuladı: "Bu ilin əvvəlindən komandamız fasiləsiz şəkildə yarışlara hazırlaşıb. İdmançılarımız müxtəlif yarışlarda içtirak etməklə, həm də hazırlıqlarını artırıblar. Həmin yarışlarda millimizin üzvləri yaxşı nəticələr əldə ediblər. Əminik ki, Vətənə yaxşı nəticələrlə dönəcəyik".

**Ali Şahin** yarışın təşkil edildiyi "Baku Crystal Hall"ın geniş və işıqlı zallarının həm idmançılar, həm də digər iştirakçılar üçün böyük üstünlük yaratdığını qeyd etdi.

Qazaxıstan yığmasının üzvü **Samirxon Ababakirov** yarışda idmançıların öz güclərindən maksimum istifadə etmələri üçün hər bir şəraitin yaradıldığını bildirdi: "İlk gündən hərtərəfli qayğı ilə əhatə olunmuşuq. Burada özümüzü doğma divarlar arasında hiss edirik. İdmançılar üçün hər bir şərait yaradılıb. Potensialımızdan maksimum istifadə etmək üçün bütün imkanlar var. İdmançılar adından təşkilatçılara təşəkkürümü bildirmək istəyirəm".

S.Ababakirov yarışdan sonra şəhərimizi doyunca gəzməyi arzuladığını dedi: "Dənizkənarı bulvarı gəzmək istəyirəm. Bir də İçərişəhərin görməli yerləri ilə tanış olacağam".

**Nüfuzlu dünya çempionatında mübarizə davam edir. Hələlik, mötəbər yarışda qadın və kişilər arasında beş çəki dərərcəsində mükafatçılar müəyyənləşib. İyunun 4-dək başa çatacaq yarışda 1000-ə yaxın taekvondoçu 16 çəki dərəcəsində mübarizə aparır.**

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

## Zülfü Adıgözəlov – 125

# Muğam dünyasında bir ifa vardı...

**Azərbaycan Prezidenti İlham Əliyev 2020-ci il noyabrın 8-də xalqa növbəti müraciətində Şuşanın düşmən tapdağından azad edilməsi barədə məlumat verəndə mən sosial şəbəkədə "Bu gün bizdən çox onların ruhu sevinir" adlı yığcam yazı paylaşmışdım. Həmin yazıda Qarabağ, xüsusən, Şuşa musiqiçilərinin ad-soyadından ibarət mükəmməl bir siyahı təqdim edilirdi.**



Təbii ki, siyahıda görkəmli xanəndə, muğam bilicisi, Əməkdar artist Zülfü (Zülfüqar) Adıgözəlovun da adı var idi. Olmaya da bilməzdi. Çünki bu sənətkar Şuşanın Qaradolaq kəndində anadan olmuş, Qarabağ muğam məktəbinin ən ali səviyyəsinə ucalmışdı. Onun yaratdığı sənətkarlıq məktəbi oğlu Vasif Adıgözəlov və nəvəsi Yalçın Adıgözəlli tərəfindən böyük məsuliyyət və uğurla davam etdirilib və etdirilir.

Qeyd edək ki, Zülfü Adıgözəlov 1927-ci ildə Cabbar Qaryağdıoğlu tərəfindən Bakıya dəvət edilir və paytaxtda Üzeyir bəy Hacıbəyli, Qurban Pirimov, Müslüm Maqomayevin qarşısında imtahan verərək sınaqdan uğurla çıxır. Elə həmin adamların tövsiyəsi ilə dövlət radio verilişləri komitəsinə işə qəbul olunur. Muğam ifaçıları yazırlar ki, Zülfü Adıgözəlov muğamların özünəməxsus oxuma məktəbini yaradıb. Ensiklopedik materiallarda göstərilir ki, tanınmış xanəndələrdən Əbülfət Əliyev, Sahib Şükürov, Hacıbaba Hüseynov, Əlibaba Məmmədov, İldırım Həsənov, Ağaxan Abdullayev, Tələt Qasımov və bir çox başqa sənət adamları onun məktəbinin davamçılarıdır.

Mərhum bəstəkar Vasif Adıgözəlov danışırdı ki, atamın ifa etdiyi və lentə, qrammofon vallarına yazdırdığı "Rast", "Mahur-hindi", "Segah-Zabul", "Bayatı-Şiraz", "Humayun" muğamları, eləcə də, təsniflər, xalq mahnıları Azərbaycan musiqi xəzinəsinin inciləridir. Vasif müəllimin fikrincə, Zülfü Adıgözəlov təkcə muğamları qorumurdu, həm də tanrının ona verdiyi səsi daim qoruyurdu: "Bir dəfə Şuşaya getmişdik. Biz hansısa bulaqdan su içdik. Sonra atam bulağa yaxınlaşdı və əlini, üzünü yuyaraq dedi: – Ah, nə gözəl içməli sudur. Ancaq bir udum da olsun, içmədi. Çünki səsini qoruyurdu".

Xatırladaq ki, Zülfü Adıgözəlov 1898-ci ildə Şuşada doğulmuş, 1963-cü il mayın 31-də Bakıda vəfat etmişdir.

***İ.MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

## Azərbaycan teatrı-150

# Lənkəran teatrı yubileylər ilində

**Prezident İlham Əliyevin "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd edilməsi haqqında" 3 fevral 2023-cü il tarixli sərəncamı ölkənin digər sənət ocaqları kimi, bizim kollektivi də yeni uğurlara səfərbər edib. 1973-cü ildən fəaliyyət göstərən teatrımız mədəniyyətin və xalqın milli ruhunun inkişafı, ümumxalq mədəni səviyyəsinin yüksəlməsi üçün əlindən gələni əsirgəmir.**



Əslində, Lənkəran teatrının tarixi XIX əsrin 90-cı illərinə təsadüf edir. Mənbələrdən məlumdur ki, həmin dövrdə Lənkəranda ilkin teatr mühiti formalaşıb. Ötən əsrin 30-40-cı illərində burada Dövlət Dram Teatrı fəaliyyət göstərib. 1973-cü il dekabrında isə ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə Lənkəran Dövlət Dram Teatrı öz fəaliyyətini yenidən bərpa edib.

Ötən 50 illik müddətdə sağlam mənəvi prinsiplər üzərində təşəkkül tapan teatr öz repertuarında Azərbaycan və xarici ölkə dramaturqlarının incilərinə mühüm yer ayırmaqla, respublika və beynəlxalq səviyyəli festivallarda uğurlar qazanıb. Yaradıcı kollektiv yubiley mövsümündə də həvəslə çalışır, zamanın nəbzinə uyğun səhnə əsərlərini yüksək səviyyədə tamaşaya qoymaqdan ötrü böyük əmək sərf edir.

Bu gün teatrda normal yaradıcılıq ab-havası hökm sürür. Teatrın direktor vəzifəsini icra edən İntiqam Hacılı və baş rejissor Anar Babalının birgə səyləri ilə kollektiv öhdəsinə düşən yaradıcılıq məsələlərinin həllindən ötrü əlindən gələni əsirgəmir. Hazırda teatrda 2 Xalq artisti, 3 Əməkdar artist, bir Prezidentin fərdi təqaüdçüsü və 3 Prezident mükafatçısı, həmçinin onlarla sənət fədaisi çalışır. Onların hər biri öz zəhmətləri, istedadları hesabına tamaşaçı rəğbətini qazanıb.

Yeni ildən üzübəri 4 tamaşanın ("Nuru babanın sərgüzəştləri" (müəllif və quruluşçu rejissor İ.Hacılı), "Gəl baharım, gəl yazım" (müəllif və quruluşçu rejissor A.Babalı), "Qapıda öpüş" (müəllif və quruluşçu rejissor İ.Hacılı), Yaşayan ölü" (müəllif K.Məmmədova, quruluşçu rejissor A.Babalı), habelə iki ədəbi-bədii kompozisiyanın da premyerasını keçirmişik.

Cari ilin repertuar planına uyğun olaraq yuxarıda adını çəkdiyimiz "Yaşayan ölü" tamaşası ilə yanaşı, hazırda teatrın səhnəsində paralel olaraq ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Q.Nəcəfzadənin "İki iyirmi üç arasında" (quruluşçu rejissor Emil Əskərov), Ç.Aytmatovun "Cəmilə" (quruluşçu rejissor İmran Ali Qurban), Ə.Haqverdiyevin "Kimdir müqəssir" vodevilinin motivləri əsasında "Müqəssir" (quruluşçu rejissor Abdulla Elşadlı), Avstriya dramaturqu Piter Turrininin "Bu da axırı" (quruluşçu rejissor Abdulla Elşadlı), Təranə Vahdin "Mən toz dənəsiyəm" (quruluşçu rejissor Emil Əskərov) əsərlərinin də məşqləri davam etdirilir. Mövsümün sonunadək bu tamaşaları sənətsevərlərin ixtiyarına verməyi nəzərdə tutmuşuq.

İyun ayından isə "Heydər Əliyev İli" və Azərbaycan Peşəkar Milli Teatrının 150 illik yubileyi münasibətilə "Uçan səhnə" adlı layihəyə start verəcəyik. Layihə çərçivəsində teatrımızın truppası rayonun ucqar yaşayış məntəqələrini gəzəcək, məkyəbyaşlı sakinlərlə görüşərək onların qarşısında tamaşa və əyləncəli proqramlarla çıxış edəcəkdir.

"Heydər Əliyev İli" çərçivəsində repertuarımızda özünə möhkəm yer tutmuş mərhum yazıçı-dramaturq Məmmədhüseyn Əliyevin "Prokuror" (quruluşçu rejissorlar Oruc Qurbanov və Anar Babalı) tamaşası ilə respublikamızın bölgələrinə qastrol səfərinə çıxmaq niyyətindəyik. Bundan əlavə, teatrımızın 50 illik yubileyi şərəfinə Lənkəranda teatr festivalının keçirilməsini də nəzərdə tutmuşuq.

Bir sözlə, milli teatrımızın 150, Lənkəran teatrının isə 50 illik yubileylərini yaddaqalan sənət uğurları ilə qeyd etmək əzmindəyik.

***Ağaddin BABAYEV,***
***Lənkəran Dövlət Dram Teatrının***
***ədəbi-dram hissə rəhbəri***

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

# AÇIQ TENDER ELAN EDİR

Lot - 1. Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların əsaslı təmirinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs- Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı 3000 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H\h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi tender zərflərinin açıldığı gündən sonra azı 100 bank günü təşkil etməlidir;
- tender təklifinin 1 faizi həcmində bank təminatı;
- tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı - 5 faizdir.
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq olunmalıdır. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqli təqdim edilməlidir);
- maliyyə vəziyyəti haqqında, mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat. (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq olunmalıdır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçı oxşar təyinatlı və analoji işlər sahəsində azı 3 milyon manat həcmində müqavilələr və təhvil-təslim aktları təqdim etməlidir.
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- iddiaçının texniki imkanları barədə məlumat (qaldırıcı kran 3 ədəd, özüboşaldan mexanizm 3 ədəd);
- müvafiq kadr imkanları barədə məlumat (azı 1 nəfər mühəndis, 5 il təcrübəsi olan 2 layihə rəhbəri, 2 nəfər SƏTƏM mühəndisi olmalı, əmək müqaviləsi bildirişləri ilə təqdim olunmalıdır);
- sahibkarlıq subyektinin meyarını müəyyən edən sənəd.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir).

İddiaçılar tenderlə bağlı sualları tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 23 iyun 2023-cü il saat 17.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını isə möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 7 iyul 2023-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 10 iyul 2023-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri təkliflərin açılışı prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

# "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının nəzərinə!

6 iyul 2023-cü il saat 11.00-da Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən bankın ofisində (3-cü mərtəbə, iclas zalı) bankın səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbədənkənar ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

I. 2022-ci ilin yekunlarına əsasən səhmdarlara dividend ödənişi haqqında.
Məruzəçi: Pərvin Məmmədov.
II. Digər məsələlər.
Məruzəçi: Yaşar Məmmədov.

# Azərbaycan Xalq Cümhuriyyəti: müstəqillik və əyalətlər

**(Əvvəli qəzetin 28 may 2023-cü il tarixli sayında)**

**Məqalənin əvvəlki hissəsində qeyd etdiyimiz kimi, müstəqilliyin ən mühüm yeniliklərindən biri əyalətləri Rusiya imperiyası dövründəki müstəmləkə sistemindən çıxararaq ümumazərbaycan tarixi proseslərinə cəlb etməsi, bir sıra məqamlarda həlledici mövqeyə yüksəltməsi oldu. AXC tarixinin nisbətən az öyrənilmiş mövzularından olan müstəqillik və əyalətlər məsələsi ilə bağlı apardığımız tədqiqatın milli hökumətin əyalətlər sisteminin formalaşmasına həsr edilmiş birinci hissəsinin ardını "Xalq qəzeti"nin oxucularına təqdim edirik.**

Azərbaycan hökuməti üçün ən kritik vəziyyət Qarabağ və Naxçıvanda yaranmışdı. Osmanlı ordusunun Azərbaycanı tərk etməsindən sonra bölgədə hərbi-siyasi vəziyyətini möhkəmlədən Ermənistanın təcavüzkarlığı daha da genişləndi. Ermənistanın Azərbaycana qarşı müharibəsi də yeni mərhələyə qədəm qoydu.

Azərbaycan hökuməti dövlətin ərazi bütövlüyü uğrunda mübarizəsini davam etdirirdi. Bu məqsədlə ərazinin daha səmərəli müdafiəsinin təşkili üçün əyalətlərin ərazi və hərbi-siyasi idarəsinin yeni formalarını tətbiq etməyə başladı. 1919-cu il yanvarın 13-də Qarabağdakı vəziyyət nəzərə alınaraq Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzaları əsasında müvəqqəti general-qubernatorluq yaradıldı. Yanvarın 29-da bu vəzifəyə Xosrov Paşa bəy Sultanov təyin olundu. Azərbaycan hökumətinin səyi nəticəsində ingilislər bu tədbiri qəbul etdilər. Ermənilər də qubernatorluğun fəaliyyəti nəticəsində Cümhuriyyətin hakimiyyətini qəbul etdi. Lakin bu Qarabağa yeni təcavüzün hazırlanmasının qarşısını ala bilmədi.

Cümhuriyyət hökuməti Qazax qəzasında sabitliyi qorumaq məqsədi ilə 1919-cu il fevralın 17-də Qazax qəzasına Daxili İşlər Nazirliyinin xüsusi müvəkkilini təyin etdi. Bu vəzifəyə 1919-cu il mayın 7-də Rza bəy Qaraşov təyin olunmuşdur.

Cümhuriyyət hökuməti Naxçıvan və İrəvan quberniyasının Azərbaycan ərazisinə daxil olan digər qəzalarındakı vəziyyəti də nəzarətə almağa və onların Cümhuriyyətlə inteqrasiyasına nail olmağa çalışırdı. Naxçıvan və ətraf torpaqları əhatə edən Araz-Türk Cümhuriyyəti (1918-ci il noyabr–1919-cu il mart) və sonralar onun da tərkibinə daxil olduğu Qars respublikasını (1919-cu il yanvar–aprel) da tərkib hissəsi kimi qəbul edirdi. Bunun nəticəsi idi ki, 1919-cu il fevralın 25-də Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu yaradıldı.

İngilislər bu bölgələrdə Cümhuriyyət hakimiyyətinin möhkəmlənməsinə imkan vermək istəmirdilər. Bu məqsədlə Naxçıvan və ətrafında erməni idarəçiliyi (1919-cu il may–iyul) təşkil etdilər. Yerli əhalinin və Cümhuriyyət hökumətinin diplomatik fəaliyyəti nəticəsində bu idarə üsulu süqut etdi.

Azərbaycan müstəqilliyini elan etdikdən sonra ona qarşı ərazi iddiaları ilə çıxış edən İran xüsusilə, Paris sülh konfransında fəallıq göstərirdi. Azərbaycan nümayəndə heyəti bu iddialara qarşı kəskin şəkildə mübarizə apardı. Bu öz nəticəsini verdi. 1920-ci ilin martında Cümhuriyyətlə İran arasında müqavilələr imzalandı.

1919-cu ilin avqustunda ingilislərin Bakını tərk etməsi nəticəsində Azərbaycan ərazisi, o cümlədən əyalətlərin müdafiəsi uğrunda digər mərhələ (1918-ci il avqust – 1920-ci il yanvar) başlandı.

İngilislərin Azərbaycanı tərk etməsindən sonra Cümhuriyyət bütün suveren hüquqlarını bərpa etdi. Buna baxmayaraq, bölgədəki mürəkkəb geopolitik situasiya ərazi məsələsinin stabilləşməsinə imkan vermədi. Azərbaycan hökuməti bu şəraitdə də dövlətin ərazi bütövlüyü uğrunda mübarizəsini davam etdirməkdə idi. Bölgədə nüfuzunu genişləndirmək istəyən ABŞ, Bakını tərk etmələrinə baxmayaraq, Cənubi Qafqazda maraqlarını qorumağa çalışan ingilislər, şimaldan fəaliyyətini davam etdirən Denikin və güclənməkdə olan Sovet Rusiyası başlıca aktorlar idi. Onların hər birinin mövcudluğu Ermənistanın mövqeyinin möhkəmlənməsində maraqlı idi.

Azərbaycan hökuməti ingilislərin ölkədən çıxması ilə regionda mandatlığı ətrafında fəaliyyətə başlayan ABŞ-ın ərazi bütövlüyü üçün təhlükəli siyasətini, Naxçıvan və ətrafı kimi əyalətlərin itirilməsinə yol açan layihələri aradan qaldırmağa nail ola bildi. Hələ 1919-cu il iyulun 5-də polkovnik V.Haskel "Onlar Şurası" tərəfindən Ermənistana ali komissar təyin edilmişdi. Onun adı ilə "Haskel layihələri" adlanan sənəd meydana gəldi. Haskelin avqustun 25-də Bakıda hökumət başçısı Nəsib bəy Yusifbəyli ilə görüşündə bu layihələrin mahiyyəti aydın oldu. O, Qarabağ və Zəngəzurun Azərbaycana məxsus olduğunu qəbul etsə də, Naxçıvan və Şərur-Dərələyəzi ermənilərə verməyi nəzərdə tuturdu. Bu da əslində, həmin ərazilərin Azərbaycandan qoparılması və Ermənistana birləşdirilməsi yolunda addım demək idi.

Haskel layihəsini reallaşdırmaq uğrunda çalışdığı bir zamanda Kiçik Asiya, o cümlədən Qafqaza general C.Q.Harbordun rəhbərliyi ilə ABŞ mandatlığı barədə perspektivi müəyyən etmək üçün missiya göndərildi. O, oktyabrın əvvəllərində Bakıda da görüşlər keçirdi. Azərbaycan hökuməti bu görüşlərdə öz mövqeyini ortaya qoydu. Harbord Parisə qayıtdıqdan sonra vəziyyət haqqında məruzə ilə çıxış etdi. ABŞ mandatlığı ideyası aradan qalxdı. Bu hadisə Haskelin 1919-cu ilin oktyabrında həyata keçirməyə çalışdığı Amerika general-qubernatorluğu ideyasına da təsir göstərdi. Azərbaycan hökuməti bu planı rədd etmişdi. Parisdəki nümayəndə heyəti də sülh konfransı sədrinə etiraz notası təqdim etdi. Bununla eyni zamanda, yerli əhalinin qəti iradəsi ilə bu layihənin həyata keçirilməsinə son qoyuldu.

Bu dövrdə Ermənistanın Cümhuriyyətə qarşı təcavüzü, Ermənistan-Azərbaycan müharibəsini mərkəzi məsələyə çevirmişdi. Qarabağda, xüsusilə Zəngəzurda ermənilərin genişmiqyaslı hücumu başladı. Cümhuriyyət hökuməti Qarabağa hərbi qüvvələr göndərdi. Noyabr kampaniyası olduqca gərgin keçdi. Ermənilər müharibəni siyasi üstünlüyə çevirmək məqsədi ilə təbliğatı genişləndirdilər. İngilislər də məsələyə müdaxilə etdi. 1919-cu il noyabrın 23-də Tiflisdə Ermənistan-Azərbaycan müqaviləsi imzalandı, hərbi əməliyyatlar dayandırıldı. Ermənistan bu müqaviləyə uyğun olaraq 1919-cu ilin dekabrın 14-21-də Bakıda keçirilən Azərbaycan-Ermənistan konfransında da destruktiv mövqe tutduğundan, ərazi məsələsinin həllində heç bir irəliləyiş olmadı.

İngilislər Bakını tərk etmək ərəfəsində Denikin ordusunun gücləndirilməsinə çalışması onun Azərbaycan üçün təhlükəsini daha da artırırdı. Belə ki, onlar Azərbaycana məxsus olan Xəzər hərbi donanması gəmilərinin bir hissəsini Denikin ordusuna verdi. Azərbaycan Denikin ordusuna qarşı diplomatik mübarizəsini də davam etdirirdi. Topçubaşov Paris sülh konfransı sədrinə müraciətində Azərbaycanla Denikin ordusu arasında demarkasiya xəttinə əməl edilməsini, qoşunların Dağıstandan çıxarılması və gəmilərin Azərbaycana qaytarılmasını tələb edirdi. Sovet Rusiyasının irəliləməsi nəticəsində Denikin ordusunun məğlub edilməsilə bu təhlükə aradan qalxdı, bununla da onun yerini daha aqressiv bir qüvvə tutdu.

Denikin ordusu Azərbaycan üçün yalnız hərbi təhlükə deyil, həm də Sovet Rusiyasının onun daxili işlərinə qarışması üçün bir vasitə oldu. 1920-ci il yanvarın 2-də RSFSR xarici işlər naziri Çiçerin Denikinlə mübarizə üçün hərbi qüvvələrin birləşdirilməsi haqqında Azərbaycan hökumətinə ilk notasını verdi. Yanvarın 14-də Xarici işlər naziri F.X.Xoyski cavab notasında hər iki dövlətin suverenliyi prinsipindən çıxış edərək danışıqlar yolu ilə Azərbaycan və rus xalqları arasında xeyirxah qonşuluq münasibətləri yaradılması barədə mövqeyini ifadə etdi. Eyni məzmunlu notalar mübadiləsi fevral-aprel aylarında da davam etdi. RSFSR-in notalarının əsas məqsədi Azərbaycanın daxili işlərinə qarışmaq və hərbi müdaxilə üçün diplomatik zəmin hazırlamaqdan ibarət idi.

Qafqazda sovet təhlükəsinin gücləndiyini görən müttəfiqlər Azərbaycan və Gürcüstanın müstəqilliyinin tanınması istiqamətində addımlar atmağa başladılar. 1920-ci il yanvarın 11-də Azərbaycan müttəfiqlər tərəfindən rəsmən tanındı.

Cümhuriyyətin Paris sülh konfransı tərəfindən tanınması onun tarixində yeni mərhələ açdı. Bütün bunlara baxmayaraq, bu fakt Cümhuriyyəti xilas edə bilmədi. O varlığının ən ağır və son dövrünə (1920-ci il yanvar-aprel) qədəm qoydu. Bu dövrdə bölgədə işğalçı müharibəsini davam etdirən Ermənistan və Azərbaycanı sovetləşdirmək planını həyata keçirmək istəyən Sovet Rusiyasını daha da fəallaşdırdı. Tarixi ənənəyə uyğun olaraq, Sovet Rusiyası da Ermənistandan bölgədə strateji məqsədlərinin həyata keçirilməsində vasitə kimi istifadəyə üstünlük verirdi.

Azərbaycanın müstəqilliyinin tanınması Ermənistanın hərbi-siyasi dairələri tərəfindən düşmənçiliklə qarşılandı, Azərbaycana qarşı müharibə daha da kəskinləşdi. 1920-ci il yanvarın ikinci yarısında Zəngəzura və onun vasitəsilə Qarabağın digər ərazilərinə hücumlar reallaşdırılmağa başlandı. Azərbaycan hökuməti də vəziyyəti nəzərə alaraq müdafiə tədbirlərini gücləndirməli oldu. Ermənistan 1920-ci il 22 martda genişmiqyaslı hücuma başladı. Azərbaycan hökuməti Ermənistanın təcavüzünün qarşısını almaq məqsədilə hərbi tədbirlər gördü, Qarabağ əməliyyatını bütün çətinliklərə baxmayaraq, uğurla başa çatdırdı. Erməniləri Sovet Rusiyasının şimaldan hücumu və 27 aprel işğalı ilə Cümhuriyyətin süqutu xilas etdi. Azərbaycanda hakimiyyət Hərbi İnqilab Komitəsinin əlinə keçdi.







## İnzibati-ərazi bölgüsü

Cümhuriyyətin ərazisinin siyasi birləşdirilməsinin gedişi onun inzibati-ərazi bölgüsü və strukturunun formalaşmasının dinamikasına da təsir göstərmişdir. Onun əsas mənzərəsi 1920-ci il Ünvan-təqvimdə öz əksini tapmışdır: I.Bakı quberniyası üzrə – Bakı, Göyçay, Şamaxı, Quba, Cavad və Lənkəran qəzaları; II.Gəncə quberniyası üzrə – Gəncə, Qazax, Ərəş, Nuxa, Cavanşir, Cəbrayıl, Zəngəzur, Şuşa və Şamxor qəzaları; III. Zaqatala quberniyası; IV. İrəvan quberniyası – Novobayazid qəzası üzrə – Göyçə dairəsi, Naxçıvan, Şərur-Dərələyəz və İrəvan quberniyasının digər qəzaları üzrə ərazilər. Çox maraqlıdır ki, hökumətin 1919-cu il 17 fevral tarixli bir sənədində bu ərazilər Cənub-Qərbi Azərbaycan kimi ayrılır. 28 fevralda isə məhz həmin ərazidə Cənub-Qərbi Azərbaycan general-qubernatorluğu yaradılır. Tiflis quberniyası üzrə müvafiq polis sahələrini əhatə edən Borçalı, Qarayazı və Sığnaq isə bu inzibati-ərazi bölgüsündən kənarda qalırdı.

Cümhuriyyətin ərazi-inzibati strukturunun tərkibindən göründüyü kimi, burada müxtəlif inzibati vahidlər bir araya gətirilib. Onların arasında Rusiya imperiyası dövründə formalaşan quberniya-qəza sistemi (Gəncə və Bakı quberniyaları), yalnız məntəqələrdən ibarət olan Zaqatala quberniyası, keçmiş İrəvan və Tiflis quberniyalarından olan qəzalar və polis sahələri vardır.

## Əhalinin yerləşməsi

Cənubi Qafqazda, o cümlədən yeni meydana gələn respublikalarda ərazi məsələsində olduğu kimi, əhaliyə dair məlumatlar da Rusiya imperiya statistikası əsasında aparılırdı. Əhali statistikası ərazi statistikasına görə, daha çox təhrif olunurdu. Buna görə də əhalinin sayının müəyyən edilməsində istifadə edilən mənbə və hesablama üsulu da nəzərə alınmalıdır.

Əlimərdan bəy Topçubaşovun Antanta dövlətlərinin İstanbuldakı nümayəndələrinə təqdim etdiyi xüsusi memorandumda əhaliyə dair hesablamalar 1897-ci il ümumrusiya əhali siyahıya alınması əsasında aparılıb. Burada həmin əhali siyahıya almasının tənqidi də verilib.

Hesablamalar əsasında Cənubi Qafqazın əhalisinin etnik tərkibindən bəhs edilərkən göstərilir ki, Azərbaycan türkləri 2 milyon 653 min, ermənilər 1 milyon 782 min, gürcülər 1 milyon 641 min nəfər idi. Cənubi Qafqazın 237 min 55 kvadratkilometrlik ərazisində yaşayan 7 milyon 667 min 370 nəfər əhalinin etno-konfessional tərkibində də müsəlmanlar üstün idi. Əhalinin 3 milyon 306 min nəfəri (43,1 faiz) müsəlman, 1 milyon 786 min (23,3m faiz) erməni, 1 milyon 641 min nəfəri (21,4 faiz) gürcü idi. Həmin sənədə əsasən, Azərbaycan Xalq Cümhuriyyəti ərazisində (85 min kvadratverst və ya 96,502 min kvadratkilometr) əhalinin sayı Cənubi Qafqaz əhalisinin 30,7 faizini təşkil edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin, Paris sülh konfransına təqdim etdiyi sənədlərə görə isə, yuxarıda qeyd edildiyi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin həqiqi hakimiyyəti altında olan ərazi Cənubi Qafqaz ərazisinin 38 faizinini, Azərbaycan hakimiyyətinin yayıldığı ərazilərlə birlikdə isə 60,7 faizini əhatə etdiyi bildirilirdi. Göstərilən sənədlərdə məhz həmin əraziyə müvafiq olaraq Cənubi Qafqazın əhalisi də hesablanmışdır. 1918-ci il noyabr memorandumundan fərqli olaraq, burada istifadə edilən mənbə və hesablama üsulu şərh olunub. Belə ki, burada 1897-ci il əhali siyahıya almasının məlumatları əsas götürülüb.

Siyahıya almanın göstəricilərinə 20 ilin artımı əlavə olunmuş və Azərbaycan əhalisinə 25 faiz artım əlavə edilmişdir. Belə olduqda, Cənubi Qafqazın əhalisi 8 milyon 81 min 668 nəfər müəyyən edilib. Onların 4 milyon 617 min 671 nəfəri (57,1 faiz ) Azərbaycanda yaşayırdı. Azərbaycan əhalisinin 75,4 faizni (3 milyon 481 min 889 nəfər) azərbaycanlılar, 17,2 faizini (795 min 312 nəfər) ermənilər, 0,6 faizini (26 min 585 nəfər) gürcülər, 6,7 faizini (213 min 885 nəfər) digər xalqların (ruslar, almanlar, yəhudilər və b.) nümayəndələri təşkil edirdi.

Əhali haqqında daha bir məlumat 1920-ci il Ünvan-təqvimində nəşr edilmişdir. Burada verilən rəqəmlər mübahisəsiz hesab edilən ərazilərə aiddir. Həmin rəqəmlər isə 1917-ci il Qafqaz təqviminin məlumatları əsasında hesablanmışdır.

Həmin dövrdə Azərbaycan Respublikasının mübahisəsiz ərazisində (97,3 min kvadrat kilometr) yaşayan əhalinin ümumi sayı 2 milyon 861 min 862 nəfərə bərabər idi, yeni hər kvadratkilometrə 29,4 nəfər düşürdü. Müsəlmanlar (əsasən, Azərbaycan türkləri) əhalinin 68,2 faiz, ermənilər 21,4 faiz, gürcülər 0,6 faiz , ruslar 7,5 faiz, digər xalqların nümayəndələri isə 2,3 faizini təşkil edirdi. Göstərilən mənbənin məlumatına görə, Bakı quberniyasında 1 milyon 281 min 575 nəfər (şəhər əhalisi 72 min 509, kənd əhalisi 803 min 237, Bakı şəhər rəisliyinin əhalisi 405 min 829 nəfər), Gəncə quberniyasında 1 milyon 275 min 131, Zaqartala mahalında 92 min 698, İrəvan quberniyasının bir hissəsində 212 min 458 nəfər əhali var idi.

Cümhuriyyət istər bölgədəki, istərsə də beynəlxalq aləmdəki vəziyyəti də nəzərə almış, əhali və əraziyə dair siyasəti dinamik səciyyə daşımışdır. Paris sülh konfransındakı Azərbaycan sülh nümayəndəliyinin tələblərinə görə, Cümhuriyyət bu zaman yalnız etno-coğrafi deyil, o zamankı dünya düzənindən istifadə edərək olduqca mühüm strateji məqsədi də hədəfə alıb. Qara dənizə çıxış imkanı əldə etmək burada vacib yer tuturdu. Cümhuriyyət ərazini siyasi hakimiyyəti baxımından təsnif etsə də, onun əsaslarını hər bir halda Azərbaycanın şimalındakı tarixi torpaqların böyük hissəsinə sahibliyi təşkil etmişdir.

Əraziyə nisbətən, əhaliyə dair məlumatlar, əsasən, təqribi xarakter daşımışdır. Burada ümumi rəqəmlər ifadə edilmişdir. Əslində isə, hərbi-siyasi vəziyyət və xüsusilə, Ermənistanın Azərbaycan torpaqlarında həyata keçirdiyi soyqırımları və deportasiyalar böyük əhali itkisi ilə müşayiət olunmuşdur.



***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix İnstitutunun baş direktoru, professor***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 113 (30229) 31 may 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## "Qarabağ"ın yeni rekordu – evdə 300 qələbə

**"Qarabağ" komandası Premyer Liqanın XXXVI turunda qələbə qazanmaqla növbəti uğura imza atıb. Belə ki, yığma Azərbaycan çempionatlarında 300-cü ev qələbəsinə nail olub.**



Qurban Qurbanovun yetirmələri mövsümün son matçında "Turan Tovuz"a qalib gəliblər – 3:1.

Ağdam klubu 1992-ci ildən keçirilən ölkə çempionatlarında 300-cü ev qələbəsinə 438-ci oyunda bayram edib. "Qarabağ" bu göstəricidə mütləq rekordçudur.

## Şahmatçımız ABŞ-da birinci olub

**ABŞ-da keçirilən açıq turnirdə Azərbaycan şahmatçısı Vasif Durarbəyli uğurla çıxış edib.**



Təmsilçimiz 6,5 xal toplayaraq yarışın qalibi olub.

İsveçrə sistemi üzrə keçirilən turnir 9 turdan ibarət olub.

## Ən güclü həndbol komandaları müəyyənləşib



**Həndbol üzrə XXIX Azərbaycan çempionatına yekun vurulub.**

Kişi həndbolçular arasında "İdman Akademiyası" 60 xalla Azərbaycan çempionu adına layiq görülüb. "Dinamo" 52 xala ikinci, "Məhsul" 50 xalla üçüncü yeri tutub.

Qadınlar arasında mübarizədə isə "Azəryol" qızıl, "Qarabağ" gümüş, "İdman Akademiyası" isə bürünc medallara layiq görülüb.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

*Texnologiya yenilikləri*

## "Apple" "iCloud"u bağlayır

**"Apple" foto və videoları saxlamaq üçün istifadə etdiyi "My Photo Stream" xidmətini bağlayacağını açıqlayıb. Şəbəkədən çıxarılacaq proqram istifadəçilərə 1000 faylı pulsuz saxlamağa imkan verəcək.**

Qeyd edək ki, iyulun 26-dan etibarən bu proqramdakı fayllar arxivlənəcək və onlar avtomatik olaraq "iCloud" şəkil qalereyasına yönləndiriləcək.

Şirkət bildirib ki, "My Photo Stream"də saxlanılan fayllar avqustun 25-dək aktiv olacaq. Şəkillər və videolar istifadəçilərin cihazlarından silinməsə də, onların "İCloud" hesabından silinəcək və sinxronizasiya mümkün olmayacaq. İyulun 26-dan etibarən isə "My Photo Stream"ə yeni fayllar yüklənə bilməyəcək.

Sonda bildirək ki, "İCloud" hesabı olan hər bir istifadəçi 5 GB pulsuz yaddaş əldə edə biləcək. Belə ki, daha yüksək yaddaş sahəsi üçün "Apple"ə abunə olmalısınız. Bununla da, "Google Foto" və ya "Dropbox" kimi xidmətlərə də baxmaq mümkün olacaq.

*Səadət RZAYEVA, "Xalq qəzeti"*

## Snapdragon prosessoru "Apple"dən güclü ola bilər

**Qualcomm noutbuklar üçün nəzərdə tutulmuş Snapdragon 8cx Gen 4 prosessorunu hələ təqdim etməyib. Lakin buna baxmayaraq internetdə artıq onun performans testinin nəticələri ortaya çıxıb. Əgər performans testi nəticələri həqiqəti əks etdirərsə, Snapdragon 8cx Gen 4 prosessoru bəzi göstəricilər üzrə "Apple" şirkətinin gələcək M3 prosessorundan daha güclü olacaq. Beləliklə,**




**verilmiş məlumata əsasən Snapdragon 8cx Gen 4 prosessoru Geekbench 5 bençmarkının çox nüvəli testi çərçivəsində 15 min xal toplayıb.**

Məlumatda qeyd edilib ki, "Apple" M3 prosessoru isə eyni test çərçivəsində 11 min xal toplayıb. Bu isə o deməkdir ki, çox nüvəli test çərçivəsində Qualcomm prosessoru "Apple" prosessorundan 33 faiz daha yüksək nəticə sərgiləyib. İnsayderlərin sözlərinə əsasən, bir nüvəli test çərçivəsində Snapdragon 8cx Gen 4 prosessoru "Apple" M3-dən geridə qalıb. Qualcommun noutbuklar üçün nəzərdə tutulmuş yeni prosessorunu nə zaman təqdim edəcəyi bilinmir.

*Z.BAYRAM, "Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## Qoy güllər açılsın!

**Bir gözəl foto ilə müşayiət olunan bu kiçik paylaşım "Facebook"da qarşıma dünən çıxıb. Bu gözəl güllərə baxıb xeyli duyğulandım, səmimi, pozitiv sözləri oxuyub çox məmnun oldum.**



"Xalq qəzeti" olaraq biz bütün oxucularımızın ovqatının hər zaman xoş olmasını arzulayırıq. Bu çiçəkləri isə bizdən lütfən hədiyyə kimi qəbul edin!

*Bir bağçada daim*
*eyni çiçəklər olsa,*
*o bağça gözəl olmaz...*
*Sən, mən, o, biz varıq deyə,*
*gözəldi bu bağça...*
*Qopartma fərqli çiçəkləri,*
*qalsın rəngləriylə, ətirləriylə..*
*Sabahınız gözəlliyə açılsın.*
*Gününüz gözəlliklərlə keçsin.*

*Xalq şairi Rəsul Rza demiş: Qoy dünyamızda güllələr deyil, daim güllər açılsın!*

*M.HACIXANLI, "Xalq qəzeti"*

## "Kremasiya zərgərliyi" və ya küldən hazırlanan brilyant...

**Kremasiya, ölən şəxsin qalıqlarının külə çevrilməsi üçün güclü istilikdən istifadə edilən bir prosesdir. Bu proses bir mərhumu saxlayan və təxminən, iki saat ərzində onları güclü istiyə məruz qoyan xüsusi dizayn edilmiş kremasiya kamerasında baş verir.**



Çin, Yaponiya və ya Tayvan kimi Şərqi Asiya ölkələrində ölünün sümükləri ailə tərəfindən toplanır və küllə birlikdə qorunub saxlanılır.

Bəzi şirkətlər yandırılmış külün qalıqlarını sintetik brilyantlara çevirir. Bu, "kremasiya zərgərliyi" həmçinin dəfn zərgərlikləri və ya xatirə zərgərlikləri kimi də tanınır.

Onlar yaxınlarının cəsədini karatından asılı olaraq 5-20 min dollar arasında dəyişən bir məbləğə brilyanta çevirirlər. Bu proses, təxminən, 3 ay ərzində baş tutur. Ölünün külü xüsusi hazırlanmış medalyonun içərisinə yerləşdirilir. Bu medalyonlar əsasən mavi rəngdə olur.

Qeyd edək ki, Yaponiyada ölən insanın külündən almaz üzük və ya boyunbağı düzəldən firma da fəaliyyət göstərir.

*Fidan HÜQUQQIZI, "Xalq qəzeti"*

## ABŞ-da mayaklar hərraca çıxarılır

**ABŞ federal hökuməti nəsillər boyu Amerika sahilləri boyunca gözətçi kimi xidmət edən 10 mayakı hərraca çıxarır. Bu mayaklar heç bir ödəniş etmədən maraqlanan şəxslər və təşkilatlara təqdim olunacaq.**



Hərracda artıq dörd mayak satılıb. Onlar arasında 1911-ci ilə aid 50 fut (15, 5 metr) polad qüllələrdən ibarət "Cleveland Harbour West Pierhead Light" adlı mayak da var. Digər mayaklardan ikisi Massaçusets ştatında Kiçik Mark adasında, o biri isə Pensilvaniyada yerləşir.

Qeyd edək ki, ABŞ federal hökuməti 2000-ci ildə Milli Tarixi Mayakların Qorunması Aktını qəbul edib. Mayakların mülkiyyət hüququ ümumi satış nümayəndəliklərinə məxsus şirkətlərə təhvil verilib. Nəticədə, təxminən, 150 mayakın yeri dəyişdirilib, hərraca çıxarılan 70 mayakdan isə 10 milyon dollardan çox gəlir əldə edilib.

*F.SALMANOVA, "Xalq qəzeti"*

## Kosmosdan Yerə elektrik enerjisi



**Kosmosdan Yerə elektrik enerjisinin ötürülməsi bir neçə il əvvəl çoxlarına nağıl kimi görünə bilərdi. Lakin artıq bəzi ölkələr elektrik enerjisini kosmosdan Yer kürəsindəki istehlakçılara ötürülməsi üzrə müxtəlif layihələr üzərində çalışırlar.**

Yeri gəlmişkən, belə ölkələr arasında ABŞ, Çin və Rusiya var. Yaxın müddətdə isə onlara Avropa Birliyi də qoşulacaq. Yaponiya, öz növbəsində uzun məsafəyə elektrik enerjisinin ötürülməsi texnologiyalarının nə dərəcədə effektiv şəkildə çalışdıqlarını yoxlamaq üçün 2025-ci ildə müvafiq testlər aparmağı planlaşdırır.

Qeyd edək ki, reallaşdırılacaq testlər çərçivəsində mütəxəssislər elektrik enerjisini kosmosdakı peyklərdən Yer kürəsi səthindəki qəbuledici stansiyalara ötürməyə çalışacaqlar.

*"Xalq qəzeti"*

✓ Xaçmaz Rayon Əhalinin Sosial Müdafiəsi İdarəsi tərəfindən Səlimova Baxtika Abusalam qızına verilmiş 027490 nömrəli şəhid anası vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

*Sağlamlıq guşəsi*

## Düzgün içməyəndə dərd verir su da

**Su orqanizmin həyati funksiyalarını qorumaq üçün lazımdır, lakin bəzən düzgün içilmədikdə zərər verə bilər. Qastroenteroloqların fikrincə, su olmadan insan orqanizmi düzgün fəaliyyət göstərə bilməz.**



Bu gün suyun mədə şirəsini azaltması və həzmə zərər verməsi ilə bağlı elmi təsdiqlənmiş sübut yoxdur. Buna görə də, prinsipcə, yemək yeyən zaman su içmək olar. Ancaq iki şərtə əməl edilməlidir: artıq yeməyi çeynəmisiniz və udmusunuz; suyun həcmi yediyinizin üçdə birindən çox deyil.

Birdəfəyə çox su içməyin. Belə vərdiş mədənin uzanmasına və sonradan həddindən artıq yeməyə və piylənməyə səbəb ola bilər. Əslində, yeməkdən yarım saat sonra su içmək lazımdır. Quru yeməklərlə meyvə şirəsi, şirin çay və ya digər dadlı, qazlı sular içmək olmaz.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

*Proqnoz*

## Yağış yağacaq, külək əsəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən mayın 31-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Əsasən səhər və axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 19-24°, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23°, gündüz 30-34°, dağlarda gecə 8-13° , gündüz 14-19°, bəzi yerlərdə 20-25° isti olacaq.

*Q.QASIMOV, "Xalq qəzeti"*

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin professoru

**BİLAL İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Geologiya və Geofizika İnstitutunun kollektivi biota təkamülü və geoloji hadisələrin korrelyasiyası şöbəsinin rəhbəri Şəfəq Bayramovaya bacısı

**AFƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun rəhbərliyi və kollektivi institutun əməkdaşı İsa Eyyubova anası

**SƏBİHƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5182
SİFARİŞ 1324
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00